www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7-9 may 2016-cı il Şənbə № 99 (6420) Qiymət 60 qəpik

**Xəbər**

## Azərbaycan ordusu döyüş hazırlığına başladı

yazısı səh.11-də

**Gündəm**

### "Azpetrol" rəhbərliyi 250 milyon dollarlıq korrupsiya iddiasına niyə susur?



Şirkət ictimaiyyətə heç bir izahat vermədi; susmaqla iddiaları təsdiqləmiş oldu

yazısı səh.4-də

### Müharibə tərəfdarlarının sayı günbəgün artır

yazısı səh.3-də

### Çin iqtisadiyyatı çöksə, dünya bazarında nə baş verər...

yazısı səh.4-də

### Obamaya ünvanlanan petisiyaya 330 min səs verildi

yazısı səh.3-də

### 20 illik baş nazir - Artur Rəsi-zadə

yazısı səh.5-də

### Davudoğlunun istefasının pərdəarxası

yazısı səh.7-də

### Əliməmməd Nuriyev 400 minlik rüşvət qalmaqalından danışdı

yazısı səh.13-də

### İki gənc Müsavat Partiyasından istefa verdi

yazısı səh.2-də

### Ermənistanın qondarma "DQR"in tanınmasına risk etməməsinin sirri

yazısı səh.9-də

### Kəndlilərin torpağa görə cərimələnməsi parlamentdə mübahisə yaratdı

yazısı səh.3-də

### Naxçıvanın sabiq milli təhlükəsizlik nazirini daha döymürlər

yazısı səh.12-də

### ABŞ: "Dağlıq Qarabağı tanımırıq..."

yazısı səh.11-də

## Şuşanın işğal günü ilə bağlı kritik 3 gün

# AZƏRBAYCAN MÜHARİBƏ ANONSU VERDİ - HAQQ SAVAŞI HƏR AN BAŞLAYA BİLƏR!

Müdafiə Nazirliyindən düşmənə xəbərdarlıq və çağırış: "Hər gün səksəkə, qorxu içində yaşamaq istəmirsizsə, işğala son qoyun!"; beynəlxalq birliyin mövqeyi də aprel uğurunu təkrarlamaq üçün Bakıya əlverişli fürsət yaradır; rusiyalı hərbi ekspert: "Azərbaycanda elə silah var ki, heç Rusiyada yoxdur"...



yazısı səh.9-da

## "Murdar ət satışını Şeyxin yaxın adamları himayə edir" - sensasion iddia

Leş mafiyasının qara əməlləri haqda yeni şok faktlar; mənşəyi bilinməyən ət məhsullarının satışını həyata keçirən şəbəkə, deyilənə görə, Allahşükür Paşazadənin adamları ilə anlaşıb; hörmətli Şeyximiz bu faktı bilsə...

yazısı səh.5-də



### Hüquq müdafiəçisi amnistiya təşəbbüsü üçün Mehriban Əliyevaya müraciət etdi

yazısı səh.2-də



*Turqut Ər:*

### "Azərbaycanda müəyyən qruplar Türkiyəyə qarşı düşmənçilik yayır"

yazısı səh.6-da



### Ekspertdən Ramiz Həsənova benzin ittihamı

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 99 (6420) 7 may 2016



# Prezident Mülki Aviasiya Administrasiyasına direktor təyin etdi

**İlham Əliyev A.Ə.Məmmədovun Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir: Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:**

Arif Əhməd oğlu Məmmədov Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru təyin edilsin.

# Deputatlar mətbuatın müdafiəsinə qalxdı



**Devalvasiyadan sonra çap mediasının üzləşdiyi problemlər Milli Məclisin sonuncu iclasında da müzakirə mövzusu oldu. Bundan əvvəlki iclaslarda olduğu kimi, bu dəfə də parlamentarlar mətbuata güzəştlərin tətbiq edilməsi, çap xərclərinə tətbiq edilən ƏDV-nin ləğvi məsələsini qaldırdılar.**

**Deputat Araz Əlizadə** mətbuatı ƏDV-dən azad etməyə çağırdı: "Cənab prezident dəfələrlə mətbuata bir neçə milyonluq güzəşt edib. Ancaq ƏDV ildə təqribən yüz mindən bir az artıq vəsait edir, faktiki olaraq qəpik-quruşdur. Nədir, bilərəkdən qəzetləri hakimiyyətin əleyhinə qaldırırlar? Bunu ora salmaq çox çətindir?"

**Mətbuat Şurasının sədri Əflatun Amaşov da növbəti dəfə mətbuata tətbiq olunan ƏDV-ni qaldırmağa çağırdı:** "Ölkədə reklamın olmadığı bir vaxtda, yanvar ayından çap məhsullarına ƏDV tətbiq olunur və bu, mətbuatın vəziyyətini daha da çətinləşdirir. Mən təklif edərdim ki, çap məhsulları da ƏDV-dən azad olunan məhsullar sırasına aid edilsin. Çünki Azərbaycan mətbuatı ordunun həyata keçirdiyi missiyanı hazırkı informasiya müharibəsi dövründə həyata keçirir. Ona görə də xahiş edirəm ki, mətbuatın durumunu yaxşılaşdırmaq üçün bu addım atılsın".

**Deputat Hikmət Babaoğlu da prezidentin mətbuata göstərdiyi diqqəti, KİVDF-nin yaradılmasını xatırlatdı və ƏDV-nin ləğvini istədi:** "Amma keçən ilin dekabrındakı devalvasiyadan sonra çap mediasının vəziyyəti bir qədər ağırlaşıb. Biz bu gün peşəkar jurnalistlərin yetişməsini, xaricdə təcrübə keçməsini və bu sahədə vəziyyətin yaxşılaşmasını istəyirik. Ona görə də 164-cü maddəyə çap mediasına ƏDV-nin tətbiqinin ləğvi barədə əlavənin edilməsini xahiş edirəm".

**Parlament sədrinin birinci müavini Ziyafət Əsgərov mətbuata tətbiq olunan ƏDV-nin götürülməsi ilə bağlı təkliflərə reaksiya verdi:** "Bu gün biz mətbuatla bağlı məsələni müzakirə etmirik. Amma əgər mətbuatla bağlı problemlər varsa, bu barədə təşəbbüslə çıxış etmək millət vəkillərinin hüququdur".

**Təkrar söz alan Araz Əlizadə isə dedi ki, mətbuata qayğı ilə bağlı cənab prezidentin zamanında çəkdiyi əziyyətləri bu gün yerə vururuq:** "Biz Vergilər Məcəlləsinə bir cümləni əlavə etməklə bu məsələyə nöqtə qoya bilərik".

❑ **E.PAŞASOY**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Hüquq müdafiəçisi amnistiya təşəbbüsü üçün Mehriban Əliyevaya müraciət etdi

## Mirvari Qəhrəmanlı: "Yenə də Mehriban xanım humanist addım atsın"

**Əfv məsələsi yenidən aktuallaşıb. Bu ayın ya 10-da, ya da 28-də dövlət başçısı tərəfindən əfv sərəncamının imzalanacağı deyilir.**



Bu xəbərlərin fonunda hətta 10 mayda amnistiya veriləcəyi də ehtimal olunur. Mövcud şəraitin də buna imkan verdiyini düşünmək olar. Belə ki, ötən ilin bu vaxtı Qərbdən gələn təzyiqlər nəticəsində son anda Azərbaycan hakimiyyəti əfv sərəncamı imzalamaqdan vaz keçmişdi. Amma indi situasiya tamam fərqlidir. Azərbaycanla Qərb arasındakı münasibətlər düzəlib və bunun nəticəsində qənaətbəxş sayılan mart əfvi verilib. Artıq Qərb həbsdə qalan azsaylı siyasilərin azadlığı üçün son cəhdlərini edir. Ölkə iqtidarı da məhbus problemini tamamən aradan qaldırmaqda qərarlı görünür.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı "Yeni Müsavat"a açıqlamasında Qərbin Azərbaycana qarşı münasibətində taktikanı dəyişdiyini söylədi:** "Əvvəllər xarici təşkilatların fəaliyyəti bizi narahat edirdi. Bunun üçün dəfələrlə tələblərimiz oldu ki, siyasi məhbus məsələsində taktikanı dəyişsinlər. Çünki hakimiyyətin nəyisə bəhanə etməsini istəmirdik. Mart ayındakı əfvə şad olduq. Hökumət adına başqa taktikadan istifadə edilməsini, əfvdən əlavə amnistiya da verilməsini vacib sayıram. Çünki elə siyasi məhbuslar var ki, əfv yazmaq istəmirlər. Onlar düşünürlər ki, əfv yazan məhbus özünü bu və ya digər dərəcə təqsirli bilir, yaxud qismən ittihamlarla razılaşır. Məhbuslar da var ki, günahını qəbul edir və düşünürlər ki, əfv yazsalar azad oluna bilərlər. Azərbaycan hökuməti qınaqlardan qurtarmaq üçün amnistiya yolunu seçməlidir. Bir neçə il bundan öncə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva amnistiya ilə bağlı Milli Məclisə müraciət etmişdi. O vaxt amnistiya ilə çoxsaylı məhbus həbsdən azad olmuşdu. Qəzetiniz vasitəsilə Mehriban xanıma müraciət etmək istərdim. Nəyə görə Mehriban xanıma müraciət edirəm? O, millət vəkili, Heydər Əliyev Fondunun rəhbəri və ölkə başçısının xanımıdır. Düşünürəm ki, ən çox onun müraciəti Milli Məclisdə qəbul oluna bilər. Həmfikir tapması da çətin olmaz. Onun müraciəti müzakirəsiz qəbul olunacaq. Yenə də Mehriban xanım humanist addım atsın. Mədən Sənayesinin Artırılması Koalisiyasında, Açıq Hökumət Təşəbbüsü və digər beynəlxalq proseslərdə qınağa məruz qaldığımız üçün Azərbaycan xətrinə Mehriban xanım belə təşəbbüsü üzərinə götürüb, parlamentə amnistiya ilə bağlı layihə təqdim etsin. Arzu edərdim elə bir amnistiya verilsin ki, Azərbaycanın tarixinə yazılsın. Dünya tərəfindən də alqışlanan qərar olsun. Bunu gözləyirəm. Xatırlayırsınız, Yunuslarla bağlı addım da məhz Mehriban xanımın təşəbbüsü ilə atılmışdı. Çox istərdim ki, Mehriban xanım bu təşəbbüsü də reallaşdırsın".

❑ **Cavanşir ABBASLI**

# İki gənc Müsavat Partiyasından istefa verdi

**Müsavat Partiyasından "AG blok"çuların istefası davam edir. Musavat.com-un xəbərinə görə, "AG blok"un təsisçilərindən olan Tural Abbaslının istefasından sonra Əhəd Məmmədli və Rüfət Hacıbəyli də partiyadan çıxıblar.**

Ə.Məmmədli istefası barədə musavat.com-a özü məlumat verib. O bildirib ki, 15 ildir Müsavatın üzvüdür: "Partiya üzvü olduğum bu 15 ildə vicdanla fəaliyyət göstərdiyimi və hakimiyyətlə mübarizənin önündə olanlardan biri olduğumu düşünürəm. Müsavatçılıq ideologiyasının Azərbaycanın azadlığının, inkişafının və xoşbəxtliyinin əsas yolu olduğuna səmimi qəlbdən inanmışam və bu gün də inanıram. Ancaq təəssüflər olsun ki, partiyanın son qurultayından sonra Müsavat bayrağı altında bu ideologiyaya uyğun olmayan xətt tutuldu. Mən və dostlarım bu yanlışı düzəltməyə cəhd etsək də, niyyətimizə nail ola bilmədik. Mən bizdəki mübarizə enerjisinin Azərbaycanın rifahına sərf olunmasının tərəfdarıyam. Odur ki, Azərbaycanın üç rəngli bayrağında da öz əksini tapmış əsl müsavatçılıq ideologiyasına sadiq qalaraq yeni ad altında fəaliyyət göstərərək mübarizə aparmaq qərarına gəlmişəm. Yuxarıda qeyd etdiklərimi nəzərə alaraq Müsavatdan istefa verdiyimi bəyan edir, əsl müsavatçılara bundan sonrakı fəaliyyətlərində uğurlar arzulayıram".

Partiyanın keçmiş başqanı İsa Qəmbərin gənclərlə iş üzrə sabiq müşaviri, təşkilatın Məclis üzvü Rüfət Hacıbəyli də oxşar arqumentlərlə partiya sıralarından istefa verib.

Xatırladaq ki, Müsavat Partiyasının 2014-cü il sentyabrın 27-də keçirilən VIII qurultayında Arif Hacılı 228 səslə başqan seçilib. Digər namizəd Qubad İbadoğlu 200 səslə ikinci, Tural Abbaslı isə 20 səslə üçüncü olub. Qurultayın nəticələrindən narazı qalanlar növbədənkənar qurultay keçirilməsi tələbini irəli sürüblər. Bundan sonra Q.İbadoğlu Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatını yaradıb. Partiya rəhbərliyi isə Q.İbadoğlunun bu addımını bölücülük kimi qiymətləndirib və onu partiyadan xaric edib. Tural Abbaslı da tərəfdarları ilə birlikdə "AG blok" yaratdığını elan edib. O da Müsavatdan istefa verib. Hazırda "AG blok" partiyaya çevrilir. Ə.Məmmədli və R.Hacıbəyli də T.Abbaslının tərəfdarlarındandır.

❑ **RÖYA**



# Ərdoğan: "Siz orada terrorçulara çadır quracaqsınız, bizə də viza şərti irəli sürəcəksiniz"

**"Avropa İttifaqı Türkiyə ilə vizanın götürülməsi qarşılığında terrora qarşı mübarizə qanununu dəyişdirməyimizi istəyir. Siz orada terrorçulara çadır quracaqsınız (Belçikada və Avropanın başqa şəhərlərində terrorçu PKK-nın zərərsizləşdirilmiş silahlılarına qurulan yas çadırlarını nəzərdə tutur), sonra gəlib bizə viza şərti irəli sürəcəksiniz".**

"Report" xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Eyub bələdiyyəsində sosial xidmətlər üçün binanın açılış mərasimində bildirib.

"Baxaq, görək. Biz yolumuzla gedirik. Sən yolunla get. Kiminlə anlaşa bilirsən, get onunla anlaş", -deyə Rəcəb Tayyib Ərdoğan vurğulayıb.

Qeyd edək ki, Əhməd Davudoğlu istefa verdikdən sonra ABŞ və Avropa İttifaqı Türkiyə ilə Aİ arasında qaçqın və viza məsələlərində əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıblar.



# Azərbaycan ordusu döyüş hazırlığına başladı

**Müdafiə nazirinin tapşırığına əsasən qoşunların döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə hərbi birlik və birləşmələrdə keçirilən təlimlərə cəlb edilən müxtəlif növ hərbi texnikanın müəyyən edilmiş marşrutlar üzrə planlı şəkildə daşınması həyata keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, "Həyəcan" siqnalı ilə qaldırılan hərbi hissələrin zirehli döyüş texnikaları cəmləşmə rayonlarına çıxarılaraq hərbi daşınmaların tələblərinə və müəyyən edilmiş normalara uyğun müvafiq istiqamətlər üzrə qısa müddətdə təlim bölgələrinə çatdırılıb.

Döyüş texnikası və şəxsi heyətin hərəkətinin tənzimlənməsi və təhlükəsizliyinin təmin edilməsi məqsədilə yollarda və marşrutlarda komendant xidmətləri təşkil olunub.

# "Tərəflər atəşkəs sazişinə ciddi şəkildə əməl etməlidir"

**ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi bizim mövqeyimiz ondan ibarətdir ki, tərəflər atəşkəs sazişinə ciddi şəkildə əməl etməli, hərtərəfli sülhə nail olmaq üçün dərhal danışıqlara gəlməlidirlər.**

Bu sözləri APA-ya açıqlamasındaATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik təmas xəttində gərginliyin davam etməsi ilə bağlı deyib.

O bildirib ki, münaqişənin hərbi yolla həlli yoxdur.

# Dolların mayın 10-na məzənnəsi açıqlanıb

**Azərbaycan Mərkəzi Bankı (AMB) mayın 10-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. Bankdan musavat.com-a verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi mayın 10-na 1,5094 səviyyəsində müəyyən olunub.**

YENİ MÜSAVAT
N 99 (6420) 7 may 2016

# "Bu bizim ciddi uğurumuzdur"

**Elxan Süleymanov:** "Ümid edirik ki, Obama Administrasiyası Avropanın 45 ölkəsinin səs verdiyi 2085 saylı qətnaməyə adekvat münasibət bildirəcək"

**Mayın 6-da Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Ağ Ev administrasiyasına ünvanlanan "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" petisiya layihəsinin yekunlaşmasına dair mətbuat konfransı keçirildi.**



Mətbuat konfransında petisiya ilə bağlı bir ay ərzində görülən işlərə həsr olunmuş videoçarx nümayiş etdirilib. Layihənin müəllifi, AVCİYA prezidenti, deputat Elxan Süleymanov dedi ki, mayın 6-dək indiyədək petisiyaya 330 minə yaxın səs toplanıb. Onun sözlərinə görə, mayın 6-da petisiyanın qeydə alınması üçün minimal imza limitinin toplanması başa çatır. Amma Ağ Ev Administrasiyası müraciətə cavab verən günədək petisiya imzalamaq üçün açıq saxlanılır: "İyulun 6-dək Obama Administrasiyası müraciətə cavab verməlidir. Biz 26 yanvar 2016-cı ildə AŞ PA-nın sessiyasında 2085 saylı qətnamənin qəbul olunması ilə çox böyük uğur qazandıq. Çünki indiyə qədər AŞ PA-da Ermənistan işğalçı dövlət kimi tanınmırdı. Bu qətnamə ilə Ermənistana işğalçı damğası vuruldu. Biz ümid edirik ki, Obama Administrasiyası Avropanın 45 ölkəsinin səs verdiyi i 2085 saylı qətnaməyə adekvat münasibət bildirəcək, onu dəstəkləyəcək".

**Deputat bildirib ki, səsvermədə Azərbaycan vətəndaşları ilə yanaşı, Türkiyə vətəndaşları da aktiv iştirak ediblər:** "Türkiyənin hakim partiyası olan AKP, həmkarlar ittifaqları, deputatlar, məşhur müğənnilər, futbolçular hər kəsi petisiyaya səs verməyə çağırdılar. Onlara təşəkkürümüzü bildirirk. Həmçinin bu layihəni işıqlandıran, petisiyanın linkini yerləşdirərək insanları ona səs verməyə çağıran media orqanlarına dərin təşəkkürümüzü bildirirk".

**Elxan Süleymanov deyib ki, petisiyada təkcə Azərbaycan xalqının, bizi dəstəkləyən toplumların mövqeyini deyil, AŞ PA-nın işğal faktını rəsmiləşdirən 2085 saylı qətnaməsi əks olunur:** "45 üzv dövlətin səs verdiyi bir qətnaməyə Ağ Evdən dəstək tələb edirik. Ümid edirik ki, Ağ Evin reaksiyası gerçəkliklərə uyğun olacaq".

**Deputat qeyd edib ki, 2-5 apreldə yaşanan qısamüddətli müharibə dünyaya bir mesaj olub:** "Həmin döyüşlər və bir sıra ərazilərimizi geri almağımız Azərbaycanın ciddi uğurudur. Biz bir daha göstərdik ki, bir qarış da olsun torpağımızı güzəştə getməyəcəyik. Bu döyüşlərdən sonra uzun illərdir beynəlxalq aləmdə susmuş dillər nəhayət ki, tərpəndi, sanki onların donunu açdıq. Ən ciddi bir məsələ də o oldu ki, Azərbaycanda xüsusilə gənclər arasında böyük ruh yüksəkliyi yarandı, vətənpərvərlik hissləri artdı. Biz petisiya ilə bağlı 19 təhsil müəssisəsində görüşlər keçirərkən bunun bir daha şahidi olduq ki, gənclərimiz ayaqdadır və biz torpaqlarımızı azad etməyə hazırıq. Gənclər canından keçməyə hazırdırlar".

**E.Süleymanov bildirdi ki, ATƏT-in Minsk Qrupunun indiyəqədərki fəaliyyəti yalnız Ermənistanın maraqlarına xidmət edib:** "Onlar məsələyə "Qarabağ münaqişəsi" deyə yanaşırlar. "Münaqişə" sözünün özü bizim maraqlarımıza ziddir, çünki burada söhbət Azərbaycan torpaqlarının işğalından gedir. AŞ PA qətnaməsində isə işğal faktı ilk cümlədə qeyd edilir. Bu, bizim ciddi nailiyyətimizdir. Petisiyanın da məhz bu sənədə istinad edilməsi çox mühümdür və uğurludur".

Tədbirdə çıxış edən AVCİYA-nın vitse-prezidenti Elçin Salmanov isə qeyd etdi ki, layihə çərçivəsində 16 ali təhsil müəssisəsində və 2 orta məktəbdə professor-müəllim heyəti, 10 mindən çox tələbə ilə görüşlər keçirilib. Layihəyə Azərbaycan ictimaiyyəti böyük dəstək verib, nəticədə 100 min səsə qarşı 330 minə yaxın səs toplanılıb.

❑ E.MƏMMƏDLİ



# Müharibə tərəfdarlarının sayı günbəgün artır

**Qabil Hüseynli:** "Sülh danışıqları müəyyən məqama qədər səmərəli ola bilər"

**Ötən ayın əvvəllərindən başlayaraq cəbhə xəttində yaranan və bu günə qədər davam edən gərginliyin fonunda ortaya çıxan bir çox məsələlər var. Onlardan biri də işğal altında olan torpaqlarımızın diplomatik yolla qaytarılıb-qaytarılmaması ilə bağlıdır.**

Aprelin əvvəllərindəki 4 günlük savaşda Azərbaycan ordusunun ermənilərə vurduğu sarsıdıcı zərbələrdən sonra müharibə tərəfdarı olanlar çoxluq təşkil edirlər. Eyni zamanda yalnız müharibə yolu ilə Qarabağ probleminin həll olacağına inananların sayı da getdikcə artmaqdadır. Bununla belə, sülh yoluna üstünlük verənlər də az deyil. Amma son 22 ildəki danışıqları nəzərə alsaq, ən optimal variantın müharibə olduğunu düşünmək çətin deyil.

**Politoloq Qabil Hüseynli** son bir ayda gedən proseslərin Azərbaycan tərəfinin üstünlüyünü açıq şəkildə ortaya qoyduğunu bildirdi: "Ümumiyyətlə, son bir ayda baş verənlər prosesləri bütünlüklə Azərbaycan tərəfinin xeyrinə dəyişdi. Ermənilər əvvəlki kimi şərtlər irəli sürmək, ölkəmiz əleyhinə iş görmək imkanlarına malik deyillər. Onların yeganə üstünlükləri Rusiyanın arxalarında dayanmasıdır. Ermənilər sülh danışıqlarına artıq yenidən razı olublar. Azərbaycan danışıqlarda artıq yeni şərtlərlə çıxış etmək fikrindədir. İnanmıram ki, Azərbaycan yenilənmiş Madrid prinsipləri çərçivəsində danışıqlara razı olsun. Madrid prinsipləri bilavasitə Dağlıq Qarabağın müstəqilliyinə yol açan bir həll variantıdır. Belə görünür ki, danışıqlar tamamən yeni bir platforma üzərində qurula bilər. Cəbhədəki üstünlük Azərbaycana real imkanlar aça bilər. Bunun qarşı tərəfdən qəbul edilib-edilməyəcəyini indidən demək çətindir. Hər halda, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə, eləcə də ikinci erməni dövlətinin yaranmasına razı olmayacaq. Bu isə o deməkdir ki, sülh danışıqları müəyyən məqama qədər səmərəli ola bilər. Amma bütövlükdə böyük sülh sazişinin hər iki ölkə arasında əldə olunması asan məsələ deyil".

**Politoloq Azərbaycan üçün vacib olan yolu göstərdi:** "Bu gün hər kəsdə o fikir ola bilər ki, Azərbaycan ordusu əməliyyatları davam etdirsə, nəzarəti ələ alıb, torpaqları azad edə bilər. Amma bunu birmənalı qaydada söyləmək çox çətindir. Çünki ortada Rusiya faktoru var. Rusiya hərbi əməliyyatların yenilənməsinə mane olur. Hər halda, Rusiya Ermənistanı heç vaxt köməksiz qoymayacaq. Buna görə də Azərbaycan bir müddət mübarizəsini zamana yaymalıdır. Ermənilər Azərbaycanı Rusiya ilə üz-üzə qoymaq istəyirlər. Hazırda dünyada Azərbaycanın xeyrinə olan geosiyasi dəyişikliklər gedir. NATO artıq Azərbaycanın sərhədlərinə doğru irəliləməkdədir. Rusiyanın bölgədəki proseslərə qarışmaq cəhdləri getdikcə zəifləyir. Sözsüz ki, ölkəmiz onun ərazi bütövlüyünü pozacaq heç bir danışıqlara getməyəcək. Azərbaycan öz şərtlərini dəyişməyə məcburdur. Çünki son proseslərdə qalib çıxıb. Güclü ordu qura bilmişiksə, torpaqlarımızı azad etmək iqtidarındayıqsa, nəyə görə torpaqlarımızı cırtdan xalqa qurban verməliyik? Azərbaycan diplomatik gedişlər etməli, Rusiya ilə üz-üzə gəlməməlidir. İndiyə qədər olan şimal qonşumuzla münasibətlər saxlanılmalı, 4 günlük savaşda qazanılan uğurlar qorunmalı və ordunun gücləndirilməsi istiqamətində işlər sürətləndirilməlidir. Ölkəmizin strateji mövqeyi onu əksər ölkələr üçün cəlbedici edir. Bunun üçün Azərbaycan ərazi bütövlüyünü təmin etmək üçün Qərb dövlətlərinin ciddi dəstəyinə nail ola bilər. Düşünürəm ki, o gün də uzaqda deyil".

❑ Cavanşir ABBASLI

# Müdafiə Nazirliyinin könüllülərə müraciəti müharibə anonsudur?

**Üzeyir Cəfərov:** "Qadınlarımızın da orduda olmaları vacibdir"

**Müdafiə Nazirliyi son bir ayda cəbhə xəttində gedən proseslərdən sonra çoxsaylı müraciətləri nəzərə alaraq, Silahlı Qüvvələrimizdə müddətdən artıq hərbi xidmətlə bağlı qaydaları açıqlayıb. Belə ki, müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan hərbi vəzifəlilər hərbi xidmət keçmək istədikləri hərbi hissələrin komandanlığına və ya Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə (SQ TTM) müraciət edə bilərlər .**


Üzeyir Cəfərov

Belə şəxslər üçün ildə 4 dəfə- yanvar, aprel, iyul və oktyabr aylarında kurslar təşkil edilir. Kursa təqdim olunan namizəd Müdafiə Nazirliyinin Hərbi Həkim komissiyasında tibbi müayinədən keçərək onun xidmətə yararlılıq dərəcəsi müəyyən edilir. Nazirlik tərəfindən məhkumluğu olan, əvvəllər əsgər, matros və çavuş vəzifələrində bağlaşma əsasında könüllü hərbi xidmətdə olarkən hərbi qulluqçuların şərəfini ləkələyən, nalayiq hərəkətlər törətdiyinə görə həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçuların təkrarən müddətdən artıq həqiqi hərbi xidmətə qəbul üçün müraciət etməmələri xahiş olunur.

Qaydaların açıqlanması ictimaiyyətdə geniş müzakirələrə səbəb olub. Hər kəs müharibənin başlaya biləcəyindən danışır. Könüllü şəkildə müraciət edən qadınlara da bu qaydaların şamil olunması ciddi marağa səbəb olub. Yeni qaydalarla 19-40 yaş arası zərif cinsin nümayəndələri də orduya götürüləcəklər.

**Hərbi ekspert Üzeyir Cəfərov hesab edir ki, Müdafiə Nazirliyinin belə qərar qəbul etməsi doğrudur:** "Çoxlu müraciətlər var idi. Bu müraciətləri müsbət qiymətləndirən Müdafiə Nazirliyinin düzgün qərar qəbul etdiyini düşünürəm. Birinci Qarabağ savaşında kifayət qədər təcrübə keçmiş şəxslər var. Onların bilik və bacarıqlarından istifadəyə böyük ehtiyac var. Nəyə görə də istifadə etməyək? Bu şəxslər döyüş görmüş, həyat təcrübəsi keçmişlər, canlarını vətən yolunda qoymuşlardır. Hər birinin yolunu çox gözəl bilirlər. Təbii ki, işğal altında olan yerləri nəzərdə tuturam. Burada təsadüfi şəxslərdən söhbət getmir. Könüllülər içərisində birinci Qarabağ savaşında iştirak edənləri nəzərdə tuturam".

**Hərbi ekspert qadınların da orduya cəlb olunmalarına münasibət bildirdi:** "Burada zərrə qədər narahatçılıq yoxdur. Çünki birinci Qarabağ savaşında döyüşmüş, orduya xeyir verə biləcək kifayət qədər qadınlarımız var. Onların da müraciətləri müsbət cavablandırılıb. Belə götürdükdə, cəbhə xəttində təkcə ön hissədə deyil, arxa cəbhədə də çoxsaylı hərbi birləşmələrimiz var. Ordu qüvvələrimizin döyüş qabiliyyətinin nə qədər yüksək olduğu hamımıza məlumdur. Heç bir sıxıntımız yoxdur. Dünya ordularında qadınlar hər zaman xidmətdə olublar. Müsəlman ölkələri arasında ən çox qadınlar qonşu İran dövlətinin ordusundadır. Azərbaycanda da xidmətdə olan qadınlar var. Bu normal haldır. Düşünürəm ki, qadınlarımızın orduda olmaları vacibdir. Çünki yüksək abı-hava yaradır. Onlar əllərində silah döyüşəsi deyillər ki. Onlar rabitə, tibb və digər sahələrdə çalışan xanımlar olacaqlar. Bu da çox yaxşı haldır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 99 (6420) 7 may 2016



## Çin iqtisadiyyatı çöksə, dünya bazarında nə baş verər…

### Vüqar Bayramov: "ABŞ və Rusiya Çinin güclənməsində maraqlı deyil"

**Çin iqtisadiyyatında müşahidə edilən kəskin tənəzzül qlobal bazar üçün ən böyük riskdir. Bunun Beynəlxalq Kredit Reytinq Agentliyi "Fitch Ratings"in hesabatlarına əsaslanaraq bildirib.**

Agentliyin rəyinə görə, Çinin sərt geriləməsi qlobal bazarın tarazlığını poza bilər. Bəs, görəsən dünyanın ən böyük iqtisadiyyata malik ölkələrindən biri olan Çin iqtisadiyyatı çökərsə, bu dünya bazarına və ayrı-ayrı ölkələrin iqtisadiyyatına necə təsir edər?

**İqtisadçı ekspert Vüqar Bayramov** "Yeni Müsavat"ın suallarını cavablandırarkən bildirdi ki, Çin iqtisadiyyatının çökməsi heç bir halda arzuolunan deyil: "Bu, dünya iqtisadiyyatına ciddi neqativ təsir göstərə bilər. Real ümumdaxili məhsulun həcminə görə Çinin dünyada birinci olduğunu nəzərə alsaq, söhbət kifayət qədər böyük iqtisadiyyata malik olan ölkədən gedir. İnkişaf etmiş ölkələr belə Çin iqtisadiyyatının çökməsində maraqlı deyil. Bu ölkənin ümumdaxili məhsulunun həcmi 17 trilyon dollar həcmindədir və bu yetərincə böyük bir rəqəmdir. Bundan əlavə, Çin illik 7 faizlik iqtisadi artıma malikdir. O, çökərsə, bu, dünya iqtisadiyyatı üçün böyük bir böhran olar. Çinin bazarda payı çoxdur. Bu ölkə ən çox ixrac edən ölkələrdən biridir. Çin iqtisadiyyatı çökərsə, bu həm də bazarda qıtlıq yaradar. Əgər biz Çinin ixrac coğrafiyasına diqqət yetirsək, bu ölkə yalnız inkişaf etməkdə olan ölkələrə deyil, inkişaf etmiş ölkələrə də öz məhsullarını göndərir. Eyni zamanda illik ixracatın həcmi təxminən 12 faizdir. Bu yetərincə böyük bir rəqəmdir".

**Vüqar Bayramovun sözlərinə görə, Çinin illik ixracatı 3,2 trilyon dollar təşkil edir ki, bu da Avropa Birliyi və ABŞ-ın ixracatından daha böyük rəqəmdir:** "O baxımdan bu iqtisadi gücün çökməsi özünü həm də ixracatda göstərəcək. Dünyadan bu qədər məhsul azalarsa, böyük böhran yaranar. Çin həmçinin dünyanın ən böyük idxalçıları arasında 3-cü yerdədir. İllik idxalın həcmi təxminən 2 trilyon dollara yaxındır. Bu iqtisadiyyatın çökməsi neftə tələbatı azaldacaq və neftin qiymətini ucuzlaşdıracaq. Çin neft idxalına görə dünyada ikinci yerdədir və gündəlik neft idxalı 5,6 milyon bareldir".

**Sözügedən dövlətin dünyada ən böyük qızıl ehtiyatlarına malik olduğunu deyən ekspert qeyd etdi ki, bu ölkənin çökməsi eyni zamanda min tondan artıq qızılın bazara çıxarılması deməkdir:** "Dünya bazarında qızıla tələb azalacaq, qiymət ucuzlaşacaq. Bu baxımdan nə ixracatçı, nə də idxalçı ölkələr Çinin zəifləməsində maraqlı deyil. Amerika dünyada Çin iqtisadiyyatının çökməsində yox, rolunun bir qədər məhdudlaşmasında maraqlıdır. ABŞ məişət mallarının çoxunu bu ölkədən idxal edir".

**Vüqar Bayramov ABŞ və Rusiya kimi böyük dövlətlərin Çinin güclənməsində maraqlı olmadığını, həmçinin bu ölkənin çökməsini də istəmədiklərini diqqətə çatdırdı:** "ABŞ-ın ən böyük 20 ticarət tərəfdaşları arasında Çin 3-cüdür. İl ərzində ABŞ bu ölkəyə 125 milyard dollarlıq mal göndərir, Çindən yarım milyarda yaxın mal idxal edir. Bu da yetərincə böyük rəqəmdir.

Rusiya da Çinin kəskin güclənməsində maraqlı deyil. Belə olduğu halda Rusiyanın Asiya regionunda təsir imkanları zəifləmiş olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# "Azpetrol" rəhbərliyi 250 milyon dollarlıq korrupsiya iddiasına niyə susur?

## Şirkət ictimaiyyətə heç bir izahat vermədi; susmaqla iddiaları təsdiqləmiş oldu

**Dəfələrlə adı qalmaqallarda hallanan "Azpetrol" şirkəti haqda yeni qalmaqallı məlumatlar yayılıb. Ötən həftə sonu sözügedən şirkətlə bağlı növbəti korrupsiya qalmaqalı haqda mətbuatda yazılar dərc olundu. Uzun illər ölkədaxilində yüksək ranqlı məmurlar arasında çəkişmələrə səbəb olan və ələ keçirilməsi uğrunda böyük mübarizələrin getdiyi "Azpetrol"un adı Moldovada yüz milyonlarla dəyəri olan layihənin icrası zamanı yol verilən korrupsiya hallarında göstərilir.**

Xatırladaq ki, "Azpetrol" şirkəti ilə bağlı qalmaqallı xəbərlər və oliqarxların savaşı şirkətin keçmiş rəhbərinin həbsindən sonra başlamışdı. Sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin və qardaşı, "Azpetrol" holdinqin keçmiş sahibi Rafiq Əliyevin həbsindən sonra şirkətin səhmlərinin ələ keçirilməsi üçün gedən mübarizədə hakimiyyətdə təmsil olunan ən yüksək vəzifəli şəxslərin adı belə hallanırdı.

R.Əliyevin həbsindən bir müddət sonra bəzi yanacaqdoldurma məntəqələrinin (YDM) bağlanması şirkətin tamamilə ləğv ediləcəyi haqda məlumatların ortaya çıxmasına səbəb oldu. R.Əliyev "Azpetrol" Şirkətlər Qrupunun rəhbərliyindən kənarlaşdırıldıqdan sonra qısa zaman ərzində Bakıda və ətraf rayonlarda şirkətə məxsus bir neçə YDM-lər istifadəyə verildi və şirkət dirçəliş dövrünü yaşamağa başladı.



R.Əliyevin həbsdə olduğu müddətdə onun biznesinə daxil olan bir çox şirkətləri, mülkləri əlindən alındı. Ancaq "Bank of Baku"nun nizamnamə kapitalının 11,22%-nə sahib idi və indi də həmin paya sahib olaraq qalır. Həmçinin bankın digər səhmdarları sırasında "Azpetrol" şirkətinin də adı var.

Əliyev qardaşları 8 il məhbəs həyatı yaşadıqdan sonra azadlığa çıxarkən Rafiq Əliyevin yenidən "Azpetrol" şirkətinin rəhbərliyinə gətiriləcəyi deyilirdi. Lakin Əliyev qardaşları azadlığa çıxdıqdan sonra susmağı seçdilər. Onlar tezliklə Azərbaycanı tərk etdilər. Hazırda Londonda yaşadıqlarına, Türkiyə və Almaniyada böyük bizneslərinin olduğuna dair xəbərlər var.

Sonuncu korrupsiya qalmaqalı haqda virtualaz.org saytı məlumat yayıb. Sayta Moldova, Ukrayna və Rumıniyadan olan araşdırmaçı jurnalistlər qrupunun Moldovanın Curculeşt limanı layihəsinin həyata keçirilməsi ilə bağlı apardıqları araşdırmaya istinadən xəbər verir ki, araşdırmanın nəticələri təkcə moldovalı siyasətçilər üçün deyil, eyni zamanda İsveçrə və Hollandiya şirkətləri, habelə Avropa Yenidənqurma və İnkişaf Bankının əməkdaşları üçün qalmaqallı olub. Məlumata görə, antikorrupsiya araşdırmasında mərkəzi fiqurlardan biri kimi "Azpetrol" neft şirkətinin və onun keçmiş sahibi, keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyevin qardaşı Rafiq Əliyevin də adı keçir.

Araşdırma yazısında qeyd edilir ki, Curculeşt limanı biznes-layihəsi hələ 1993-cü ildə işlənib hazırlanıb. O vaxtkı baş nazir Andrey Sanqeli hökumət üzvlərinə Prut və Dunay çaylarının mənsəbində liman inşası layihəsini təklif edib. Layihənin reallaşması üçün hökumət 25.5 milyon dollar kredit götürüb. Lakin 10 il keçəndən sonra məlum olub ki, nəzərdə tutulan işlərin cəmi 30 faizi görülüb.

2004-cü ildə kommunistlərdən ibarət Moldova hökuməti yarımçıq layihəni bərpa edib, bu məqsədlə Azərbaycanın "Azpetrol", "Azertrans" və "Azpetrol Rafinery" şirkətləri ilə müqavilə bağlanıb. Bu şirkətlərin hər üçü əslində Bakıda qeydiyyatdan keçmiş "ana " şirkətin törəmələri idi. Həmin şirkət liman layihəsinin başa çatdırılması üçün 250 milyon dollar investisiya təklif edib. Bundan başqa, azərbaycanlı investorlar Avropa Yenidənqurma və İnkişaf Bankı qarşısında kredit öhdəliyini də bağlamalı idi. İnvestorlar habelə Moldovada, Curculeşt limanı yaxınlığında neft terminalının tikintisini də həyata keçirməyi vəd ediblər.

Jurnalistlər isə müəyyən ediblər ki, Curculeşt limanı ilə bağlılığı olan əsas biznes-fiqur Tomas Mozer və Hollandiya şirkəti "EASEUR Holding BV"-dir. Həmin Tomas Mozer Almaniyanın İnkişaf Bankında işləyib, 1996-cı ildən isə Avropa Yenidənqurma və İnkişaf Bankında işə keçib. Üç il sonra o, bank prezidentinin dəftərxanasında işləməyə başlayıb. 2001-ci ildə isə Mozer bankın Bakı nümayəndəliyinin rəhbəri təyin olunub. 2003-cü ildə isə Fərhad və Rafiq Əliyev qardaşları Mozeri "Azpetrol"da departament rəhbəri vəzifəsinə gətiriblər. Həmin vaxtlar Əliyev qardaşları "Azpetrol" şirkətinin sahibləri idi.

Araşdırmalara görə, Rafiq Əliyevin həbsindən dərhal sonra "Azpetrol"un rəhbərliyinə Tomas Mozer gətirilib. Eyni zamanda o, "Azertrans" və "Azpetrol Rafinery" şirkətlərinə də rəhbərliyi həyata keçirməyə başlayıb. Bir müddət sonra o, şirkətlərin adını dəyişib və müvafiq olaraq "Bemol Retail", "Bemol Rafinery " və "Danube Logistics" adlandırıb.

Moldova hökuməti ilə bağlanmış investisiya layihəsinə əsasən Curculeşt limanından daşınan neft və neft məhsulları gömrük rüsumlarından və ƏDV-dən azad edilirdi. "Azpetrol" ("Bemol") şirkətinə icazə verilirdi ki, benzin və dizel satışına görə ixrac ƏDV-ni alsın. Şirkət habelə aksiz vergilərindən azad idi. Bütün bu güzəştlərə baxmayaraq şirkət Moldovada benzini və dizeli bazar qiymətinə satırdı.

2011-ci ildə Hollandiya şirkəti "EASEUR Holding BV" iri məbləğdə borclardan yaxa qurtarmaq üçün Rafiq Əliyevin şirkəti "New Ventures Capital"ı inandırır ki, "Credit Suisse" bankı qarşısında kredit öhdəliyini bağlasın. Razılaşmaya əsasən borcun bağlanmasının əvəzində "Credit Suisse" və Tomas Mozer tərəfindən yaradılan "Danube Logistics Holding BV" adlı şirkət hollandiyalılardan "Danube Logistics SRL" şirkətinin səhmlərinin 80 faizini alıb. Habelə "EASEUR Holding BV" və "Azpetrol" ("Bemol Retail SRL") şirkətlərinin borclarına sahib çıxıb. Bu aktivlərin əvəzində "Danube Logistics Holding BV" şirkəti "EASEUR Holding BV" şirkətinin "Credit Suisse" bankından götürdüyü 36.1 milyon dollarlıq borcunun ödənilməsini üzərinə götürüb. Lakin 2015-ci ildə "Danube Logistics" və "EASEUR Holding" arasında fikir ayrılığı yaranıb, iş məhkəmə çəkişməsinə qədər uzanıb. Məhkəmə hələ də davam edir.

Adı növbəti dəfə qalmaqalda hallanan "Azpetrol" şirkətindən də məsələyə münasibət öyrənməyə çalışdıq. Lakin şirkətin mətbuat xidməti gün ərzində telefon zənglərimizə cavab vermədi.

Maraqlıdır, adı 250 milyonluq qalmaqalda hallanan şirkətin rəhbərliyi niyə ictimaiyyətə heç bir izahat vermədi? Təkcə bu faktın özü deməyə əsas verir ki, "Azpetrol" qeyri-şəffaf fəaliyyətlə məşğuldur və yazılanlar düzdür.

❑ **İ.MURADOV**

# "Murdar ət satışını Şeyxin yaxın adamları himayə edir" - sensasion iddia

"Leş mafiyası"nın qara əməlləri haqda yeni şok faktlar; mənşəyi bilinməyən ət məhsullarının satışını həyata keçirən şəbəkə, deyilənə görə, Allahşükür Paşazadənin adamları ilə anlaşıb; hörmətli Şeyximiz bu faktı bilsə...

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a son müsahibəsində "leş mafiyası"nı yalnız Hacı Allahşükür Paşazadənin durdura biləcəyini söyləyib. Eyyub Hüseynov kifayət qədər məlumatlı adamdır və onun müsahibəsində verdiyi ipucları bizi bu istiqamətdə araşdırma aparmağa sövq etdi.**



Yada salaq ki, kolbasa və sosis məmulatlarına sertifikat verən qurumlar arasında Hacı Allahşükür Paşazadənin rəhbərli olduğu qurum da var. "Halallıq sertifikatı" adlanan sənəd laboratoriya analizləri olmadan verilir. İllər öncə halallıq sertifakatı ilə bağlı mətbuatda geniş müzakirələr aparıldı. Mütəxəssislər, dindarlar Qafqaz Müsəlmanları İdarəsinin hansı qida məhsuluna halallıq sertifakatı verməsini doğru saymadıqlarını dedilər. Lakin tənqidlər QMİ-ni sertifikat biznesindən çəkindirmədi. Əslində Hacı Allahşükür Paşazadənin rəhbərlik etdiyi qurumun "halallıq sertifikatı" adlanan kağız parçasının heç bir hüquqi və tibbi əsası yoxdur. Heç mənəvi əsası da yoxdu. Çünki ət lobarator şəraitdə yoxlanıldıqdan sonra sertifikatlaşdırıla bilər.

"Yeni Müsavat"a verilən məlumata görə, "leş mafiyası"na dəstək verənlərin sırasında Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Şeyx Hacı Allahşükür Paşazadənin yaxın çevrəsindəki şəxslərin adları hallanır. Bu məlumatın nə dərəcədə doğru olmasını yoxlamaq imkanlarımız xaricindədir. İddia etmirik ki, bu məsələdə hörmətli Şeyximiz bilavasitə günahkardır. Ola bilər ki, onun himayəsindəki bəzi adamlar Şeyxin nüfuzundan və imkanlarından istifadə edərək leş ətlərin biznesi ilə məşğul olan şəbəkəyə dəstək verir, onları öz şəmsiyyələri altına alır.

Azərbaycanda vəzifəli, nüfuzlu şəxslərin bəzən özlərinin belə xəbəri olmadan ətraflarındakı şəxslər bu cür çirkli işlərə girişib para qazanırlar.

Redaksiyamıza daxil olan məlumata görə, "leş mafiyası"nın ciddi maliyyə dövriyyəsi var. Onlar öz toxunulmazlıqlarını təmin etmək üçün kimlərinsə qoruması altına girir. Yoxsa o yağlı tikəni onlara kimdir yedizdirən... Kolbasa-sosis istehsalı və satışı iqtisadiyyatın digər sahələri kimi kimlərinsə inhisarındadır ki, kilosu 1-2 manata alınan murdar ət sonradan bər-bəzəkli bükülülərdə piştaxtalarda 5-6 manata istehlakçıya təklif olunur. Belə ətin hər kilosundan əldə olunan gəlir ayda milyonlarla manat dövriyyəni formalaşdırır. Bu sahənin nəzarətsiz olması da bu baxımdan inandırıcı deyil. Digər tərəfdən, mətbuatda silsilə yazıların davam etməsinə baxmayaraq, "leş mafiyası" heç cür zərəsizləşdirilmir. Belə görünür ki, murdar ət alveri edənlərə ciddi şəkildə "krışa"lıq edən nüfuzlu, vəzifəli şəxslər var.

Ümumiyyətlə isə son 10 ildə mətbuatda bu mafiyanın varlığı haqda xeyli yazılar dərc olunub. Belə bir halda murdar ət alverçilərinin əl-qol açması, rayonlarda günün günorta çağı at-eşşək oğurluğu faktlarının qeydə alınması, gözdən-könüldən uzaq zibilliklərdə təkdırnaqlı heyvan başlarının aşkarlanması, hətta ölmüş heyvan cəsədlərinin zibilliklərdən yığılması faktları bitib-tükənmək bilmir. Daxili İşlər Nazirliyi son 1 ayda bir-birinin ardınca bu istiqamətdə bir neçə əməliyyat keçirib, tonlarla murdar ət dövriyyədən çıxarılıb. Təəssüf ki, çirkin və qorxulu prosesin kökünü birdəfəlik qazıyıb axırına çıxmaq mümkün olmur.

Xatırladaq ki, 2014-cü il iyulun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi Qafqaz marşrutu üzərindən Avropaya daşınan ən iri narkotik partiyası - 2 ton 790 kiloqramlıq heroin qaçaqmalçılığını önləyən əməliyyat keçirdi. Gürcüstan DİN əməliyyatla bağlı ilkin məlumatı yaymaqla kifayətləndi. Həmin narkotik qaçaqmalçılığı ilə bu gün bilinən odur ki, 170 milyon dollar qiyməti olan mal Azərbaycan üzərindən daşınıb. 2 ton 790 kiloqram saflaşdırılmış əfqan mənşəli heroin Azərbaycana İran Astarasından daxil olub. Sərhədin bu tayında isə maye halında olan heroin "Azərcənub" MMC-nin yük məntəqəsində qablaşdırılaraq ölkəmizin ərazisində başqa adla daşınıb. Məlumat üçün deyək ki, Astaradan ölkəmizə daxil olan və İrana gedən bütün maşınlar istisnasız olaraq "Azərcənub" MMC-nin ərazisindən keçmək məcburiyyətində qalır. Azərbaycan gömrük-keçid məntəqəsinə də məhz bu ərazidən keçməklə daxil olmaq mümkündür. Beləliklə, MMC bir növ Astaradan İrana və geriyə olan yolu faktiki olaraq inhisara alıb. Zaman-zaman bu MMC-nin Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri, Şeyxülislam Hacı Allahşükür Paşazadənin qardaşı, deputat Cavanşir Paşazadəyə aid olması haqda məlumatlar yayılıb. Bu məsələ qəzetlərdə dərc olunandan sonra C.Paşazadə MMC-nin vaxtilə ona məxsus olduğunu təsdiqləmişdi. Demişdi ki, narkotik daşımaçılığı yaxşı iş deyil.

**Maraqlıdır, Eyyub Hüseynovun murdar ət satışının qarşısının alınması üçün Hacı Allahşükür Paşazadəyə müraciəti nəzərə alınacaqmı?**

❑ E.HÜSEYNOV

# 20 illik baş nazir - Artur Rəsi-zadə

## Sərdar Cəlaloğlu: "Azərbaycanda baş nazirin səlahiyyəti olmadığından eyni şəxs illərdir bu vəzifədə saxlanır"

**Yaxın qonşuluğumuzdakı daha bir ölkədə - qardaş Türkiyədə yeni baş nazir dəyişikliyi reallaşmaqdadır. Əhməd Davudoğlu öz vəzifəsindən getməyə hazırlaşır. Davudoğlunun gedişi 1996-cı ildən indiyə qədər keçən 20 il ərzində Türkiyədə 7-ci baş nazir dəyişikliyi olacaq.**

1996-cı ili təsadüfən qeyd etmədik. Azərbaycanda da 1996-cı ildə yeni baş nazir təyin edilib. Ancaq məsələ burasındadır ki, Türkiyədə 20 ildə 7 baş nazir dəyişibsə, Azərbaycanda təyin edilən baş nazir hələ də həmin postdadır.

Artur Rasi-zadə 1996-cı ilin noyabrında baş nazir vəzifəsinə təyin edilib. Bu vəzifəyə təyin ediləndə 61 yaşı olan Rasizadənin hazırda 81 yaşı var. Hörmətli Artur müəllim regionun həm vəzifəcə, həm də yaşca ən uzunömürlü baş naziri statusunu saxlayır. Türkiyənin görevindən getmək üzrə olan baş naziri Əhməd Davudoğlu 57, Rusiyanın baş naziri Dmitri Medvedyevsə 50 yaşdadır. Ermənistanın baş naziri Ovik Abramyan Artur Rasizadədən 23 yaş cavandır - onun 58 yaşı var. Gürcüstana 48 yaşlı Georgi Kvirikaşvili baş nazirlik edir. Keçmiş SSRİ məkanının ən böyük ölkələrindən olan Ukraynanın yeni baş naziri Vladimir Qroysmanın isə 38 yaşı var.



Artur Rasi-zadə

1996-cı ildən indiyə qədər Türkiyədə 7, Gürcüstanda 10-a yaxın, Ermənistanda 6, Rusiyada 4, Ukraynada 6 şəxs baş nazir vəzifəsində işləyib. Hazırda bu ölkələrdə baş nazir vəzifəsində çalışan şəxslərin bu vəzifədə işlədikləri müddəti toplayanda Artur Rasizadənin baş nazir işlədiyi müddətin təxminən yarısı qədər edir.

Maraqlıdır, konstitusiyaya görə ölkənin ikinci şəxsi olan hörmətli Artur Rasizadəni dəyişməz edən nədir? Hakimiyyət nədən ona bu qədər önəm verir, onu dəyişmir?

**ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, Azərbaycanda baş nazirin dövlətin idarə edilməsində əslində səlahiyyəti, əhəmiyyəti yoxdur, ona görə də eyni şəxs illərdir bu vəzifədə saxlanır:** "İki cür hökumət olur - yüksək keyfiyyətli və aşağı keyfiyyətli hökumət. Yüksək keyfiyyətli hökumətlərdə kadrların tez-tez dəyişilməsi zəruri olur, əsas əlamətlərdən sayılır, kadrların da dəyişilməsi nə cəmiyyətə, nə dövlətə hər hansı problem yaratmır. Aşağı keyfiyyətli hakimiyyətlərdə isə kadrlar şəxsi sədaqət prinsipi əsasında seçilirlər və yüksək çinli kadrların dəyişilməsinə sistem çox həssas olur. Ona görə də mümkün qədər vaxtaşırı kadr dəyişikliklərindən qaçırlar. Azərbaycanda ikincidir. Artur Rasizadənin dəyişdirilməməsinin səbəblərindən biri budur. Digər tərəfdən, Azərbaycanda baş nazirin dövlətin idarə edilməsində əslində səlahiyyəti, əhəmiyyəti yoxdur. Ona görə də baş nazir postuna kimin qoyulub-qoyulmamasının Azərbaycanda situasiyanın dəyişilməsinə ciddi nəsə verəcəyi ehtimalı yoxdur. Baş nazirin dəyişilməsi ilə hər şey olmur. Böyük islahatlara ehtiyac var".

❑ Etibar SEYİDAĞA

# "Dünyanın düz vaxtı"nın iyrənclikləri



Samir SARI

**Fikir vermişəm, camaat tarixi seriallara maraqla baxır. Bunun mühüm bir "niyə"si var, bu barədə sonra danışarıq. Ancaq hələlik onu deyək ki, o biri seriallar boş şeydir.**

Bir özünüz fikirləşin, niyə hər serialda varlı oğlanla kasıb qız, yaxud kasıb oğlanla varlı qız sevdası olmalı, bitib-tükənməyən intriqa başlamalıdır? Gerçək həyatda heç vaxt varlı qız kasıb oğlana, qarabağlılar demişkən, yendirməz. Heç varlı oğlan da hələm-hələm gedib imkansız, tərəfsiz ailənin qızını almaz. İnsanlar çox praqmatikdir, hər kəs öz babıyla qohum olur. Yəni o cür seriallar nahaq yerdə gənclərdə yanlış ümid yaradır. Bilmək lazımdır ki, gözəllikdə Karmen Elektraya oxşayan, var-dövlətdə Paris Hiltona tay olan qız gəlib çilingər Möhübbətin injektor ustası olan oğlu Ülvini ülvi məhəbbətlə sevməyəcək və qızın gömrükdə işləyən atası gənc ailəyə villa və "Porşe" bağışlamayacaq.

Ona görə də müasir həyatdan bəhs edən seriallar maraqsızdır. Hamısı bir-birinin təkrarıdır. Epizodlar o qədər təkrarlanıb ki, hamı artıq sonrakı bölümlərdə hadisələrin necə inkişaf edəcəyini yüzdə doxsan dəqiqliklə proqnozlaşdırır.

Tarixi seriallar isə başqa aləmdir. Müəlliflər nə qədər fantaziya işlətsələr də filmin ssenarisini yazanda mütləq tarixi məxəzləri də araşdırır, həqiqətən olmuş hadisələri dəqiqliyə yaxın biçimdə ekranlaşdırırlar.

"Möhtəşəm yüzil"in böyük populyarlığı bu üzdən idi. Bu serial çoxdan unudulub getmiş hadisələri yenidən gündəmə gətirmişdi. İnsanlarda tarixə kütləvi maraq əmələ gəlmişdi, hamı daraşıb tarix kitabları oxuyurdu. Hətta baş vəzir Parqalı İbrahimin Sultan Süleymanın yanında ötkəm olduğu, bərk getdiyi vaxtlarda bilicilər deyirdilər, xeyri yoxdur, axırda Süleyman Parqalını boğduracaq. Doğrusu, bu informasiyanı alandan sonra özüm də ərinmədən Osmanlı tarixinə aid kitaba baxmışdım. Ondan sonra hər bölümdə gözləyirdim ki, İbrahimi boğacaqlar. Amma sultan məsələni uzadırdı, nəhayət, bir gün bacısını dul qoydu, qanqaraçılıq oldu.

Bir yerə qədər hamı Sultan Süleymana rəğbətlə yanaşırdı, amma şahzadə Mustafanı boğdurandan sonra kişinin reputasiyasına xeyli dərəcədə xələl gəldi. Həm Türkiyədə, həm Azərbaycanda milyonlarla adam düşünürdü ki, bunun nəyinə təşər-təşər Qanuni deyiblər, adam hələ öz övladlarına qarşı bu qədər qanunsuzluq edib, o hesabdan gör, camaata nə toy tutub. Daha sonra Süleyman o biri oğlu Bəyazidi də bay edəndən sonra serial müəllifləri gördülər ki, sultanın tarixi reputasiyası puç olub gedir, bir çox məsələlərin üstündən keçdilər, məsələn, qətlə yetirilmiş şahzadələrin körpə oğullarının, arvadlarının öldürülməsindən bəhs etmədilər.

İndiki "Möhtəşəm yüzil - Kösəm" serialı da hələlik yaxşı gedir, maraqlıdır. Yenə camaat daraşıb tarix kitablarına, oxuyub bilirlər ki, bu işlərin axırı necə olacaq.

Marağınızı öldürmək kimi çıxmasın, o hadisələrin axırı gerçəkdən də pis olacaq. Hazırda hünkar olan başıxarab Mustafanı devirəcəklər, yerinə Gənc Osman olacaq. O da qardaşı Mehmedi boğduracaq. Sonra yeniçərilər Osmanı devirəcəklər. Bilmirəm serialda göstərəcəklər, ya yox, amma yeniçərilər Osmanı lüt soyundurub küçədə dolaşdıracaqlar, axırda da başına elə bir oyun açacaqlar ki, o işin serialda göstərilməyəcəyi dəqiqdir.

Xülasə, bəzən keçmişi idealizə edir, ötənlərdən danışarkən "dünyanın düz vaxtında", "keçmiş gözəl günlərdə" kimi cümlələr qururlar, amma hamısı yalan-yanlışdır. Sizə deyim ki, dünyanın düz vaxtı heç zaman olmayıb. Bir şey ki, taxta çıxan adamlar 2 yaşlı körpə qardaşlarını boğdurrumuşlar və bunu dövlətçilik naminə etdiklərini deyirmişlər, bu, "əski gözəl günlər" sayıla bilərmi? Hiss olunur ki, o dövrlərdə idarə edənlər daha tamahkar, daha qəddar, idarə olunanlar isə daha hüquqsuz, daha məğmun və kölə olublar.

Düzdür, Şərq indi də istibdad yuvası olaraq qalır, amma indi hakimiyyətdən ötrü qardaşını öldürdən yoxdur, əksinə, yaxşı vəzifəyə qoyurlar, o da milyarder olur.

Bəziləri də nahaq yerə özlərini şah, sultan nəslindən sayırlar. Sultanlar öz nəsillərini elə kəsirmişlər ki, sonraya toxumluq kişi qalmırmış. Səltənət dövrünə rəğbətlə yanaşanlar isə bilməlidirlər ki, xanədanlıq rejimi eynilə davam etsəydi, onlar indi sarayda uzağı sekyuriti-zad olardılar - o da xədim edilmiş halda.

YENİ MÜSAVAT
N 99 (6420) 7 may 2016

# "Azərbaycanda müəyyən qruplar Türkiyəyə qarşı düşmənçilik yayır" - türkiyəli diplomatdan həyəcanlı açıqlamalar

## Turqut Ər: "Atatürkün Leninə yazdığı məktub Azərbaycanın işğalından bir ay sonra Moskvaya çatmışdı"

**Türkiyənin Azərbaycandakı səfirliyinin keçmiş mətbuat müşaviri, Azərbaycanda kifayət qədər yaxşı tanınan Turqut Ər son illərdə Azərbaycanda antitürk təbliğatının getməsindən narahatdır. Sabiq diplomatın fikrincə, bu tendensiya ildən-ilə artır və bəzi insanlar bilərəkdən, bir çoxu isə bilmədən Türkiyə əleyhinə təbliğatda iştirakçı olur.**

**Turqut bəyi** ən çox narahat edən isə Azərbaycanda milliyyətçi kəsimin bu olaylara susqun qalması və bəzi hallarda hətta belə təbliğatın təsiri altına düşməsidir. Ankarada görüşüb söhbət etdiyimiz Turqut bəy son olaraq 28 aprel hadisələri ilə bağlı rastlaşdığı təhriflərdən narahatlığını bildirdi.

**Onun sözlərinə görə, xüsusən də bir neçə tezis var ki, Azərbaycanda Türkiyə, Atatürk əleyhinə təbliğat vasitəsinə çevrilib:** "Birincisi, bir müddətdir təbliğat gedir ki, Atatürk Azərbaycanı Leninə satıb. İkincisi, guya ruslar Atatürkə pul verib, istiqlal müharibəsinə maliyyə dəstəyi edib, bunun qarşılığında da Atatürk Qırmızı Ordunun Azərbaycanı işğal etməsinə göz yumub. Daha bir yalan bundan ibarətdir ki, Atatürk Xəlil Paşaya tapşırıq verib ki, Qırmızı Ordunun Azərbaycandan keçib Anadoluya gəlməsini təmin etsin. Ən son olaraq 3-4 gün öncə Azərbaycanda buna daha bir böhtan da əlavə etdilər. ANS telekanalında Ləman Ələşrəfqızının aparıcısı olduğu proqramda bildirdilər ki, guya Tələt Paşa deyib ki, biz Azərbaycan Respublikasını yıxmaqla yaxşı iş görmədik".

**T.Ər deyir ki, bu mövzular zaman-zaman hansısa səbəbdən və kimin layihəsidirsə, Azərbaycanda gündəmə gətirilir:** "Bu böhtanları, yalanları Azərbaycan türkü tərəfindən Qafqazdakı vətənpərvər insanların beyninə yeritməyə çalışırlar. Mənim qənaətimə görə, bunu hər il gündəmə gətirənlər hazırdakı Azərbaycanda və Qafqazdakı kommunizmi hələ də beynindən, ürəyindən, qanından təmizləməmiş olanlardır, Türkiyə ilə Azərbaycanın qurduğu və daha da inkişaf edəcək güclü birliyə zərbə vurmaq istəyənlər, fars-əcəm provokatorları, ideoloqları, Putinə xidmət edən, manqurt qapı qullarıdır".

**Sabiq mətbuat müşaviri ortaya atılan bu kimi iddiaların heç birinin həqiqəti əks etdirmədiyini, dəfələrlə təkzib olunsa da, yenə bilərəkdən gündəmə gətirildiyini söyləyir:** "İllərdir Türkiyənin tarixçiləri, diplomatları, dövlət adamları tarixi sənədləri açıqlamalarına, gerçəkləri ortaya qoymalarına baxmayaraq, yenə də yuxarıda söylədiyimiz kəsimlərin bu böhran və iftiralarının qarşısını almaq mümkün deyil. Bunun səbəbi isə Azərbaycandakı ayıq vətənpərvər tarixçilərin, dövlət adamlarının, yazarların, media nümayəndələrinin bu məsələ gündəmə gəldiyində etiraz etməməsi, doğruları söyləməmələridir".



"Məni yandıran rus yanlılar deyil, milliyyətçi kəsimdən olan insanların bu yanlışları təkrar etməsidir"



"Onların arasında milliyyətçi olaraq tanıdığım Nəsiman Yaqublunun da olması lap təəccüblüdür"

**"Ən son olaraq yuxarıda qeyd etdiyim ANS telekanalındakı proqramda iki tarixçi olduğu iddia olunan insanın danışıqları, tamamilə tarixə, həqiqətlərə, Azərbaycan və Türkiyə arasındakı qardaşlıq və dostluğa zidd böhtanlardan ibarətdir" - T.Ər bildirdi. Amma sabiq diplomata ən çox təsir edən bu iddiaların milliyyətçi kəsim tərəfindən də müdafiə olunmasıdır:** "Bunu niyə etdiklərini də anlamaqda çətinlik çəkirəm. Hələ o tarixçilərdən birinin 1918-ci ildə qurulan ilk Türk Cümhuriyyətinin əsasını qoymuş, vətənpərvərliyi və milliyyətçiliyinə inandığım Müsavat Partiyasının rəhbərliyində təmsil olunan, özünü də Azərbaycanda çalışdığım vaxtlarda milliyyətçi olaraq tanıdığım Nəsiman Yaqublunun olması lap təəccüblüdür. Digər iştirakçı, tarixçi olduğu söylənən Solmaz Tohidi adlı xanım əfəndi mövzunu izah edərkən çoxlu sayda qeyri-dəqiqliklərə yol verdi".

**Turqut Ərin fikrincə, sözügedən televiziya verilişində Tələt Paşanın ittiham olunması reallıqdan uzaqdır:** "Çünki 1925-ci ildə Tələt Paşa həyatda deyildi, erməni terroru nəticəsində şəhid olmuşdu. Nəsiman Yaqublu deyir ki, 1925-26-cı illərdə istiqlal məhkəmələrində Xəlil Paşanın dostu Tələt Paşa deyib ki, "biz Azərbaycan Cümhuriyyətini yıxmaqla doğru hərəkət etmədik, buna görə peşmanam". Digər yerdə deyir ki, 11-ci Qırmızı Ordu Azərbaycana gələrkən ordunun başında bir türk zabiti vardı. İndi mən ondan soruşuram: Ay Nəsiman bəy, sən tarixçi, milliyyətçi olduğunu iddia edirsən, Azərbaycan Türk Cümhuriyyətini quran partiyanın üzvüsən. Heçmi tarix oxumursan, sənədlərə baxmırsan, duyduqlarını dəqiqləşdirib, sənədləri axtarmırsan? Tələt Paşa Osmanlı İmperatorluğunun daxili işlər naziri olmuş, baş naziri olmuş fövqəladə güclü, dürüst, vətənpərvər, böyük bir dövlət adamı idi. İttihad və Tərəqqinin baş katibi idi. Tələt Paşa hazırda dünyada böhtan və qarayaxmalardan ibarət olan "Türklər erməniləri soyqırım etdi" iddialarında əsas ittiham olunan şəxsdir, "erməni köçürülməsi" qərarını imzalayan dövlət adamıdır. 100 ildir ki, ermənilər Tələt Paşanı əsas hədəfləri olaraq göstərirlər. Ona görə də Tələt Paşanı və o zaman Osmanlı liderləri olan Ənvər Paşanı, Camal Paşanı ermənilər şəhid ediblər. Osmanlının bu son dövlət adamlarının üçü də 1 noyabr 1918-ci ildə ölkəni tərk ediblər. Tələt Paşa Berlinə, Ənvər və Camal Paşa Moskvaya getdilər. Tələt Paşa 15 mart 1921-ci ildə Berlində Hardenber küçəsində erməni terrorçu Tehliryan tərəfindən şəhid edildi. Camal Paşa da yenə 21 iyul 1922-ci ildə Tiflisdə Karakin Lalayan və Serqo Vartanyan adlı ermənilər tərəfindən şəhid edildi. Ənvər Paşa 4 avqust 1922-ci ildə Qurban bayramının sabahı Düsənbə Belcivanda erməni Akop Melikyanın komandanlığı altında olan Qırmızı Ordu qüvvələrinə qarşı savaşda şəhid oldu".

**Müsahibimiz daha sonra istiqlal məhkəmələrinə toxundu:** "Türkiyədə ilk istiqlal məhkəmələri 18 sentyabr 1920-ci ildə qurulub. Daha sonrakılar 17 fevral 1921, 30 iyul 1921-ci il tarixlərində olub. Bu məhkəmələr 1923-cü ilə qədər hər hansı böyük məhkəmə prosesi aparmayıb. Yalnız daxili üsyanlar, əsgər fərariliyi kimi məsələlərlə bağlı çalışıb. 1921-ci ildə şəhid olan Sədrəzəm Tələt Paşa 1925-26-cı illərdə olan istiqlal məhkəmələri prosesində necə ifadə verə bilər? Belə bir yalanı Nəsiman Yaqubluya kim söyləyib? Deyir ki, bunlar "Hakimiyyəti Milliyyə" qəzetində var, orda Cümhuriyyətin yıxılması ilə bağlı çox sənədlər var. İllərdir Türkiyənin istiqlal müharibəsinə, istər bu savaşı aparan, o zəfərləri qazanıb Türkiyə Cümhuriyyətini quran başda Qazi Mustafa Kamal Paşa olmaqla, digər komandanlara Azərbaycandakı xainlər tərəfindən bir çox böhtanlar atılır. Nəsiman bəy ayrıca Qırmızı Ordu Azərbaycana girəndə başında bir türk zabiti vardı deyir. Adını da söyləmir. Bu da indiyə qədər edilməmiş bir böhtandır. Professor Solmaz xanım isə "Atatürk Qırmızı Ordunun Azərbaycana gəlməsinə razı olub", deyir. Bundan başqa, Məhəmməd Əmin Rəsulzadənin Xəlil Paşaya "Qırmızı Ordunu bura gətirməyin, bunlar bizə də, sizə də yaxşı olmayacaq" dediyini iddia edir".

**Sözügedən verilişdə 11-ci Qırmızı Ordunun Azərbaycanı işğal etməsi hadisəsinin yanlış təqdim edildiyini qeyd edən T.Ərin sözlərinə görə, qonaqlar bilərəkdən tarixi faktları təhrif etdilər. Tarixi mənbələrdə Azərbaycan Cümhuriyyəti Parlamentindəki son toplantının stenoqramlarının mövcud olduğunu xatırladan T.Ərə görə, hər şey açıq-aydın olub:** "O zaman parlamentdə "Əhrar", İttihad və Müsavat Partiyası kimi partiyalar vardı. Bunların içərisində çoxluğu Moskvaya bağlı olanlar təşkil edirdi, başlarında Nəriman Nərimanov, Məhəmmədhəsən Hacinski, Əliheydər Qarayev kimilər vardı. Bunlar Rusiyanın ultimatumunu parlamentdə oxutdular. Hacınski bu ultimatumu oxudu, Bakı xalqı parlamentə axın etdi. Məhəmməd Əmin Rəsulzadə buna qarşı çıxsa da, onu dinləyən olmadı. Səsə qoydular, çoxluq qəbul etdi. Nəticədə şimalda gözləyən 11-ci ordu Azərbaycanı işğal etdi".

**Bolşevik işğalı ilə bağlı daha bir geniş yayılmış yalan isə Atatürkün Azərbaycanı satması iddiasıdır. Sabiq diplomat bu barədə faktların bilərəkdən təhrif edildiyini deyir:** "Atatürkə edilən böhtanın əsası Leninə 26 aprel 1920-ci ildə yazdığı məktubdur. Bu məktub 90 ildir yuxarıda bəhs etdiyim pis niyyətli, savadsız insanların Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlığın güclənməsinə qarşı istifadə etdiyi əsas vasitəyə çevrilib. Bu məktub 26 aprel 1920-cı ildə yazılsa da, 1 iyun 1920-ci ildə çatıb. O məktub Moskvaya çatanda artıq 1 ay idi ki, Bakı - Azərbaycan işğal olunmuşdu. Məktubun cavabı isə ancaq 15 iyun 1920-ci ildə Ankaraya yetişib. Məktubda Qafqazı əhatə edən bölüm belədir: "Bolşevik qüvvələri Gürcüstana hücum edib oradakı siyasəti, göstərəcəyi təsir və nüfuzla Gürcüstanın da bolşevik ittifaqına daxil olmasını və içərideki ingilis qüvvələrin çıxarılmasını təmin edərsə, Türkiyə hökuməti də imperialist erməni hökumətinə hərbi müdaxilənin icrasını üzərinə götürər".

Məktubda Qafqaz haqqında bu qədər bəhs olunur. Bu məktub nə üçün yazılıb? Anadoluda istiqlal müharibəsi davam edir, ingilislər, italyanlar, fransızlar, yunanlar Anadolunu işğal etmişdilər. Şərqdə ermənilər ruslara güvənərək Türkiyənin bir sıra ərazilərini işğal ediblər və istiqlal hərbinin uğur qazanması üçün türk milləti əlində olan hər cür imkanlarını səfərbər edib. Bu arada Mustafa Kamal Paşa ruslarla dost münasibətləri quraraq şərq cəbhəsini təminat altına alıb, bütün gücünü qərb cəbhəsindəki savaşa çevirib".

**Və nəhayət, ən geniş yayılmış iddialardan biri də sovet hakimiyyətinin Atatürkə pul yardımı etməsidir. Geniş yayılmış iddiaya görə, ruslar Azərbaycanın işğalına göz yumması qarşılığında Atatürkə yardım edib. Turqut Ər deyir ki, bu iddianın da heç bir əsası yoxdur, iddia olunan pulu isə ruslar deyil, Buxara Respublikası verib, onun da böyük hissəsini ruslar mənimsəyib:** "Zaman-zaman da Atatürkə böyük pul yardımı edildiyini söyləyirlər. Əslində isə bu pulu Buxara Respublikası baş katibi Osman Xoca Moskvada Türkiyə Cümhuriyyətinin xarici işlər naziri, Mustafa Kamalın təmsilçisi olan Yusuf Kamal Tengirşenglə görüşüb və ona Buxarada xalq tərəfindən Türkiyəyə yardım üçün 100 milyon qızıl rubl topladıqlarını deyib. 3 ay sonra Yusuf Kamal Tengirşek növbəti dəfə Moskvaya getdikdə Buxara Respublikası baş katibi Osman Xoca 100 milyon pulu Rusiya xarici işlər naziri Çiçerinə təhvil verib, Çiçerin isə bunun 5 milyon rublunu Yusuf Kamal bəyə verib, yerdə qalan 95 milyonu kommunist hököməti mənimsəyib. Bu faktı həm Yusuf Kamal Tengirşek öz xatirələrində yazır, həm də Qırmızı Ordunun Buxara Respublikasını işğal etdiyi zaman qaçıb Türkiyəyə sığınan Buxara Respublikasının baş katibi də xatirələrində yazıb.

Bütün bunları niyə anlatdım? Yuxarıda da dediyim kimi, Azərbaycanda zaman-zaman bu gerçəklər fərqli insanlar tərəfindən, bilən və ya bilməyən, məqsədli və ya məlumatsız olanlar tərəfindən gündəmə gətirilərək Türkiyəyə, Mustafa Kamal Paşaya və dostlarına böhtanlar atılır. Nə Azərbaycan dövləti, nə də oradakı vətənpərvər, milliyyətçi insanlar həqiqətləri söyləyərək bu təhrifləri cavablandırmır. Açığı, bir neçə gün gözlədim ki, bizim oradakı Türkiyə Cümhuriyyəti səfirliyi ANS-də verilən bu proqrama cavab versin, həqiqətləri bir daha Azərbaycan ictimaiyyətinə anlatsın. Təəssüf ki, bu da olmadı. Türkiyə səfirliyinin keçmiş işçisi olaraq bu səssizliyə çox üzüldüm. İllərdir bu iftiralar davam edir. Biz də açıqlama verir, həqiqətləri ortaya qoymağa çalışırıq. Amma dayanmır. Məni yandıran rus yanlıları deyil, milliyyətçi kəsimdən olan insanların bu yanlışları təkrar etməsidir".

"Bir müddətdir təbliğat gedir ki, Atatürk Azərbaycanı Leninə satıb. İkincisi, guya ruslar Atatürkə pul verib, istiqlal müharibəsinə maliyyə dəstəyi edib, bunun qarşılığında da Atatürk Qırmızı Ordunun Azərbaycanı işğal etməsinə göz yumub"

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 99 (6420) 7 may 2016

**Türkiyənin baş naziri Əhməd Davudoğlunun qəfil istefası ətrafında ortaya çıxan iddiaların sayı getdikcə artır. Hakim Ədalət və İnkişaf Partiyasının (AKP) mayın 22-nə növbədənkənar qurultay təyin etməsi, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın özünə yaxın silahdaş hesab etdiyi Davudoğlundan bir anda imtina etməsi qardaş ölkə ilə yanaşı, dünya mediasının da əsas müzakirələrindən birinə çevrilib.**

# Davudoğlunun istefasının pərdəarxası

## Sabiq baş nazir partiyadaşlarının dəstəyini nə üçün ala bilməyib?

AKP sədrliyinə namizəd olmayacağı dəqiqləşən Davudoğlunun istefasına əsas səbəb kimi, Türkiyədə prezident üsul-idarəsinə keçmə yolunda atılan addımlar göstərilir...

**AKP-nin Van millət vəkili Burhan Kayatürkün** son açıqlaması bir çox üstüörtülü mətləblərin üstünü açır. O, Türkiyənin prezident üsul-idarəsinə keçməsinin vacibliyini vurğulayaraq, Davudoğlunun önəmli addım atdığını bildirib: "AKP-nin qurucusu və hərəkatın lideri, hörmətli Rəcəb Tayyib Ərdoğan bu ehtiyacı gördüyü üçün ölkənin prezident üsul-idarəsinə keçməsini istəyir. Ak Partinin millət vəkili qrupu və bütün təşkilatları hörmətli prezidentimizin ölkəni prezident üsul-idarəsinə keçirmə düşüncəsinə qeyd-şərtsiz dəstək verəcək, buna heç kimin şübhəsi olmamalıdır"...

Azərbaycanda da Davudoğlunun istefası gündəmdən düşmür. Ekspertlərin fikirləri əksərən üst-üstə düşür.

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat" açıqlamasında bu istefanın Ərdoğandan qaynaqlandığını bildirdi:** "Türkiyədə baş verən siyasi təlatümlərin bir əsas səbəbi var. Rəcəb Tayyib Ərdoğan ölkənin idarəetmə formasını dəyişərək prezident üsul-idarəsini bərqərar etmək istəyir. Bu yolda o, önünə çıxan ən kiçik maneələri belə tərəddüd etmədən qətiyyətlə aradan qaldırır. Ərdoğanın öz siyasi layihəsini gerçəkləşdirə bilməsi üçün güclü, monolit siyasi partiya və ona sözsüz itaət edəcək sadiq hökumət başçısı lazımdır. Belə bir sual yaranır ki, Əhməd Davudoğlu Ərdoğana sədaqət məsələsində hansı qüsurlara yol vermişdi və yaxud prezidentin siyasi layihəsinə hansı problemləri yaradırdı? Ərdoğan prezident seçildikdən sonra AKP sədri və baş nazir vəzifəsinə Davudoğlunu tövsiyə edərkən əksəriyyət düşünürdü ki, sabiq xarici işlər naziri yeni vəzifəsində prezidentin sözündən çıxmayacaq, bir növ onun kuklasına çevriləcək. Lakin zaman keçdikcə, Davudoğlu yavaş-yavaş müstəqilləşməyə, konstitusiyanın ona verdiyi səlahiyyətlərdən istifadə etməyə, öz iradəsini yeritməyə cəhd göstərməyə başladı. Nəticədə onunla prezident arasında bir sıra məsələlərdə fikir ayrılıqları ortaya çıxdı".

**Politoloq istefaya səbəb olacaq bir sıra faktları da açıqladı:** "Davudoğlu hesab edirdi ki, korrupsiya əməllərində ittiham olunan 4 keçmiş nazir məhkəmə önünə çıxaraq bərəət almağa çalışmalıdır, Ərdoğan isə 13-25 dekabr 2013-cü il korrupsiya qalmaqalının bilavasitə ona qarşı yönəldiyini və "fətullahçı"ların çevriliş cəhdi olduğunu düşündüyü üçün buna qarşı çıxdı. Parlament seçkilərində AKP-nin namizəd siyahıları müəyyənləşərkən Davudoğlu ön sıralarda özünə yaxın adamlara daha çox yer vermək istəyirdi, lakin Ərdoğan buna mane olaraq özünə sadiq adamların siyahıların yuxarılarında yer almalarını təmin etdi. AKP-nin 12 sentyabr 2015-ci il tarixli qurultayında partiyanın rəhbər orqanlarının tərkibi müəyyənləşərkən yenə fikir ayrılığı yarandı və Ərdoğan bu dəfə də rəhbər orqanların tərkibinin özünə yaxın şəxslərdən ibarət formalaşdırılmasına nail oldu. 7 iyunda keçirilən parlament seçkilərindən sonra Davudoğlu CHP ilə koalisiya qurmağa meyllləndiyi halda, Ərdoğanın müdaxiləsi ilə belə bir koalisiya baş tutmadı və erkən seçkilərə gedildi. Seçkilərdən sonra hökumətin tərkibi müəyyənləşdirilərkən yenə eyni problemlər ortaya çıxdı. Dövlət aparatında yüksək səviyyəli məmurların təyinatı, jurnalistlərin həbsi, deputat toxunulmazlığının ləğvi və digər məsələlərdə də fikir ayrılıqlarının yaranması və dövlət idarəçiliyində ikitirəliyin ortaya çıxması son nəticədə Ərdoğanın Davudoğluna etimadının sarsılmasına səbəb oldu. Bundan başqa, Türkiyənin xarici siyasətində Davudoğlunun ön plana çıxaraq Ərdoğanı kölgədə qoymasını da qeyd etməliyik. Xüsusən Qərbin Ərdoğana soyuq münasibətini gizlətməyərək Davudoğluna daha isti yanaşması prezidenti qıcıqlandırırdı. Avropa Birliyi-Türkiyə sammitlərinə avropalılar Ərdoğanı yox, məhz Davudoğlunu dəvət edirdilər. ABŞ prezidenti Obamanın Ərdoğanın ABŞ-a son səfəri zamanı ona çətinliklə görüş verməsi və Ağ Evin bunu qeyri-rəsmi görüş kimi təqdim etməsi, Davudoğluna isə bugünlərdə ABŞ-a planlaşdırılmış səfəri ilə bağlı heç bir problem olmadan Obama tərəfindən görüş verilməsi də Ərdoğanı narahat edən məqamlardan biri oldu. *(Son hadisələrlə əlaqədar Davudoğlunun ABŞ-a səfəri baş tutmayacaq)*".



Əhməd Davudoğlu

**Müsahibimiz mayın 22-də Ərdoğana sadiq şəxsin baş nazir olacağını da qeyd etdi:** "Mayın 22-də Ərdoğana sadiq adamlardan biri AKP lideri seçiləcək və baş nazir kreslosuna əyləşəcək. Artıq Türkiyə konstitusiya dəyişikliyinə getmədən faktiki olaraq prezident üsul-idarəsinə keçib. Dövləti də, hakim partiyanı da Ərdoğan idarə edir. İndi qalır bu faktiki durumu rəsmiləşdirmək. Qarşıdakı aylarda AKP-nin yeni konstitusiya layihəsini referenduma çıxarmaq üçün parlamentdə ehtiyac duyduğu 14 səsi əldə etməyə çalışacağı şübhə doğurmur".

**Cavanşir ABBASLI**



YENİ MÜSAVAT
N 99 (6420) 7 may 2016

# Kimin günü xoş keçir



Zamin HACI
zaminhaci@gmail.com

**Öncə bir mətni oxuyaq: "Doğrusunu demək lazımdır, indiki vaxtda ölkəmizdə razı adam tapmaq çox çətindir (əlbəttə, mən ancaq mədəni insanları nəzərdə tuturam, çünki qeyri-mədəni adamların narazı olmağa vaxtı yoxdur). Kimi dindirsən, deyinəcək, şikayət edəcək, zarıyacaq. Biri deyir azadlığı çox az verirlər, o biri deyir yox, azadlıq həddən artıqdır; biri deyir hakimiyyət fəaliyyətsizdir, başqası deyir əksinə, hakimiyyət hər şeyə burnunu soxur; biri deyir, səfehləmişik, başqası deyir ağıl aşıb-daşır; elələri də var hər cür murdarlıqda iştirakçıdır, ancaq qaqqıldayaraq gülürlər, deyirlər belə biabırçılıq başqa hansı ölkədə görünübdür? Hətta dövlət xəzinəsini oğurlayanlar da narazıdır, deyirlər tezliklə çırpışdırmağa heç nə olmayacaq".**

Bunu rus yazıçısı Saltıkov-Şedrin 1880-ci ildə, bizim də tərkibində olduğumuz Rusiya imperiyası haqda yazmışdır. Xoşuma gəldi, istədim sizə çatdırım. Elə bir pis niyyətim yoxdur.

Dünən Qarabağda həlak olan növbəti əsgərimizə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal verilməsini gördüm, istərdim bu haqda da fikirlərimi oxuyasınız.

Demək, medalı ölümündən sonra alan kiçik çavuş Elmir Zeynalov ailənin tək övladı olub. Goranboyun Əhmədabad kəndindən imiş. 22 yaşı varmış. Böyük ehtimal çağırışçı yox, müddətdən artıq xidmət edən əsgər olub. Sözüm bunda deyil. Diqqət eləmişəm, son illərdə cəbhə xəttində həlak olan əsgərlərimizə adətən bu "Hərbi xidmətdə fərqlənməyə görə" medalının 3-cü dərəcəsini verirlər. Niyə axı? Bu insanların ailəsinə təsəlli üçün heç olmazsa 1-ci, 2-ci dərəcəli medal vermək düz deyilmi? Qıymırsınız? Hansısa qotur bir şairə, şərəfsiz siyasətçiyə, nə bilim, yaltaq bir nazirə "Şərəf", "Şöhrət", "İstiqlal" ordenləri torba-torba paylanır, vətən uğrunda canından keçən - bu, son həddir, bir insan daha artıq nəsə verə bilməz - əsgərə isə "fərqlənməyə görə üçüncü dərəcə" verilir. Şəxsən mən vətən uğrunda ölsəm, mükafatlandırılma mərasimimi izləmək imkanım olsa həmin üçüncü dərəcə medalı gətirənin başına vuraram.

Onsuz da heç bir medal, hər hansı ad valideyn üçün övladını əvəz eləyə bilməz. Ancaq bu təltiflər bir təsəllidir, təsəllini heç olmazsa abırlı eləyin, birinci dərəcəli eləyin. Metal çatışmazlığı varsa, nazirlərə, deputatlara deyin, qızıllarından bir az əridib göndərsinlər.

Yanlış anlaşılmasın, mən bu medalın dərəcələri əleyhinə deyiləm. Ola bilsin hansısa mənası var, fərqlənməyin növləri qanunda konkret göstərilir. Bütün hallarda, ölən əsgərə 3-cü dərəcə verməyin - bunu yazmaq istədim. Verirsinizsə, 1-ci dərəcə verin, vermirsinizsə, verməyin. Medalın 2 və 3-cü dərəcələri sağ əsgərlərə verilə bilər.

Dünən Azərbaycan və Ermənistanda doğulan uşaqlara görə verilən birdəfəlik müavinətin müqayisəli məbləğini də gördüm, əsl biabırçılıqdır. Ermənilər 50 min dram (milli pulları belə dramatik adlanır - Z.H.) verirmiş, bu eləyir 104 ABŞ dolları. Azərbaycan isə 90 manat verir, dollara çevirəndə 60 dollara bərabərdir. Regionun "analoqu olmayan inkişaf etmiş lider" dövləti "acından dağılan" qonşusuna nisbətən təzə doğulan uşağa 44 dollar az pul verir, hələ bizdə o 60 dolları almaq da hər kəsə nəsib olmur - bir sürü kağız, sənəd istəyirlər.

Yazını rus ədibiylə başlamışıq, elə başqa rus şairi Nekrasovun "Rus elində kimin günü xoş keçir" poemasından bir parça ilə bitirək, çünki tam indiki vaxtımıza uyğun gəlir:

**"Şorbanı ye, yaşa, görək.**
**Ancaq yoxdur dadı-duzu.**
**"Necə oldu bizim inək?"**
**- Apardılar onu, quzum,**
**Ağagilə damazlığa.**
**Biz qaldıq süd sorağında.**
**Xalqın günü gözəl keçir**
**Müqəddəs Rus torpağında!**
**Balamıza həsrətik biz.**
**Oğlanları aparır çar;**
**Qızları da himayəmiz-**
**Ağa, barin və mülkədar.**
**Ürəyinin yağı yanır**
**Kənd əhlinin çırağında.**
**Xalqın günü gözəl keçir**
**Müqəddəs Rus torpağında!"**

# Şuşanın işğal günü ilə bağlı kritik 3 gün

**Sabah Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşanın işğalının növbəti - 24-cü ildönümüdür. Ancaq budəfəki ildönüm əvvəlkilərdən kifayət qədər fərqlənir. Bu dəfə Qarabağ problemi ətrafındakı keyfiyyətcə yeni, xeyrimizə olan bir situasiya mövcuddur və onu da Azərbaycan ordusu 4 günlük aprel savaşı ilə yaradıb.**



# Azərbaycan müharibə anonsu verdi - haqq savaşı hər an başlaya bilər!

**Müdafiə Nazirliyindən düşmənə xəbərdarlıq və çağırış:** "Hər gün səksəkə, qorxu içində yaşamaq istəmirsizsə, işğala son qoyun!"; beynəlxalq birliyin mövqeyi də aprel uğurunu təkrarlamaq üçün Bakıya əlverişli fürsət yaradır; **rusiyalı hərbi ekspert:** "Azərbaycanda elə silah var ki, heç Rusiyada yoxdur"...

Bu üzdən bir sıra analitiklər 2-5 aprel döyüşlərinin davamının məhz 7-8-9 maya təsadüf edə biləcəyini istisna eləmirlər. Məsələn, tarixçi alim Oleq Kuznetsov proqnoz eləmişdi ki, həmin günlər Rusiya rəhbərliyinin başı 9 may qələbə tədbirlərinə qatılacağından Azərbaycan 3 gündə öz ərazisində istədiyi addımı ata bilər.

Eyni zamanda iş günlərinə təsadüf etmədiyindən beynəlxalq birliyin hansısa operativ reaksiyasını da gözləməyə dəymir. Bu yerdə yada salaq ki, 4 günlük müharibə də məhz Kəlbəcərin işğal günü ilə yanaşı, şənbəyə təsadüf eləmişdi...

***

Şübhə yox ki, düşmənə qarşı əməliyyat planını Baş Qərargah hazırlayır, Ali Baş Komandanın qərarı ilə isə icra olunur. Azərbaycanın siyasi-hərbi rəhbərliyinin mövqeyi isə dəqiq şəkildə yəqin ki, yalnız ona məlumdur. Ancaq maraqlıdır ki, dünən Müdafiə Nazirliyi Azərbaycan Silahlı Qüvvələrinin 9 may ərəfəsində hücuma keçəcəyi barədə Ermənistanın gündəmə gətirdiyi məlumatlara münasibət bildirib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən musavat.com-a bildirilib ki, Ermənistan kriminal hərbi-siyasi rejimi BMT-nin Təhlükəsizlik Şurasının qərarlarına və qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair qətnamələrə əməl etməyəcəyi təqdirdə bunun baş verməsi labüd və qaçılmazdır.

**"Ermənilər hər gün, hər an, hər saat Silahlı Qüvvələrimizin torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün tam təmin olunması istiqamətində addımlar atacağını gözləməlidir. Məşhur bir kəlamda deyildiyi kimi, "Ölümü gözləmək ölümün özündən daha dəhşətlidir""**, deyə, bəyanatda vurğulanır. **"Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızı düşməndən azad etməyə qadir və tam hazırdır. Ermənilər ölmək, hər gün ölümü gözləyərək səksəkə, qorxu içində yaşamaq istəmirlərsə Azərbaycan torpaqlarını tərk etməli, işğalçılığa son qoymalıdırlar"**, - deyə Azərbaycan işğalçı tərəfə xəbərdarlıq edib.

Bu bəyanatı sözsüz ki, Şuşanın işğal günü ərəfəsində Ermənistana və separatçı rejimə müharibə xəbərdarlığı kimi qiymətləndirmək olar. Hərbi nazirliyin açıqlaması həmçinin, rəsmi İrəvanın separatçı rejimi tanıya biləcəyi ilə bağlı son günlər sərgilədiyi təxribatının, şantaj-hədələrinin ciddiyə alınmadığının nümayişidir. Bu o deməkdir ki, tanınma məsələsindən asılı olmayaraq, Azərbaycanın öz ərazilərini işğaldan azad eləməyə hazır və qətiyyətlidir.

***

Yeri gəlmişkən, bu arada Rusiyanın ardınca ATƏT-in Minsk Qrupunun digər həmsədr ölkəsi olan ABŞ-dan da Ermənistanı tanınma məsələsində məyus edən açıqlama gəlib. Dövlət Departamentinin rəsmisi Mark Toner bildirib ki, Birləşmiş Ştatlar "Dağlıq Qarabağ" adında dövlət tanımır və tanımağa hazırlaşmır. "ABŞ beynəlxalq ictimaiyyətlə bərabər Dağlıq Qarabağı tanımır. Dağlıq Qarabağın yekun statusu yalnız hərtərəfli nizamlanma kontekstində müəyyən ediləcək", - deyə Mark Toner vurğulayıb.

Amerikanın bu mövqeyi, Ermənistan tezliklə konstruktiv mövqe tutmayacağı təqdirdə, Azərbaycanın ən azı bir neçə rayonu azad eləmək üçün əl-qolunu açan əlavə kart-blanş sayıla bilər. Xatırladaq ki, 4 günlük müharibə zamanı erməni lobbisinin çığır-bağırına baxmayaraq, rəsmi Vaşinqton Azərbaycanın işğalçıya qarşı cəza əməliyyatı aparmasına kifayət qədər təmkinli reaksiya göstərmişdi.

Əfsuslar olsun ki, Ermənistan aprel savaşından sonra da sülh danışıqlarından qaçır, əlavə absurd şərtlər irəli sürməklə nizamlama prosesini sabotaj edir. Demək, bununla ABŞ-ın da regiondakı maraqlarını zərbə altına qoyur.

***

"Aprelin əvvəlindəki döyüşlərdən aydın oldu ki, Azərbaycan hərbi cəhətdən Ermənistandan ciddi keyfiyyət üstünlüyünə malikdir. Belə vəziyyətdə Bakı qərar verə bilər ki, ortada yaxşı səbəb ola-ola niyə də döyüş əməliyyatlarını bərpa edib erməni tərəfi üzərində qələbə qazanmasın?" Bunu tanınmış rusiyalı hərbi ekspert Pavel Felqenqauer erməni portalına müsahibəsində iki tərəfin hərbi imkanlarını şərh edərkən söyləyib.

**Analitikin sözlərinə görə, Azərbaycanın elə hərbi imkanları var ki, Ermənistanda yoxdur:** "Məsələn, özünün pilotsuz uçan aparatları ilə Azərbaycan hazırda hətta Rusiyadan da güclüdür - biz hələ Ermənistanı demirik. Rusiyada da İsrail dronları var, ancaq Azərbaycanda onların elə növləri var ki, Rusiyada yoxdur. Bakının hərbi sahədə keyfiyyət üstünlüyü Azərbaycan-İsrail hərbi əməkdaşlığının nəticəsidir. İsrail Azərbaycan tanklarını, atəşi idarəetmə sistemlərini, gecə vaxtı effektli döyüş əməliyyatları aparmaq imkanlarını modernləşdirib. Bura əlavə edin qarşı tərəfin mühüm hədəflərini, onun müdafiəsinin dərinliyində nə baş verdiyini gecə-gündüz axtarıb tapmağa imkan verən pilotsuz uçan aparatlarını, 150 km-lik məsafəyə uçan raketlər də daxil, yüksək dəqiqlikli zərbə sistemlərini. Bu, mövqe müharibəsində çox vacibdir - nə vaxt ki, gündüz də, gecə də zərbə vurmaq imkanına maliksən. Dron-aparatlar ciddi üstünlük yaradır. Onlar düşmən tərəfin dərin müdafiə qatındakı anbarları, müxtəlif obyektləri məhv eləməyə qadirdir. Doğrudur, erməni tərəfində də pilotsuz aparatlar var. Ancaq onlar əldə qayırmadır və heç nəyə yaramır".

Rusiyalı analitik belə bir qənaətə gəlir ki, yeni hərbi qarşıdurmada Azərbaycanın növbəti uğuru üçün ciddi maneə yoxdur.

***

Beləliklə, Şuşanın işğalının ildömünü ilə bağlı düşmənin canına vahimə salan kritik "3 günlüy"ə daxil olmuşuq. Yəqin ki, Azərbaycan tərəfi 4 günlük müharibədəki səhvləri də artıq nəzərə alıb. İşğalçını yarımcan saxlamaq olmaz...

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 99 (6420) 7 may 2016

# Ermənistanın qondarma "DQR"in tanınmasına risk etməməsinin sirri

## Ekspertlərin sözlərinə görə, müxalifət Sərkisyanı ölkə daxilində də pis vəziyyətə qoymaq üçün bu oyunu ortaya atıbmış

**Ermənistan hökumətinin qondarma "Dağlıq Qarabağ Respublikası"nın "müstəqilliyi"nin tanınması ilə bağlı qanun layihəsinə rəy verərək sənədi parlamentə göndərməsi, ancaq sənədin parlamentin müzakirəsinə çıxarılmasından imtina edilməsi müzakirə mövzusu olaraq alır.**




İşğalçı ölkənin hakimiyyətinin belə bir addım atmasının səbəbləri barədə müxtəlif fikirlər, şərhlər verilir.

**YAP-çı deputat Aydın Mirzəzadə** Ermənistan hakimiyyətinin hərəkətinin gözlənilən olduğunu bildirib. Onun sözlərinə görə, Ermənistan Azərbaycanı bununla təhdid edirdi. Ancaq artıq bir daha bəlli oldu ki, işğalçı ölkənin bundan sonrakı təhdidləri də eynilə bu cür rüsvayçılıqla yekunlaşacaq: "Azərbaycan ordusunun 2-5 aprel tarixində apardığı hərbi əməliyyatlar Ermənistanın qalib mifini dağıtdı. Bu gün Ermənistan rəhbərliyi bir tərəfdən düşdüyü ağır vəziyyətdən çıxış yolu axtarır, digər tərəfdən isə cəmiyyətdə hələ də bir qüvvə olduğu ilə bağlı təəssürat yaratmağa çalışır. Buna görə də onun atdığı addımlar ziddiyyət təşkil edir. Həmçinin paralel olaraq Azərbaycana siyasi təzyiq göstərməyə çalışır.

Hamıya aydındır ki, Ermənistan heç zaman Qarabağdakı rejimi müstəqil dövlət kimi tanımayacaq. Buna onun siyasi cəsarəti çatmaz. Bununla Ermənistan özünü ifşa etmiş olar və Azərbaycanın danışıqlardan çıxmasına səbəb ola, birbaşa hərbi əməliyyatlar aparmaq üçün yolunu açar. Ermənistan asılı olduğu xaricdəki dairələrlə də bu məsələni razılaşdırmamışdı. Buna görə də Ermənistanın geri çəkilməsi gözlənilən idi".

**Politoloq Natiq Miri isə bildirdi ki, qondarma "Dağlıq Qarabağ Respublikası"nın tanınması məsələsi müxalifətdə olan iki deputat tərəfindən qaldırılmışdı:** "Müxalifət belə bir təşəbbüsü qaldırmaqla Ermənistandakı hakim rejimin arqumentlərini tamamilə əlindən almağı qarşısına əsas məqsəd qoymuşdu. O təşəbbüsü qaldıran deputatların özləri də, hər halda, bilirdilər ki, Sərkisyan hakimiyyəti indiki vaxtda "Dağlıq Qarabağ Respublikası"nın tanınması məsələsini parlamentin müzakirəsinə çıxarmayacaq. Müxalifət, sadəcə olaraq, hakimiyyətin arqumentsiz olduğuna ictimaiyyətdə rəy yaratmaq istədi. Məlum layihənin ortalığa atılması Sərkisyan rejimini çətin durumla üz-üzə qoydu. Sərkisyan öncə həmin layihənin hökumətdən müsbət rəy aldığını elan etdirməklə beynəlxalq rəyi, Azərbaycanın reaksiyasının necə olacağını öyrənməyə çalışdı. Ancaq bir gün keçdikdən sonra özünün qorxduğunu nümayiş etdirdi".

**Politoloqun fikrincə, Ermənistan hakimiyyəti qondarma "Dağlıq Qarabağ Respublikasının müstəqilliyi"ni tanımamaqla Azərbaycana fürsət vermək istəmədi:** "Ermənistan parlamenti məsələni müzakirəyə çıxarıb "hə" cavabı versəydi, Azərbaycanın işğal olunmuş ərazilərimizdə genişmiqyaslı hərbi əməliyyatlara başlaması üçün əsas yaratmış olacaqdı, heç bir beynəlxalq təşkilat və dövlətin bundan sonra haqqı olmayacaqdı ki, Azərbaycana "hərbi əməliyyatlara əsas yoxdur, hərbi əməliyyatları dayandır" çağırışını etsin. Bu baxımdan hesab edirəm ki, əslində Azərbaycan bir böyük fürsətdən məhrum oldu. Azərbaycan həm hərbi, həm diplomatik cəhətdən işə apparmaqla gərək İrəvanı yanlış addım atmağa sürükləyəydi ki, istədiyimiz fürsət yaransın".

N.Miri onu da qeyd etdi ki, Rusiyanın Ermənistanın separatçı Dağlıq Qarabağ rejiminin "müstəqilliyi"ni tanımasını məqsədəuyğun hesab etməməsi də İrəvana öz təsirini göstərdi.

Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova isə mayın 6-da keçirdiyi ənənəvi brifinqdə deyib ki, Dağlıq Qarabağ məsələsi istisnasız olaraq danışıqlar yolu ilə həll olunmalıdır.

Ekspertlər Zaxarovanın "Dağlıq Qarabağın statusunun hüquqi baxımdan məcburi olan öz iradəsini ifadəetmə əsasında müəyyənləşdirilməsi" fikrinin əslində referendum demək olduğunu və Azərbaycanın maraqlarına xidmət etmədiyini şərh edirlər.

**Zaxarova eyni zamanda deyib ki, yaxın həftələrdə həmsədrlərin iştirakı ilə Dağlıq Qarabağ münaqişəsi üzrə görüş planlaşdırılır. Görüşün yeri, vaxtı və formatı barədə hələlik qərar qəbul olunmayıb:** "Ən əsası odur ki, görüşün nəticəsi necə ola bilər. Ona görə də, hansısa tarixdən danışmaq hələ tezdir. Lakin bir daha qeyd edirəm ki, bu görüş üzərində olduqca aktiv iş aparılır. Söhbət yaxın həftələrdə görüşün keçirilməsindən gedir.

Bizim üçün əsas olan paytaxtlarda nəyin deyilməsidir. Biz bu və ya digər tərəfdən təşəbbüslər, addımlar görürük və bu addımlar KİV-də hazır qərar və aqressiv fəaliyyət kimi təqdim edilir. Dərhal KİV-də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin, danışıqlar prosesinin sona çatması ilə bağlı nəzəriyyələr, fərziyyələr qurulur.

Biz konkret olaraq tərəflərlə və həmsədrlərlə işləyirik. Sizi əmin edə bilərəm ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı beynəlxalq səviyyədə çox aktiv "beyin fırtınası" gedir. Münaqişənin nizamlanması ilə bağlı heç bur durğunluq yoxdur".

### Müdafiə Nazirliyindən Ermənistana "müharibə labüddür" xəbərdarlığı

**Ermənistan hakimiyyəti son günlər dünyaya car çəkir ki, Azərbaycan cəbhə xətti boyunca hərbi texnikanın, canlı qüvvənin sayını çoxaldır və mayın 8-9-da hərbi əməliyyatlara başlayacaq. Mayın 6-da Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan ordusunun mayın 8-9-da hücuma keçəcəyi barədə deyilənlərə münasibət bildirib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, Ermənistan kriminal hərbi-siyasi rejimi BMT Təhlükəsizlik Şurasının qərarlarına və qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair qətnamələrə əməl etməyəcəyi təqdirdə bunun baş verməsi labüddür və qaçılmazdır:** "Ermənilər hər gün, hər an, hər saat Silahlı Qüvvələrimizin torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün tam təmin olunması istiqamətində addımlar atacağını gözləməlidirlər. Məşhur bir kəlamda deyildiyi kimi, ölümü gözləmək ölümün özündən daha dəhşətlidir. Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızı düşməndən azad etməyə qadirdir və tam hazırdır. Ermənilər ölmək, hər gün ölümü gözləyərək səksəkə, qorxu içində yaşamaq istəmirlərsə Azərbaycan torpaqlarını tərk etməli, işğalçılığa son qoymalıdırlar".

Bu arada dünən Ermənistan mətbuatında məlumat yayılıb ki, Azərbaycan ordusunun endirdiyi minomyot zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin təmas xəttindəki mövqelərindən birində blindaj əsgərlərin başına uçub, 2 əsgər ölüb. Blindajda ölən erməni hərbçiləri Koryun Arutyunyan və İqor Akopyandır. Akopyan Ermənistanın Geqarkunik vilayətinin Getaşen kəndindəndir. Kənd administrasiyasının rəhbəri Rubik Qukasyan bildirib ki, 19 yaşlı Akopyan mayın 3-də ölüb. Müdafiə Nazirliyi əsgərin "blindajın uçması nəticəsində öldüyünü" valideyinlərinə çatdırıb. İnsident Qarabağdakı erməni mövqelərindən birində baş verib.

Blindajda ölən digər əsgər, 19 yaşlı Koryun Arutyunyan isə Geqarkunik vilayətinin Qeqamsar kəndindən hərbi xidmətə çağırılıb, Azərbaycanın işğal altındakı ərazilərinə göndərilib.

**Ermənistan Müdafiə Nazirliyi bu insident barədə susub. Mayın 4-də Ermənistanın İstintaq Komitəsi insident barədə aşağıdakı qısa məlumatı yayıb:** "Mayın 3-də, gecə yarısına yaxın N saylı hərbi hissədə həqiqi hərbi xidmətə çağırılmış hərbi qulluqçular İqor Akopyanın və Koryun Arutyunyanın cəsədləri tapılıb. Vizual baxış zamanı onların cəsədi üzərində güllə, qəlpə yaraları, zorakılıq əlamətləri aşkar edilməyib. İnsidentlə bağlı təxirəsalınmaz istintaq tədbirləri həyata keçirilir".

### Ohanyan: "Rusiya Ermənistana başqa ölkələrdən silah almağa icazə vermir"

Ermənistanın müdafiə naziri Seyran Ohanyanın isə Rusiyanın Ermənistanın başqa ölkələrdən silah almasına icazə verməyiyini dolayısı ilə bildirdiyi haqda xəbərlər yayılıb. Ermənistanın "Aykakan Jamanak" qəzeti yazıb ki, bu yaxınlarda Ermənistanın müdafiə naziri Seyran Ohanyanın deputatlarla qapalı görüşü zamanı ona niyə təkcə Rusiyadan silah alınması ilə bağlı sual ünvanlanıb. S.Ohanyan isə dolayı şəkildə nəzərə çatdırıb ki, Rusiya Ermənistanın başqa ölkələrdən silah almasına icazə vermir. O, həmçinin qeyd edib ki, indiyə kimi Ermənistan silahı Rusiyadan alıb və belə davam etmək fikrindədir.

### ABŞ səfirindən böyük sülh sazişi açıqlaması

**ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta isə dünən jurnalistlərə açıqlamasında bildirib ki, ABŞ Dağlıq Qarabağ münaqişəsinin həllinə dair böyük sülh sazişi üzərində işi vacib hesab edir**

**Səfir deyib:** "Bildiyiniz kimi, ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəflərlə danışıqlar aparırlar ki, böyük sülh sazişi üzərində işə başlasın. Hesab edirəm ki, indiki mərhələdə atəşkəsə əməl olunması, vəziyyəti daha gərgin edə biləcək addımlardan imtina və eyni zamanda böyük sülh sazişi üzərində birgə iş çox vacibdir".

**Onun sözlərinə görə, bu vəziyyət dövlət katibi Con Kerrinin diqqət mərkəzindədir:** "Eyni zamanda ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik gərginliyin azaldılması və sülh sazişinə nail olmaq üçün səylərini əsirgəmir. Hesab edirəm ki, hamı hazırda məhz bu istiqamətdə səy göstərməlidir".

ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik isə təmas xəttində gərginliyin davam etməsi ilə bağlı dünən bildirib ki, Minsk Qrupunun həmsədr ölkəsi kimi ABŞ-ın mövqeyi ondan ibarətdir ki, tərəflər atəşkəs sazişinə ciddi şəkildə əməl etməli, hərtərəfli sülhə nail olmaq üçün dərhal danışıqlara gəlməlidirlər. Münaqişəsinin hərbi yolla həlli yoxdur.

### Xarici səfirlər cəbhə xəttində

Mayın 6-da Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycanda akkreditə olunan diplomatik korpusun nümayəndələrinin cəbhənin Tərtər və Ağdama səfəri təşkil edilib.

XİN-dən verilən məlumata görə, nümayəndə heyətində Türkiyə, Rumıniya, Rusiya, Pakistan, İtaliya, Norveç, Əfqanıstan, Fələstin, İspaniya səfirləri, ABŞ, Böyük Britaniya səfirliklərinin hərbi attaşeləri, Fransa səfinin müavini də təmsil olunur.

Diplomatlar öncə Tərtərin Qapanlı kəndində olublar. Burada onları Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov qarşılayıb. İH başçısı nümayəndə heyətinə cəbhədə baş verən son atışmalar zamanı dinc əhalinin üzləşdiyi çətinliklər, ermənilərin yaşayış məntəqələrinin atəşə tutması nəticəsində yaranan problemlər barədə məlumat verib.

Daha sonra ermənilərin atdığı mərmilərdən birinin dağıtdığı, kənd sakini İlqar Məmmədovun evinə baxış keçirilib.

Ağdamda isə diplomatları Ağdam rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov qarşılayıb. Onlara aprel ayında erməni hərbi birləşmələrinin yaşayış məntəqələrinin atəşə tutması barədə məlumat verilib. Daha sonra nümayəndə heyəti ermənilər tərəfindən atılan mərminin dağıtdığı Sarıcalı kənd orta məktəbində olublar. Diplomatlar, həmçinin erməni silahlı qüvvələrinin ağır artilleriya atəşinə məruz qalan Mahrızlı, Zəngişalı, Çəmənli kəndlərində olublar.

Səfirin məqsədi 2016-cı ilin aprel ayı ərzində Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xətti boyunca iri çaplı minaatanlar, ağır artilleriya və toplardan istifadə etməklə təmas xəttinə yaxın kəndlərdə sıx şəkildə yaşayan mülki Azərbaycan əhalisi, fərdi və dövlət mülkiyyətində olan obyektlər və Azərbaycan ordusunun mövqelərini intensiv atəşə tutmasının və dəymiş ziyanın humanitar və sosial nəticələri ilə yerindəcə tanış olmaqdır.

Diplomatik nümayəndəliklərin rəhbərləri və hərbi attaşelərin daxil olduğu 80-ə yaxın nümayəndənin səfərinin məqsədlərindən biri də qoşunların təmas xətti boyunca mövcud vəziyyətin diplomatların təmsil etdiyi ölkələrə obyektiv çatdırılmasının təmin edilməsidir.

❑ **Etibar SEYİDAĞA**

Artıq rəsmi Bakı Minsk Qrupu həmsədrlərinin bu mövqeyini pisləyən bəyanat verib, eyni zamanda fərdi qaydada həmsədr ölkələrə etiraz məktubları göndəriləcək. Azərbaycan prezidenti İlham Əliyev də kəskin mövqeyini ifadə edib. "Minsk Qrupu həmsədrləri münaqişənin həllinə yox, dondurulmasına çalışırlar. Onların bugünkü fəaliyyəti tamamilə mənasızdır"-prezident bildirib. Dövlət başçısı deyib ki, onlar nəinki işğalçı Ermənistana təzyiq etmirlər, hətta Ermənistanı mümkün olan problemlərdən qoruyurlar. Ölkə başçısı bəyan edib ki, Azərbaycan xalqı və dövləti heç vaxt torpaqların işğalda qalması ilə barışmayacaq. Ancaq fakt budur ki, həmsədrlər torpaqlarımızın azad olunması, qaçqın-köçkünlərin yurduna qayıtması üçün addım atan qurumlara dəstək verməkdənsə, onlara manea yaradırlar. Sadə vətəndaşından prezidentinə qədər ölkəmizin bütün vətəndaşları tərəfindən "arzuolunmaz" sayılan həmsədrlərdən imtina məsələsi də gündəmdədir. Paralel şəkildə ATƏT-in Minsk Qrupunun fövqəladə toplantısının çağırılması, vəziyyətin ciddi şəkildə müzakirə olunması, həmsədrlərin addımlarına qiymət verilməsi, Almaniya, Türkiyənin də həmsədrliyə qəbulu ilə bağlı addımların atılması təşəbbüsləri var.

Xatırladaq ki, 1992-ci ilin martında ATƏT-in Minsk Qrupu prosesi yaradılanda fikir ondan ibarət idi ki, ən tez bir zamanda Minsk konfransı çağırılsın və münaqişənin qarşısının alınması istiqamətində tədbirlər görülsün. Həmin dövrdə Minsk Qrupunun tərkibində 11 dövlət təmsil olunurdu.

XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a bildirdi ki, əgər o zaman güclü siyasi iradə nümayiş etdirilsə və Minsk Qrupu çağırılsaydı, onda mənzərə başqa cür olardı, problem daha erkən formada həll oluna bilərdi: "Təəssüf ki, bu baş vermədi. O vaxt hələ Azərbaycanın əksər torpaqları işğal olunmamışdı və 1 milyon qaçqın-köçkün fəlakəti baş verməmişdi. 11 dövlətin iştirak etdiyi formatda danışıqların aparılmasının bir qədər çətinliyindən çıxış edərək, 1995-ci il martın 23-də həmsədrlik institutu təsis edildi. Həmsədrlərin fəaliyyətini tənzimləyən və onlara mandat verən 23 mart 1995-ci il tarixli ATƏT-in qəbul etdiyi xüsusi bir sənəd də var. Bu sənədə əsasən, BMT Təhlükəsizlik Şurasının qətnamələri, ATƏT-in və beynəlxalq hüququn norma və prinsipləri, ATƏT-in Budapeşt sammitinin qərarları həmsədrlərin fəaliyyətinin əsas istiqamətlərini təşkil edirdi".

XİN rəsmisi qeyd etdi ki, illərdən sonra ATƏT-in Minsk Qrupu həmsədr institutunun fəaliyyətinin nəticəsizliyi göz qabağındadır: "Beynəlxalq ictimaiyyət tərəfindən onlara verilən mandatı doğrultmayıblar. Ona görə də Azərbaycan dəfələrlə bəyan edib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri deyil, Minsk Qrupu prosesində olan dövlətlərin hamısı - ABŞ, Rusiya, Fransa, Türkiyə, Almaniya, Belarus, İtaliya, İsveç, Finlandiya, Azərbaycan, Ermənistan - bu prosesdə fəal rol oynamalıdır. Bakı bu xüsusda ilk addımlardan biri kimi təklif etmişdi və təklifində israrlıdır ki, Vyanada, ATƏT-in mənzil qərargahında bütün Minsk Qrupunun iştirakı ilə münaqişə ilə əlaqədar xüsusi bir iclas keçirilsin. Son günlərdə də bu, Daimi Şura səviyyəsində ATƏT rəhbərliyinə bəyan edilib. Eyni zamanda fərdi olaraq da Minsk Qrupu prosesində iştirak edən hər bir dövlətə müraciət olunub ki, biz onların prosesdə aktiv rolunu gözləyirik". H.Hacıyev qeyd etdi ki, bu toplantının keçirilməsinə ilk növbədə Ermənistan mane olmağa çalışır. Eyni zamanda həmsədr ölkələr Minsk Qrupu formatında görüşün baş tutmasına bir o qədər meylli görünmürlər: "O ki qaldı digər formatlara, Azərbaycan bundan sonra da digər beynəlxalq təşkilatlarda münaqişə ilə bağlı məsələ qaldırmaqda davam edəcək".

Qeyd edək ki, hazırda ATƏT-in fəaliyyətdə olan sədri Almaniyadır. Üstəlik, Minsk Qrupunun üzvü olan Almaniyanın da üzərinə məsuliyyət və öhdəlik düşür. O halda ortaya haqlı olaraq bir sual çıxır, bəlkə Almaniya da ATƏT-in Minsk Qrupu konfransının keçirilməsi barədə təşəbbüslə çıxış etsin?

Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a dedi ki, doğrudan da ATƏT-in Minsk Qrupunun verdiyi deklorativ bəyanatlar, nəhayət, öz məntiqi sonluqlarına çatmaq üzrədir: "Göründüyü kimi, nüfuz davasından başlamış, öz dövlətlərinin münaqişəyə münasibətinə qədər bariz bir misal nümayiş etdirdilər. Eyni zamanda AŞ PA-nın da qərarlarının dəyişdirilməsinə nail oldular. Təbii ki, digər dövlətlərin də rolu az olmadı, lakin əsas məqam Minsk Qrupunun bəyanatı ilə tamamlandı. Məlumdur ki, Almaniya ATƏT sədri kimi fəaliyyətə başlayıb. Təbii ki, bu dövlət Avropada və dünyada özəl çəkiyə malik bir dövlətdir. Lakin onun da Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində tam şəkildə addımlar atacağı inandırıcı görünmür". Türkiyənin həmsədrliyinə gəldikdə isə A.Nağıyev bunları vurğuladı: "Düzdür, dost və strateji tərəfdaş dövlət kimi daima dəstək nümayiş etdirən bir dövlətdir, lakin bu məsələnin həllində tək qərar vermək iqtidarında deyil. Zənnimcə, bu gün ATƏT-in geniş tərkibli bir toplantısı keçirilməli və məhz bu suallara aydınlıq gətirilməlidir. Çünki istər Avropa, istərsə də ümumiyyətlə, Qərb münaqişənin bu qədər uzanmasında və status-kvonun saxlanmasında maraqlı olmamalıdırlar. İlk öncə təhlükəsizlik baxımından bu, həll edilməlidir, çünki iqtisadi cəhətdən belə bir çətin vaxtda mühüm layihələrin həyata keçirilməsi üçün ən önəmli məsələdir. Eyni zamanda ATƏT kimi bir qurumun nüfuz məsələsi ortadadır, bu məsələnin həllinə ciddi yanaşmamaq bu nüfuza ağır bir zərbə vurur".

Konfliktoloq Elxan Mehdiyev isə həmsədr ölkələrin əvvəlki illərdə də anti-Azərbaycan mövqeyi tutduğunu xatırlatdı: "Həmsədr ölkələr 2008 -ci ildə BMT Baş Məclisində açıq-aşkar Azərbaycanın əleyhinə səs verib ermənilərin tərəfini tutdular. Bu dəfə isə birbaşa yox, dolayı yolla öz ölkələrinin gücündən istifadə edib bu işdə ermənilərin tərəfini tutdular. 2008-ci ildən sonra da Azərbaycan rəhbərliyi onlara qarşı sərt etiraz bildirdi və ermənilərin tərəfini tutmaqda, vasitəçi kimi neytral olmamaqda günahlandırdı. Sonralar da bir çox hallarda həmsədrlər günahlandırılıb. Amma biz həm də şahidiyik ki, bütün bunlardan sonra dəfələrlə açıq şəkildə həmsədrlərin səyləri yüksək qiymətləndirilib, təşəkkür edilib. Narahat olmayın, bu kampaniya da başa çatdıqdan sonra yenə də həmsədrlərin işi yüksək qiymətləndiriləcək. Bu, onu göstərir ki, həmsədrlər qınaq üçün lazımdır. Torpaq həmsədrlərin deyil ki..." E.Mehdiyevə görə, biz artıq bildik ki, erməni sülh, torpaqlardan çıxmaq istəmir, danışıqları da uzadır: "Amma 2009-cu ildə bizə hər gün deyilirdi ki, erməni 5 rayondan çıxır və sonra iki rayondan çıxır. İndi isə bir kənddən belə çıxmır. Biz soruşmalıyıq ki, Azərbaycanın qüdrətli dövləti torpaqları azad etmək üçün nə etmək istəyir, hansı planı, strategiyasl var?" Ekspertə görə, Almaniya və Türkiyə məsələsi xəyaldır: "Almaniya həmsədr olmaq istəmir, Türkiyəni isə yaxına qoyan yoxdur. Özü də indiki vaxtda Rusiya ilə Ərdoğanın davasının getdiyi zaman bunun heç bir perspektivi yoxdur. Ümumiyyətlə, Ərdoğan rus təyyarəsini vurmaqla Qarabağı da erməniyə təslim etdi. Bunu artıq Lavrov da açıq söylədi. Yəni "heç bir Lavrov planı yoxdur və olan sülh planları da ATƏT-in arxivində saxlanmağa verildi" deməklə Lavrov bu məsələnin də arxivə göndərildiyini bildirdi. Azərbaycan rəhbərliyi də bunu yaxşı bilir. Türkiyə ilə indiki münasibətlərdə olan Rusiya heç bir zaman bu işdə Azərbaycanı

dəstəkləməz".

QAT sədri Akif Nağı, ümumiyyətlə, Minsk Qrupundan imtinanın tərəfdarıdır: “Biz əvvəldən demisik ki, Minsk Qrupu həmsədrlərinin məqsədi Dağlıq Qarabağ məsələsini ədalətli həll etmək deyil, vaxti mümkün qədər uzatmaq, Ermənistanın istədiyi nəticəyə nail olmasına şərait yaratmaqdır. AŞ PA-da işğal altındakı ərazilərimizlə bağlı qətnaməyə qarşı bu cür fəal müqavimət göstərmələri, hətta hədələməkdən, saxtalaşdırmalardan çəkinməmələri onların iç üzünü bir daha göstərdi. Mübarizə davam edir, Azərbaycan ikinci qətnamənin qəbulu ilə kifayət qədər yüksək nəticəyə nail oldu. İlk sənədlə bağlı bütün bu qaragüruha qarşı qələbə çalmaq üçün cəmi 4 səsi çatmadı. Digər qətnamə isə xeyli səs çoxluğu ilə qəbul olundu”. A.Nağı qeyd etdi ki, həmsədrlərin canfəşanlığına baxmayaraq, qəbul edilən həmin sənəddə də Azərbaycan üçün çox vacib məqamlar var: “Bunları ununtmamalıyıq. Ermənilərin saytlarını da izlədim, onlarda qələbə əhvalı yoxdur, daha çoxu ”pələngin əlindən müvəqqəti qurtulmus dovşan" təəssüratı bağışlayırlar. Azərbaycan bu yöndə təzyiqlərini və ermənilərin ifşası prosesini davam etdirməlidir. Onsuz da bu sənədlərin elə də ciddi bir əhəmiyyəti yoxdur, torpaq qətnamələrlə azad olunmayacaq. Olunsaydı, BMT qətnamələri bir işə yarayardı. Məsələ döyüş meydanında həll olunacaq. Azərbaycan diplomatik manevrləri davam etdirməklə, uyğun məqamı seçib hərbi əməliyyatlara başlamalıdır!"

Elşad PAŞASOY

Yeni Müsavat
N 99 (6420) 7 may 2016

**Mayın 6-da Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədovun sədrliyi ilə keçirilən iclasda əvvəlcə Ali Məhkəmənin hakimlərinin təyin edilməsi ilə bağlı prezidentin göndərdiyi təqdimata baxıldı.**



# Kəndlilərin torpağa görə cərimələnməsi parlamentdə mübahisə yaratdı

## Deputatlar ƏDV-nin yüksək olmasına da etiraz etdilər

**Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dedi ki, 3 hakimin səlahiyyət müddətinin bitməsi ilə əlaqədar məsələyə Məhkəmə-Hüquq Şurası baxıb və müsbət rəy verib:** "Hakimlər 10 il bundan əvvəl bu vəzifəyə 10 illik təyin olunub və aprel ayında onların səlahiyyət müddəti başa çatıb". Ə.Hüseynli həmin hakimləri - Qürbət Əsgərov, Fəxrəddin İbayev, Zakir Quliyevi müsbət xarakterizə etdi. Dedi ki, Milli Məclisin bu 3 hakimi yenidən hakim postuna layiq bilsə, hakimlərə rəy verilsə, onda bu təyinat ömürlük xarakter daşıyacaq. Bundan sonra səsvermə oldu və hakimlər deputatların rəyi əsasında ömürlük olaraq postlarında qalmaq şansı qazandılar.

Qeyd edək ki, bir neçə il əvvəl "Məhkəmələr və hakimlər haqqında" Qanuna edilən dəyişikliyə əsasən hakimlər ömürlük seçilə bilir. Lakin ömürlük hakim seçilmək ölənə qədər yox, son yaş həddinə qədər hakimlik etmək deməkdir. Azərbaycanda isə son yaş həddi 65-dir.

Ə.Hüseynlinin təqdimatından sonra Rəşadət Ağayevin Şirvan Ali Məhkəməsinin hakimi vəzifəsinə təyin olunmasına da müsbət münasibət bildirdilər.

Vergilər Məcəlləsində əlavə və dəyişikliklərin müzakirəsi zamanı deputatlar iqtisadi sahədəki problemlər, həmçinin ƏDV-nin yüksək faizlə tətbiqi ilə əlaqədar bir sıra vacib məsələlərə toxundular.

**Deputat Vahid Əhmədov dedi ki, vergidən azad olunma ilə bağlı qərar verərkən ehtiyatlı olmalıyıq. Əks təqdirdə, bu, sui-istifadələrə səbəb ola bilər. Ardınca deputat ƏDV-nin (Əlavə Dəyər Vergisi) yüksək olmasından bəhs etdi:** "Ölkəyə idxal edilən bəzi mallara, bir sıra məhsullara 18 faizlik ƏDV-nin tətbiq edilməsi Azərbaycan iqtisadiyyatına çox mənfi təsir edir. Elə məhsullar var ki, onlara ƏDV-ni 25-30 faiz də qoysan, heç bir problem olmaz. Ancaq Azərbaycan üçün lazım olan avadanlıqlara, o cümlədən qida məhsullarına ƏDV-ni diferensiallaşdırılmış şəkildə tətbiq etmək lazımdır. Bəzi məhsullara lap kiçik faiz tətbiq edilməsinə ehtiyac var".

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri, deputat Cavid Qurbanov da ƏDV-nin 18 faiz olmasını düzgün saymadı və rəhbərlik etdiyi sahənin üzləşdiri problemlər barədə açıq danışdı:** "Mən də Vahid müəllimlə razıyam. Elə məhsullar var ki, orada ƏDV 25-30 faizi də ola bilər. Ancaq bütün məhsulların hamısına eyni faizi qoymaq doğru deyil. Biz idxalın və ixracın qarşısını açmalıyıq ki, ölkədə inkişafa nail olaq. Məsələn, bizim dəmir yolunda aldığımız avadanlıqlara çox böyük gömrük rüsumu tətbiq olunur. Biz bilmirik kredit götürüb o avadanlıqları alaq, yoxsa vergi verək. Sosial baxımdan biz bilet satışında da qiymətləri qaldıra bilmirik. Bunu istəmirik. Ancaq ƏDV-nin tətbiqi dəmir yolunu müflisləşdirə bilər. Ona görə də mən xahiş edirəm baza kimi nəzərdə tutulsun ki, lazım olanda Nazirlər Kabineti bu məsələni ləğv edə bilsin".

Əkilməyən torpaq sahələrinə görə pay torpaqlarının sahiblərinə cərimələrin tətbiqi məsələsi isə geniş müzakirələrə səbəb oldu. Bu yenilik deputatlar tərəfindən etirazla qarşılandı.

**Deputat Siyavuş Novruzov etiraf etdi ki, qanunlara dəyişikliklər edərkən bir tərəfi stimullaşdırırıq, digər tərəfdə isə bu stimullaşdırmanın qabağını kəsirik:** "Cənab prezident də deyib ki, istifadə olunmayan torpaqlar mütləq istifadə olunmalıdır. Ancaq gərək biz tədqiqat aparaq, vətəndaş zəlzələdənmi istifadə edə bilmir, ya vəlvələdənmi? Biri aparıb torpağı əkir, ancaq məhsulunu bazara çıxara bilmir. Keçmişdə tədarük məntəqələri var idi. Ancaq bu gün xərci borcunu ödəmir, emal müəssisəsi kəndlinin məhsulunu almır, çünki vergi dərəcələri yüksəkdir. Ona görə də məhsul yetişdirən on minlərlə insan kənarda qalır, torpağı boş saxlayır. Cərimə edirik. Yaxşı, bu kəndli torpağı əkdi, bəs o məhsulunu neyləsin? Emal müəssisəsini tapaq, sonra kəndlini cərimə edək".

**Deputat Çingiz Qənizadə** istifadə olunmayan torpaqların hər kvadratmetrinə görə kəndlinin 10 manat cərimə olunmasına qarşı çıxdı. Kəndlinin durumunu da nəzərə almağı vacib sayan deputat bildirdi ki, əksər rayonlarda torpaqlar suvarılmır və dəmyə torpaqları olduğu üçün onların məhsuldarlıq dərəcəsini nəzərə almaq lazımdır. Deputat bir hektar əkilməmiş torpağa görə kəndlinin 1000 manat cərimə ödəməsini mümkünsüz saydı və dedi ki, bu qanun işləməyəcək.

**Deputat Elmira Axundova** fermerlərə yardım edilməsini təklif edərək dedi ki, otlaq sahələrinin az olması əlavə problem yaradıb. Ona görə də fermerlərə dövlət hesabına aşağı qiymətə yem satılmasını tətbiq etmək lazımdır. Xanım deputat bildirdi ki, kənd təsərrüfatı ilə məşğul olan sahibkarlar kredit almağa da çətinlik çəkir: "Kredit almaq istəyən sahibkarlar illərlə get-gələ salınır".

> **Siyavuş Novruzov:** "Yaxşı, bu kəndli torpağı əkdi, bəs o, məhsulunu neyləsin? Emal müəssisəsini tapaq, sonra kəndlini cərimə edək"

**Deputat Adil Əliyev isə sahibkarların ağır durumuna toxundu. Dedi ki, seçildiyi Nərimanov rayonunda 5 kvadratdan yuxarı sahəsi olan dükanların əksəriyyəti sonuncu devalvasiyadan sonra bağlanıb:** "Bu insanların kredit götürüb kiçik bizneslə məşğul olduğunu biz hamımız bilirik. Ona görə də təklif edirəm ki, kiçik bizneslə məşğul olan adamların işlətdiyi dükanların monitorinqi həyata keçirilsin və onlara 1-2 il müddətinə vergidən amnistiya verilsin. Heç olmasa o insanlara amnistiya verilsin və onlar banklara olan kreditləri ödəsinlər".

**Komitə sədri Ziyad Səmədzadə ƏDV-nin yüksək olması ilə əlaqədar vergilər naziri Fazil Məmmədova müraciət edildiyini dedi və deputatların bununla bağlı təkliflərini müdafiə etdi.** "Əminəm ki, burada qaldırılan məsələlər diqqət mərkəzindədir"-deyən komitə sədri ƏDV-nin yüksək olması ilə bağlı komitədə növbəti dəfə müzakirələrin olacağını söylədi.

**Deputat İlham Əliyev də pay torpaqlarına görə cərimənin əleyhinə çıxdı. Xatırlatdı ki, prezident bu torpaqları kəndliyə pay torpağı kimi verib:** "Bu, pay torağıdır, istəyər əkər, istəməz əkməz. Ona görə də aydınlaşdırmaq lazımdır ki, kəndli bu torpağı niyə əkə bilmir". **İ.Əliyev dedi ki, banklarda insanları kifayət qədər məlumatlandırmadan onları kreditlə bağlı müqavilələrə qol çəkdirirlər:** "Çox kiçik hərflərlə yazılmış müqavilələrdə dollar ekvivalenti ilə hesablanan kreditlərə qol çəkdirirlər və devalvasiyadan sonra onlardan qat-qat artıq pul tələb edirlər. Banklar öz risklərini sığortalamaq üçün çox yüksək faizlərlə kredit verirlər. Kredit müqaviləsində faiz göstərilmir, budur bizim bəlamız. İnsanlar bu gün problem içərisindədir. Bu, vətəndaşların banklar tərəfindən aldadılmasıdır".

**Deputat Vahid Əhmədov da həmkarlarının fikirlərini təsdiqlədi. Dedi ki, qanunu bu şəkildə qəbul etsək, sabah çox böyük problemlərlə qarşılaşa bilərik:** "Bu qanun pay torpaqlarına şamil olunsa, inanın, sabah çox böyük biabırçılıq olacaq. Ona görə də administrasiya ilə danışmaq lazımdır ki, bu məsələyə təkrar baxılsın. Heç olmasa 5, ya 10 hektardan artıq torpağı olanlarla bağlı cərimə tətbiq etmək olar. Yoxsa 50 sot torpağı olanlarla bağlı qanun qəbul etsək, biabırçılıq olar".

Spiker komitə sədri Ziyad Səmədzadəyə xitabən bu məsələnin komitədəki müzakirəsində hansı qənaətə gəldikləri barədə soruşdu. Z.Səmədzadə dedi ki, komitə iclasında da bu, geniş müzakirə olunub, ancaq nazirlik rəsmisinin izahatından sonra məsələ açıq qalıb: "Əsaslandırdılar ki, bu, belə olmalıdır".

Parlament sədri isə durumu nəzərə alıb "bu məsələni təkrar danışarıq. Amma hesab edirəm ki, 50 sotdan artıq pay torpağı ola bilməz" - deyərək layihəni səsə qoydu.

**CM-ə təklif edilən dəyişikliklərin müzakirəsi zamanı çıxış edən deputat Qüdrət Həsənquliyev narkotik maddə istifadəçiləri barədə danışdı:** ""Bəzən 0,1 qr artıq narkotikə görə narkotik istifadəçiləri həbs olunur. Bu nəyə lazımdır?" Bəzi ölkələrdə narkotika aludəçilərinə marixuanadan istifadəyə icazə verildiyini xatırladan deputat dedi ki, həbsxanada olanların böyük əksəriyyətinin narkotik istifadəçiləri olduğu sirr deyil: "Narkomanları həbsxanalara doldurmağın bir xeyri yoxdur, dövlət də onların həbsxanada saxlanılması üçün böyük xərc çəkir. O insanlar məcburi müalicəyə göndərilməlidir. Ona görə də satış, daşıma halları varsa, istintaq bunu sübut edirsə, həmin şəxs cinayət məsuliyyətinə cəlb olunmalıdır. Lakin narkotik şəxsi istehlak üçün nəzərdə tutulubsa, bu şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinə son qoyulmalıdır. Belə şəxslərin narkotik vasitələrdən istifadəsi müəyyən çərçivədə leqallaşdırılmalıdır. Bütün dünya bu addımı atır, biz də atmalıyıq".

**Spikerə kifayət qədər mübahisəli bir məsələ ilə bağlı geniş müzakirəyə ehtiyac olduğuna işarə etdi:** "Qanun layihəsi parlamentə göndərilməzdən əvvəl komitələrdə müzakirələr aparılır, təkliflər də o zaman irəli sürülməlidir".

"Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" qanun layihəsinin müzakirəsi də mübahisəsiz ötüşmədi. Qeyd edək ki, layihə Azərbaycanda sahibkarlığın inkişafı, yerli istehsal və bazarın qorunması məqsədi daşıyır. Sənəd bir sıra sazişlər və konvensiyaların müddəaları əsasında hazırlanıb. Əsas məqsəd müxtəlif ölkələrdən Azərbaycana dempinqli subsidiyalaşdırılmış idxalın qarşısında müvafiq tədbirlərin görülməsidir. Qanun layihəsində 3 qrup tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Layihədə antidempinq, kompensasiya və mühafizə tədbirləri yer alıb.

**Deputat Çingiz Qənizadə söz alaraq tənqidi fikirlərini səsləndirdi:** "Mən bayaq da qeyd etdim ki, pay torpaqlarının istifadə edilməyən bir hektarına görə 1000 manat cərimə ödəmək lazımdır. Əgər kiminsə 5 hektar torpağı varsa, o, 5000 manat ödəməlidir. Necə ödəsin? Mən əminəm ki, bu qanun işləməyəcək. Cənab prezident əminəm ki, onu geri qaytaracaq. İndi antidempinq məsələsi də elədir. Böyük avadanlıqlara da bunu tətbiq etmək olar. Amma geyim məsələsində - filan çətinlik yaranacaq. Outlet deyilən bir məsələ var. Oradan ucuz geyimləri alıb gətirirlər. Bu da gələcəkdə problemlər yaradacaq. Vergi və gömrüyün hesabına büdcəni doldurmaq olmaz. İnsanlara yaxşı yaşamaq üçün şərait yaratmaq lazımdır".

**Vitse-spiker Valeh Ələsgərov isə çıxışı zamanı bildirdi ki, məhsul hardan gətirilməsindən asılı olmayaraq əgər Azərbaycanda istehsal olunursa, bu qanun ona tətbiq olunmalıdır:** "Məhsul outletdən deyil, hardan gətirilirsə gətirilsin, Azərbaycanda istehsal olunan malın qiymətinə təsir edirsə, bu qanunun tətbiqi düzgündür. Azərbaycanda istehsal olunmayan bir şeyə bu necə tətbiq oluna bilər? Bu düzgün və beynəlxalq standartlara uyğun hazırlanmış qanun layihəsidir".

**Spiker Oqtay Əsədov da deputata iradını bildirdi:** "Siz ikinci deputatsınız ki, deyirsiniz prezident veto qoyur. Veto qoymaq prezidentin səlahiyyətidir. Onun adından danışmağın düzgün deyil. Biri uzaqgörənlik edir və ya nəsə. Komitə "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" qanun layihəsini iki həftədir işləyir. İşə də qiymət vermək lazımdır. Səs vermirsən, o sənin fikrindir". Bundan sonra qanun layihəsi səsə qoyuldu və qəbul edildi.

**Elşad PAŞASOY**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**


**Sabah Azərbaycanın və Dağlıq Qarabağın incisi Şuşanın işğalının növbəti - 24-cü ildönümüdür. Lakin budəfəki ildönüm əvvəlkilərdən fərqlənir. Bu dəfə Qarabağ problemi ətrafındakı keyfiyyətcə yeni bir situasiya var. Ötən 24 ildə ilk dəfə olaraq Azərbaycan ordusu 4 günlük müharibə ilə erməni işğalçı qüvvələrinə sarsıdıcı zərbə vurub, onun məğlubedilməzliyi mifini darmadağın edib və bununla Şuşanın da azad ediləcəyi günün çox uzaqda olmadığının anonsunu verib.**





# Şuşanın işğal günü ərəfəsində revanş müzakirələri - ekspertlər deyir ki...

## 2 aprel qisas əməliyyatının təkrarlanması mümkündürmü? Analitiklərə görə, konflikt gec-tez hərbi gücün hesabına yoluna qoyulacaq, müharibə yox, döyüş bitib...

Bəzi yerli və rusiyalı ekspertlərə görə, hətta önümüzdəki 7-8-9 may günlərində düşmən növbəti və daha ağrılı zərbə ala bilər - necə ki, Kəlbəcərin işğal günü - aprelin 2-də təcavüzkar qəfildən cəzalandırıldı. Əlbəttə ki, dəqiqini hərbi strateqlər bilər. Hər halda, məsələdə Rusiya amilini gözardı eləmək olmaz və yəqin ki, edilmir də.

Bəs önümüzdəki günlərdə işğalçı qüvvələrə qarşı Azərbaycanın növbəti antiterror əməliyyatı gözləniləndirmi?

Dünən Müdafiə Nazirliyi Azərbaycan Silahlı Qüvvələrinin -9 may ərəfəsində hücuma keçəcəyi barədə Ermənistanın gündəmə gətirdiyi məlumatlara münasibət bildirib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən musavat.com-a bildirilib ki, Ermənistan kriminal hərbi-siyasi rejimi BMT-nin Təhlükəsizlik Şurasının qərarlarına və qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair qətnamələrə əməl etməyəcəyi təqdirdə bunun baş verməsi labüddür və qaçılmazdır.

**"Ermənilər hər gün, hər an, hər saat Silahlı Qüvvələrimizin torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün tam təmin olunması istiqamətində addımlar atacağını gözləməlidirlər. Məşhur bir kəlamda deyildiyi kimi, "Ölümü gözləmək ölümün özündən daha dəhşətlidir"" -** bəyanatda bildirilir. **"Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızı düşməndən azad etməyə qadirdir və tam hazırdır. Ermənilər ölmək, hər gün ölümü gözləyərək səksəkə, qorxu içində yaşamaq istəmirlərsə Azərbaycan torpaqlarını tərk etməli, işğalçılığa son qoymalıdırlar",** - deyə Azərbaycan işğalçı tərəfə xəbərdarlıq edib.

***

"Hələ ki baş verməyən bir şeyi şərh eləmək əslində doğru olmaz. Ancaq məhz 7, 8 və ya 9-da nə olacağı elə də vacib deyil. Çünki problemin həll olunmadığını nəzərə alsaq, konflikt gec-tez bu və ya başqa şəkildə hərbi gücün hesabına yoluna qoyulacaq. Və münaqişənin həlli nə qədər süni şəkildə uzadılarsa, döyüş əməliyyatları da bir o qədər güclü və sərt olacaq".

**Bu fikri Moskvadakı Yaxın Şərq İnstitutunun eksperti Sergey Balmasov rusdilli vesti.az saytına açıqlamasında bildirib. Politoloqun sözlərinə görə, Azərbaycanın qazandığı aprel hərbi uğurları Bakını revanşa sövq edir:** "Üstəlik, ölkə hakimiyyətinə sıravi azərbaycanlıların diqqətini "kiçik qalibiyyətli müharibəyə" cəlb eləmək də sərfəlidir. Amma yenə də apreldəki situasiya göstərdi ki, Bakı "filin tədricən yeyilməsi" strategiyasını seçə bilər. Yəni söhbət uzun sürməyəcək günlər ərzində, qısamüddətli döyüş əməliyyatları ilə və Rusiya Azərbaycana təzyiq edənədək erməni qüvvələrinin tutduğu əraziləri hissə-hissə geri almaqdan gedir".

**Ekspertin qənaətincə, 5 günlük döyüş əməliyyatları Azərbaycana daha çox divident gətirib, nəinki çoxillik nəticəsiz diplomatik səylər:** "Bunun dərki Bakını *(həm də Ankaranın təqdiri ilə)* yeni uğurlara həvəsləndirir".

**Politoloq Ermənistan prezidenti Serj Sərkisyanın əlüstü üç generalı vəzifədən götürməsinə də münasibət bildirib.** "Əlbəttə ki, qələbəyə görə heç vaxt generalları işdən azad eləmirlər. Amma burada nüans var: bununla Sərkisyan uğursuz hərbi əməliyyatlara görə məsuliyyəti hərbçilərin üzərinə qoyub. Hərçənd məlumdur ki, belə hallarda hərbçilər və siyasətçilər məsuliyyəti tez-tez bölüşürlər. Bəli, bu, Sərkisyan tərəfindən taktiki məğlubiyyətin etirafı idi" - ekspert sonda əlavə edib.

***

"Situasiya indi çox təhlükəlidir və geniş miqyaslı hərbi əməliyyatların bərpası tamamilə mümkündür. Müharibənin bərpası üçün formal bəhanə İrəvan tərəfindən Dağlıq Qarabağın tanınması söhbətləri və ya həqiqətən də tanınması ola bilər". Bu fikri isə tanınmış **rusiyalı hərbi ekspert Pavel Felqenqauer** 1 in.am erməni portalına müsahibəsində söyləyib.

"Bundan əlavə, aprelin əvvəlindəki döyüşlərdən aydın olub ki, Azərbaycan hərbi cəhətdən Ermənistandan ciddi keyfiyyət üstünlüyünə malikdir. Belə vəziyyətdə Bakı qərar verə bilər ki, ortada yaxşı səbəb ola-ola döyüş əməliyyatlarını bərpa edib erməni tərəfi üzərində qələbə qazanmaq mümkündür" - ekspert hesab edir.

**Analitik daha sonra deyib:** "Azərbaycanın elə hərbi imkanları var ki, Ermənistanda yoxdur. Məsələn, özünün pilotsuz uçan aparatları ilə Azərbaycan hazırda hətta Rusiyadan da güclüdür - biz hələ Ermənistanı demirik. Rusiyada da İsrail dronları var, ancaq Azərbaycanda onların elə növləri var ki, Rusiyada yoxdur. Azərbaycan "Xeron" tipli dağıdıcı-dronlara malikdir, hansılar ki, Rusiyada yoxdur. Bakının hərbi sahədə keyfiyyət üstünlüyü Azərbaycan-İsrail hərbi əməkdaşlığının nəticəsidir. Orada özəl İsrail missiyası həyata keçirilir. Onlar Azərbaycan tanklarını, atəşi idarəetmə sistemlərini, gecə vaxtı effektli döyüş əməliyyatları aparmaq imkanlarını modernləşdiriblər. Bura əlavə edin qarşı tərəfin mühüm hədəflərini, onun müfadiəsinin dərinliyində nə baş verdiyini gecə-gündüz axtarıb tapmağa imkan verən pilotsuz uçan aparatlarını, 150 km-lik məsafəyə uçan raketlər də daxil, yüksək dəqiqlikli zərbə sistemlərini".

**Hərbi ekspert Azərbaycanın arsenalındakı Rusiya silahları haqda da danışıb:** "Azərbaycanda müasir Rusiya silahları da var. Amma ümumən İsrail silahlanma proqramı Azərbaycan tərəfinə əlavə imkanlar yaradıb. Bu, mövqe müharibəsində çox vacibdir - nə vaxt ki, gündüz də, gecə də zərbə vurmaq imkanına maliksən. Dron-aparatlar ciddi üstünlük yaradır. Onlar düşmən tərəfin dərin müdafiə qatında anbarları, müxtəlif obyektləri məhv eləməyə qadirdir. Doğrudur, erməni tərəfində də pilotsuz aparatlar var. Ancaq onlar əldə qayırmadır və heç nəyə yaramır".

**Rusiyalı analitik bir daha bu qənaətə gəlir ki, yeni hərbi qarşıdurmada Azərbaycanın növbəti uğuru üçün ciddi maneə yoxdur.** "Aydın oldu ki, erməni hərbçiləri belə müharibəyə hazır deyildilər. O səbəbdən də prezident Serj Sərkisyan generalları, o cümlədən kəşfiyyatının rəhbərini vəzifəsindən azad elədi. Azərbaycan isə sadəcə, hücumu öz istəyi ilə dayandırıb, nəinki erməni tərəfinin əks-hücumu nəticəsində" - hərbi ekspert əlavə edib.

***

Başqa sözlə, müharibə yox, sadəcə olaraq, növbəti döyüş əməliyyatları bitib. İşğalçı qüvvələrin bunun ardınca daha sarsıdıcı zərbə yeyib-yeməyəcəyi isə indi müstəsna olaraq onun öz əlindədir. Şuşanın işğal gününə bir şey qalmayıb. Ola bilsin, hərbi strategiya baxımından məhz həmin gün heç nə olmasın. Amma artıq düşmən də yəqin elədi ki, qisas anı mütləq olacaq və o elə uzaqda deyil, əgər Ermənistan nəhayət, ağlını başını yağıb ona məxsus olmayan torpaqları boşaltmağa başlamasa. Heç bir ölkə işğalçıya bu qədər möhlət verməz...



# ABŞ: "Dağlıq Qarabağı tanımırıq..."

**"ABŞ beynəlxalq ictimaiyyətlə bərabər Dağlıq Qarabağı tanımır". Bunu ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Mark Toner dünənki brifinqdə deyib. "Dağlıq Qarabağın yekun statusu yalnız hərtərəfli nizamlanma kontekstində müəyyən ediləcək", - deyə Mark Toner vurğulayıb.**

Dövlət Departamentinin rəsmi nümayəndəsi həmçinin, qeyd edib ki, ABŞ münaqişənin həllinə nail olmaq üçün tərəfləri xoşməramlı atmosferdə danışıqlar masası arxasına oturmağa çağırır.


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 99 (6420) 7 may 2016

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bir sıra yanacaqdoldurma məntəqələrinin fəaliyyətində nöqsanlar aşkarlayıb. Bu barədə jurnalistlərə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov bildirib. "Bəzi yanacaqdoldurma məntəqələri bizim möhürləri qırır. Monitorinqlərimiz göstərir ki, bir çox yanacaqdoldurma məntəqələri avtomobillərin çəninə nəzərdə tutulandan xeyli az yanacaq vurur. Bununla bağlı müvafiq sənədlər toplanıb və prokurorluq orqanlarına göndərilib".**

# Ekspertdən Ramiz Həsənova ittihamlar

## İlham Şaban: "Yanacaq keyfiyyətsizdirsə, siz hara baxırsınız?"


Ramiz Həsənov

Ramiz Həsənovun bu çıxışı mətbuatda da müzakirə olunub və ekspertlər bu sahədə problemin olmasını təsdiqləyiblər.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a açıqlamasında da bu sahədə ictimai nəzarətin zəif olduğunu vurğulayıb:** "Ramiz Həsənov çox əhəmiyyətli bir məsələyə toxunub. Mən dövlət nümayəndəsinin belə açıq çıxışını alqışlayıram. Bu, əslində ölkə prezidentinin apardığı siyasətə dəstək verən məmur mesajıdır və bu baxımdan çox əhəmiyyətlidir. Bizim yanacaq üzrə mütəxəssislərimiz var və təəssüf ki, onlar bu işlərdə çox aktiv deyillər. Bizə də tez-tez yanacaqdoldurma məntəqələri ilə bağlı şikayətlər gəlir. İstehlakçılar yanacağın həm miqdarına, həm də keyfiyyətinə şübhə ilə yanaşırlar. Çox təəssüf bu sahədə ictimai nəzarət sıfır vəziyyətindədir. Azad İstehlakçılar Birliyi olaraq bizim də bu sahədə işimiz sıfırdır və bizə bununla bağlı təndqidlər ünvanlayanlar haqlıdırlar. Azad İstehlakçılar Birliyi Ramiz Həsənovun çıxışından sonra bu məsələyə diqqət yetirəcək. Mən rayon təşkilatlarımıza da tapşırıram ki, mümkün olan ictimai nəzarəti təşkil etsinlər. Təəssüf ki, hökumət biznes qurumları üçün elə bir şərait yaradıb ki, onlar ərköyünlük edir və istehlakçıların hüququnu eninə-boyuna pozurlar. Bu anormal haldır. Dövləti də, ordunu da, biznesi də ayaqda saxlayan istehlakçıdır. Ona görə də dövlət üzünü istehlakçıya çevirməlidir".

**Ekspertin sözlərinə görə, Ramiz Həsənov həmçinin ölkədə 800-ə qədər mal və xidmətin sertifikatlaşdırılmadan bazara çıxarılmasına da narahat olmalıdır:** "Məsələn, "KİA", "Chevrolet" avtomobilləri sertifikatı olmadan satılır. Onlarla beton istehsalçısı sertifikatsız işləyir. Onu nədən düzəldir, necə düzəldir məlum deyil. Bunlar hamısı istehlakçı hüquqlarını pozan hallardır. Eyni zamanda Nazirlər Kabinetinin 343 saylı qərarına əsasən məcburi sertifikatlaşdırılmalı olan bir sıra mallar sertifikatsız sayılır. Gərək Ramiz müəllim bu məsələlərdə də narahat olsun"

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban isə bu sahədəki mövcud problemlərə görə, Ramiz Həsənovu və rəhbərlik etdiyi qurumu qınayıb:** "Əgər yanacaq keyfiyyətsizdirsə, o zaman, cənab Ramiz Həsənov, siz haraya baxırsınız? Siz dövlət qurumusunuz. Dövlət hər il büdcədən sizə vəsait ayırır və sizin vəzifəniz bu qanunsuzluqları aradan qaldırmaqdır. Bəs niyə öz üzərinizə düşən vəzifəni həyata keçirmirsiniz? Axı bu hansısa özəl qurumun işi deyil, birbaşa sizin vəzifənizdir. Komitə sədri çox maraqlı bir açıqlama verib. Əgər istehlakçının hüququ pozulursa, onu kim ortaya çıxartmalıdır. Alternativ bir qurum olmalıdır və ya dövlət qurumu gecə-gündüz işləyib o problemi həll etməlidir. Yox, əgər Ramiz Həsənovun rəhbərlik etdiyi qurum bu problemlərə nəzarəti həyata keçirmirsə, o zaman, ümumiyyətlə, o urum ləğv olunmalıdır və yerində başqa bir qurum yaradılmalıdır".



**İlham Şaban problemin həlli yolu kimi yanacaq satışı sahəsində rəqabət yaradılmasının vacibliyini diqqətə çatdırdı:** "Bunun çox asan yolu var. Bizdə yanacaqdoldurma məntəqələrində adlar çox fərqlidir. Birində "SOCAR", birində "LUKoil, birində "Azpetrol" yazılıb. Ancaq bunlar arasında karter sazişi var. Yəni hamısında eyni qiymətdir. Bizdə nə zaman ki, fərqli qiymətlər, rəqabət olacaqsa, o zaman bu problemlər aradan qalxacaq. Ancaq hazırda yanacaqdoldurma məntəqələri arasında rəqabət yoxdur. Neftayırma zavodu, yəni məhsulu istehsal edən yer yanacaqdoldurma məntəqələrinin birinin yaxınlığındadır, digərindən isə 50 kilometr aralıdadır. O zaman necə ola bilər ki, hər iki yanacaqdoldurma məntəqəsində qiymətlər eyni olsun? O zaman daşınma xərcləri necə hesablanır, onu kim ödəyir. Deməli, uzaqda olan məntəqələr bu məhsulun tərkibinə aşqarlar qatmaqla yol xərcini çıxartmağa çalışırlar. Bunun qarşısını həmin dövlət qurumu almalıdır. Çıxıb istehlakçılar qarşısında danışmaqla ört-basdır etməyin heç bir mənası yoxdur".

❑ Nərgiz LİFTİYEVA

# Naxçıvanın sabiq milli təhlükəsizlik nazirini daha döymürlər

## "Onun törətdiyi cinayət tərkibli əməlləri saymaqla bitməz"

**Naxçıvanın sabiq milli təhlükəsizlik naziri Vəli Əsgərovun dindirilməsi dayandırılıb. Sabiq naziri istintaq təcridxanasına aparıb döymür, təhqir etmirlər. Bu haqda "Yeni Müsavat"a vəkili Vüqar Xasayev bildirib. Deyib ki, baş prokuror Zakir Qaralova təkrarən müvəkkilinin üzləşdiyi qanunsuzluqlar barədə şikayət yazaraq cinayət işinin Naxçıvan Prokurorluğundan alınıb Azərbaycan Respublikasının müvafiq prokurorluqlarından birində araşdırılması üçün vəsatətlə müraciət edib: "Vəli Əsgərova təzyiqlərə son qoyulub, sonuncu dəfə Naxçıvan Prokurorluğunda onunla qanunla müəyyən edilmiş qaydada davranıblar. Vəli Əsgərovu Naxçıvan Prokurorluğuna aparıblar. O deyib ki, vəkilləri yanında olmayana qədər heç bir ifadə verməyəcək. Bununla da razılaşıb evinə qaytarıblar".**


Vəli Əsgərov

V.Xasayev deyir ki, V.Əsgərovun hansı iş üzrə dindirilməsi haqda məlumatsızdırlar: "Bizi işlə tanış etməyiblər deyə, bu haqda məlumatsızıq".

V.Xasayev bildirdi ki, müvəkkilinin öz istədiyi müdafiəçi ilə təmin olunması hissəsində hüquqlarının tapdanması hələ də davam edir: "Digər vəkil Tofiq Allahverdiyevi Naxçıvandan faktiki deportasiya ediblər. Məni də müdafiəyə buraxmırlar. Biz cinayət işinin Naxçıvan Prokurorluğundan alınması üçün Prezident Administrasiyasına müraciət etmişik. Bu məsələ birbaşa baş prokurorun səlahiyyətindədir. Baş prokurora da müvafiq şikayət-vəsatətlə müraciət etmişəm. Bundan əvvəlki müraciətim Naxçıvan Prokurorluğuna göndərilib. Sonuncu müraciətlərimə cavab verilməyib. İşgəncələrlə bağlı tədbir görülməsini də xahiş etmişəm".

**V.Xasayev deyir ki, V.Əsgərovun qohumlarına işgəncə verilməsi səngisə də, əmlakları qaytarılmayıb:** "Qardaşı Əli Əsgərova, onun qohumlarına hazırda təzyiq yoxdur. Əli Əsgərovdan alınan 100 min manat geri qaytarılmayıb, qohumlarının əmlaklarını da özlərinə verməyiblər".

V.Xasayev V.Əsgərov vəzifədə olarkən Naxçıvan MTN-də baş vermiş qanunsuzluqlar, jurnalistlərə divan tutulması, Naxçıvan aeroportunda sürücü işləyən Turac Zeynalovun dəhşətli işgəncələr altında öldürülməsi ilə bağlı ittiham verilmədiyini bildirib.

Qeyd edək ki, Vəli Əsgərovun adı Naxçıvanda jurnalistlərə qarşı ağlasığmaz təqib, təzyiq və şantaj olaylarında da hallanıb. 2013-cü ilin mayında araşdırmaçı jurnalist Yafəz Əkrəmoğlu İstanbulda olarkən Şahin adlı Naxçıvan MTN əməkdaşı onu öldürmək üçün Türkiyəyə göndərilib. O, Türkiyədə yaşayan bir neçə naxçıvanlı ilə pul müqabilində jurnalisti öldürməklə bağlı razılığa gəlib. Həmin şəxslər jurnalistin qonaq qaldığı evə hücum etsələr də xoşbəxtlikdən plan baş tutmayıb. Jurnalistə hücum edənlərdən biri - Famil Quliyev o vaxt "Yeni Müsavat"a bildirmişdi ki, onu aldadaraq bu işə cəlb ediblər. O bildirirdi ki, Yafəz Əkrəmoğlunun 40 min dollar qarşılığında İstanbulda öldürülməsi əmrini məhz Vəli Əsgərov verib. Naxçıvan MTN planlarını faş edən müsahibədən sonra Famil Quliyev müəmmalı şəkildə yoxa çıxması ilə bağlı məlumatlar da yayılmışdı.

**Yafəz Əkrəmoğlu bildirir ki, Vəli Əsgərov əslində Naxçıvan sakinlərinə qarşı törətdiyi cinayətlərə görə ittiham olunmalıydı:** "Vəkilin deməsindən belə çıxır ki, Vəli Əsgərov Vasif Talıbova etdiyi xəyanətə görə cəzalandırılır və ona açılan maddələr törətdiyi əməllərə adekvat deyil. Onun adı bir neçə ölüm, şantaj işində hallanır. Bu əməllərin ictimaiyyətə məlum olanları da var, indiyə kimi gizlədilənlər də. 2011-ci ildə Turac Zeynalov MTN təcridxanasında işgəncə nəticəsində öldürülmüşdü. Həmin işgəncələrdə Vəli Əsgərov şəxsən iştirak etmişdi və o bu ölüm hadisəsinə görə şəxsən məsuliyyət daşıyır. O vaxt mən bu hadisəni araşdırmaq istəyərkən Naxçıvandan İrana deportasiya olundum. Vəli Əsgərov hüquq müdafiəçiləri və jurnalistlərə divan tutan bir şəxs kimi də tanınır. 2014-cü ildə hüquq müdafiəçisi İlqar Nəsibovun ölümcül döyülməsində də onun rəhbərlik etdiyi orqanın əməyi var idi. Onun törətdiyi cinayət tərkibli əməllər saymaqla bitməz və bütün bunlara görə Vəli Əsgərov şəxsən məsuliyyət daşıyır. Gəlin görək ona bu əməllərinə görə cinayət işi açılacaqmı? Əlbəttə yox. Çünki o, Naxçıvan sakinlərinə qarşı törətdiyi əməlləri özbaşına etməyib. Əgər buna uyğun maddələrlə cinayət işi açılsa özləri ifşa olunacaqlar. Əgər səmimidirlərsə, Vəli Əsgərovla cinayət ortağı olan MTN-in digər vəzifəlilərinə də cinayət işi başlanılmalıdır. Biz bunun əksini görürük. Həmin şəxslər bu gün yeni qurumlara rəhbər vəzifələrə gətiriliblər. Hazırda Vəli Əsgərova işgəncə verənlər, başına qara torba keçirib, boynuna ip salanlar də elə həmin şəxslərdir".

❑ E.MƏMMƏDƏLİYEV



# Məhkumla generalın məhkəməsi başlayır

**1 saylı İnzibati İqtisad Məhkəməsində hakim Müseyib Bayramovun sədrliyi ilə məhkum Rauf Sultanovun iddiasına baxılacaq. 3 saylı İstintaq Təcridxanasında saxlanılan Rauf Sultanov Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, general-mayor Rəfael Mehdiyevi və onun müavini İftixar Qurbanovu məhkəməyə verib. Məhkumun yaxını, ABŞ vətəndaşı Mehmet Gülişiq qəzetimizə açıqlamasında deyib ki, R.Sultanov 1-ci qrup əlil kimi ona verilməli olan dərmanları ala bilmədiyinə, müalicə müəssisəsinə köçürülməsinə Tibb Baş İdarəsi rəhbərliyi tərəfindən icazə verilmədiyinə görə məhkəməyə üz tutub. 1 saylı İnzibati İqtisad Məhkəməsinə yolladığı iddia ərizəsində R.Sultanov 1-ci qrup əlil olduğunu və qanuna görə istintaq təcridxanasında deyil, Penitensiar Xidmətin Müalicə Müəssisəsində saxlanılmalı olduğunu yazıb. Qeyd edib ki, buna baxmayaraq, İstintaq Təcridxanasında saxlanılır və müvafiq dərmanlarla təmin olunmur.**

Yaxınları deyir ki, R.Sultanovun istifadə etdiyi "Finepsin" adlı dərmana görə hər ay 136 manat xərcləyirlər. Halbuki həmin dərmanların alışı üçün dövlət tərəfindən vəsait ayrılır. Təcridxananın baş həkimi Bəylər Əliyev R.Sultanova deyib ki, dərmanlar Tibb Baş İdarəsindən ayrılmadığından onu dərmanla təmin edə bilmirlər. M.Gülişiqın sözlərinə görə, təcridxananın tibbi sanitar hissəsinin stasionar saxlama şəraiti yoxdur.

"Əgər Rauf Sultanovun sağlıq durumunda ciddi bir problem yaransa, onu həyatına təhlükə olsa bütün məsuliyyət müalicəyə ehtiyacı olan məhkumu müalicə müəssisəsinə köçürməyən general-mayorla onun müavininin üzərinə düşür" -deyə M.Gülişiq bildirib. M.Gülişiq R.Sultanovun ailə üzvləri adından ədliyyə naziri Fikrət Məmmədova və ombudsman Elmira Süleymanovaya müraciət edərək qanunsuzluğun aradan qaldırılmasını xahiş edib.

❑ E.MƏMMƏDƏLİYEV

**Milli Şuranın aprelin 5-də keçirilən Koordinasiya Mərkəzinin iclasında yazıçı-publisist Mehriban Vəzir şura üzvlüyündən çıxarıldı. Məsələ ilə bağlı Mehriban Vəzir musavat.com-a verdiyi açıqlamada bildirdi ki, İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) Koalisiyasının 18-ci ümumi yığıncağından sonra Ümumi Şuraya üzv seçilən Oqtay Gülalıyev Milli Şura rəhbərliyinə sosial şəbəkədə müraciət ünvanlayıb.**

# Əliməmməd Nuriyev 400 minlik rüşvət qalmaqalından danışdı

## "İttihamları sübut etməsələr, hüquq-mühafizə orqanlarına müraciət edəcəyik..."

Müraciətdə bildirib ki, bütün müqavimətə, antitəbliğata, ayrılan 400 min manata baxmayaraq, hakimiyyət şura və Monitorinq Qrupu seçkilərində məğlubiyyətə uğrayıb. M. Vəzir onu da söyləyib ki, koalisiyanın şura üzvü, eyni zamanda sabiq koordinatoru Əliməmməd Nuriyevi bu məsələ ilə bağlı məlumatlandırıb və 400 min manat vəsait, eləcə də digər ittihamlara izah tələb edib. Daha sonra onu Milli Şura üzvlüyündən çıxarıblar.

**Məsələ ilə bağlı Əliməmməd Nuriyevlə əlaqə saxlayıb, baş verən qalmaqala onun fikrini aldıq. Ə. Nuriyev bildirdi ki, Oqtay Gülalıyevdən söylədikləri fikirləri faktlarla sübut etməsini tələb edir:** "O açıqlamasını müəyyənləşdirsin ki, görək hakimiyyət koalisiyaya vəsaiti necə və kimlərə verir? Əlbəttə ki, bu fikirlər yalnız böhtandan ibarətdir. Onu da qeyd edim ki, beynəlxalq təşkilatlar tövsiyələrində bildiriblər ki, koalisiya maliyyələşdirilsin. Bütün bunlara baxmayaraq, biz konfransımızı uzun müddət idi ki, keçirə bilmirdik. Bu zaman bir çox beynəlxalq donorlara və Dünya Bankına da müraciət etmişdik. Lakin heç bir müsbət cavab almadıq. Hələ Qubad İbadoğlunun zamanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına müraciətlə bağlı məsələ müzakirə olunmuşdu. Sadəcə olaraq, həmin zaman müsabiqəyə çata bilməmişdik. O zaman da konfransımızı keçirə bilmədik. 2015-ci ilin sonunda da konfransımız baş tutmadı. Nəhayət, şura tərəfindən bizə tədbirin keçirilməsi üçün 7 min 500 manat maliyyə ayrıldı. Bütün bu proseslərlə bağlı koalisiyaya müraciət etdik. Ancaq həmin zamanlarda maliyyə məsələləri ilə bağlı heç kim bir kəlimə belə danışmadı. Əgər bu insanlar söylədikləri vəsaitlərdən xəbərdar idilərsə, bunu konfransdan öncə niyə demədilər? Təbii ki, bu, sadəcə olaraq, gülünc bir iddiadır. Yaxud da çox igid insanlar idilərsə, deyərdilər ki, konfransa gəlmək istəmirik. Konfransımız çox yüksək səviyyədə keçirildi. 115 nəfər nəzərdə tutmuşduq, ancaq 158 nəfər gəldi. Həm beynəlxalq təşkilatlar, diplomatik nümayəndələr, həm də dövlət orqanlarından çoxsaylı qonaqlar var idi. Görünür, kimlərsə buna görə iftira xarakterli məlumatlar yayırlar".

**Ə. Nuriyev onu da bildirdi ki, ümumi yığıncaq zamanı çoxsaylı çıxışlar edərək siyasi təşkilatların bu prosesdə iştirakının gələcəkdə də yolverilməz olduğunu söyləyib:** "Onlar koalisiyanın fəaliyyətinə bu və ya digər formada müdaxilə etməyə çalışıblar. Sadəcə olaraq, qismən buna nail



Əliməmməd Nuriyev

oldular. İndi də Oqtay Gülalıyevin məktubundan görünür ki, bu kimi cəhdlər davam edir. Biz məktubda yazılanlara, o cümlədən 400 min vəsait məsələsinə izahat tələb edirik. Lakin hələ də bununla bağlı bizə izahat vermirlər. Əgər izahat verilməsə, müvafiq strukturlara müraciət etmək məcburiyyətində qalacağıq. Çünki bu, şura və koalisiya üzvlərinə müraciətdə böyük bir böhtandır. 2013-cü ilə qədər koalisiya 110 min dollara qədər qrant alıb. Ancaq mənim koordinator olduğum son illərdə bu vəsaitlər olmadı. Büdcəmiz sıfır səviyyəsində idi. Belə olan halda əlbəttə ki, bir daha deyirəm ki, bu cür ittihamlar irəli sürən insanlar cavab verməlidirlər".

**Əliməmməd Nuriyevə görə, kimlərsə düşünürlər ki, Dünya Bankı Azərbaycanda koalisiyanın inkişafı ilə bağlı vəsaitlər ayıra bilər:** "Əslində mübahisələrin bəzilərinin arxasında bu məsələ var. Hər cür şərait yaradılmışdı ki, koalisiyanın tədbirində hər kəs iştirak etsin. Belə olan halda, görəsən, vəziyyətin gərginləşməsində maraqlı olan tərəflər "kimin dəyirmanına su tökür"? Bunlar nə etmək istəyirlər? Belə qarayaxmalar olmamalıdır. Ya onlar söylədiklərini sübut etməli, ya da siyasi mədəniyyət nümayiş etdirərək, bu proseslərdən kənarlaşmalıdırlar. Əks halda, hüquq-mühafizə orqanlarına ittihamlarla bağlı müraciət edəcəyik. Mehriban xanımı da təbrik edirəm ki, Milli Şuradan öz canını qurtardı. O, bir xanım olaraq böyük ləyaqət və cəsarət nümayiş etdirdi ki, yanlış informasiya ilə bağlı ictimaiyyəti məlumatlandırdı. Bu çox cəsarətli bir addımdır".

**Ə. Nuriyev baş verənlərin seçkinin legitimliyini şübhə altına aldığını da dedi:** "Artıq hər şey şübhə altına alınıb. Hərgah ki, ümumi yığıncaqda seçkilər azad keçirildi. Səsvermə prosesi zamanı hesab edirəm ki, heç bir pozuntu olmayıb. Nə baş veribsə, bu, seçkilərdən öncə olub. Oqtay Gülalıyevin də məxsus olduğu quruma hesabat xarakterli məktubu bir çox şübhələrin yaranmasına əsasdır. Məni təəccübləndirən odur ki, Oqtay Gülalıyev məktubunda 50+1 deyə nəzərdə tutduğu adamlar da bu məsələ ilə bağlı susurlar. İnanmıram ki, onlar hansısa formada bu proseslərdən məlumatlı olublar. Hər halda, onlar məsələ ilə bağlı fikir bildirməlidirlər. Düşünürəm ki, biz koalisiyanın birliyi naminə çalışmalıyıq ki, kim siyasi fəaliyyətlərdə aktiv olmaq istəyirsə, onlar koalisiyanın işinə mane olmayıb, siyasi müstəvidə fəaliyyətlərinə davam etsinlər. Bu illər ərzində koalisiyada bir şeyi də müşahidə etdim ki, o yerdə ki, peşəkarlıq tələb olunurdu, susqunluq müşahidə edilirdi. İntriqa şəraitində isə geniş müzakirələrin şahidi olmuşam. Buna çox təəssüf edirəm".

**Qeyd edək ki, məsələ ilə bağlı Oqtay Gülalıyev musavat.com-a açıqlamasında bildirib:** "Hesab edirəm ki, bağlı qrupda yazılan və deyilən fikirlər kənar müstəvilərdə müzakirə olunmamalıdır. Kimsə onu müzakirəyə çıxarırsa, bu, onun öz məsuliyyətidir".

❑ **Əli RAİS**

# Müəllimlər artıq yeni qayda ilə maaş alacaq

**"Müəllimlərin diaqnostik qiymətləndirilməsi müvafiq qaydaya uyğun olaraq ölkənin digər şəhər və rayonlarında da aparılacaq. Bundan sonra strategiyaya uyğun şəkildə əmək haqqı islahatının ikinci mərhələsinə - diferensial, yəni peşəkarlıq səviyyəsindən və əməyin nəticələrindən asılı olan əmək haqqı sisteminə keçməyi planlaşdırırıq".**

Bunu təhsil naziri Mikayıl Cabbarov Gülüstan sarayında sabiq prezident Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə təşkil olunan "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimində çıxışı zamanı deyib. Nazir bildirib ki, müəllim əməyinin stimullaşdırılması ilə bağlı son 2 ildə atılan addımlar bu peşənin nüfuzunun yüksəldilməsində dönüş nöqtəsi olub: "Belə ki, 2014-cü ildə Bakı şəhərində 30 min, 2015-ci ildə ölkənin 3 şəhər və 9 rayonunda 26 min müəllimin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılıb. Beləliklə, ölkə üzrə müəllimlərin 40 faizinin dərs yükü 1,5 dəfə, vəzifə maaşı isə 2 dəfə artıb. Nəticədə müəllimlərin orta aylıq əmək haqqı ölkə üzrə müvafiq göstəriciyə yaxınlaşıb". M.Cabbarov eyni zamanda müəllim-şagird nisbətində əsaslı irəliləyişlərə nail olunduğunu da xatırladıb: "Bu göstərici 2012-2013-cü tədris ili ilə müqayisədə 2015-2016-cı ildə 1:10-dan 1:12 nisbətinə yüksəlib".

**Nazirin müəllimlərin əməkhaqlarının verilməsində ediləcək bu yeniliyə təhsil ekspertlərinin fikri birmənalı olmadı. "XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyevə görə, bu, müəllimləri arxayın etməməlidir:** "Müəllimlərin biliklərinin diaqnostik qiymətləndirilməsi bizim təhsil sistemi üçün yenilik idi. Bu qiymətləndirmədən sonra müəllimlərin əməkhaqları iki dəfə artırıldı. Lakin peşəkarlıq səviyyəsinə görə bütün müəllimlər eyni əmək haqqı ilə təmin oluna bilməzlər. Diferensial əmək haqqının tətbiqi bu gün gündəlikdə duran əsas məsələlərdən biridir. Yəqin ki, Təhsil Nazirliyi diferensiasiya üçün kriteriyalar üzərində işləyir. Fikrimcə, bunun üçün xüsusi diaqnostik qiymətləndirmə aparmaq doğru deyil. Ölkədə "İlin ən yaxşı müəllimi"nin seçilməsi üçün müsabiqə təşkil olunur. Əmək haqqının diferensasiyası prosesində müəllimlərin təhsil nəticələri nəzərə alına bilər. Yaxın gələcəkdə bu prosesin baş tutması orta təhsilin keyfiyyətinə də təsir göstərəcək. Bu prosesdə artıq müəllim anlayacaq ki, əmək haqqının yüksəlməsi yalnız keyfiyyətə görə mümkün olacaq. Yaxşı nəticəli müəllimlər repetitorluqdan çox məktəbə bağlı olmalıdırlar".



**Etibar Əliyev:** "Diaqnostik qiymətləndirmə orta məktəb müəllimlərimizi arxayın salmamalıdır"



**Firudin Cəlilov:** "Bunu 20 il öncə etmək lazım idi"

**Ekspert bildirdi ki, diaqnostik qiymətləndirmə orta məktəb müəllimlərimizi arxayın salmamalıdır:** "Biliyin bundan sonrakı qiymətləndirməsində əmək haqqı və dərs yükünün artımı 1-ci diaqnostik qiymətləndirmə kimi olmayacaq. Daha mürəkkəb proses olan attestasiya isə qaçılmazdır. Məktəblərdə bilikli müəllimlər qalıb çalışmalıdır. Kənarda qalanlar isə səbəbi başqa yerdə axtarmamalıdırlar. Hazırkı orta məktəb müəllimləri onu da nəzərə almalıdırlar ki, son bir neçə ildə müəllimlik peşəsini seçənlər daha yüksək balla ali məktəblərə daxil olurlar. Bu səbəbdən rəqabət mühiti də artıq formalaşmaq üzrədir. Gələcəkdə müəllim biliklərinin qiymətləndirilməsinin əməyin diferensasiyasına yönəli olmasını hər bir müəllim anlamalıdır".

**Sabiq təhsil naziri Firudin Cəlilov isə bunun düzgün, lakin gecikmiş qərar olduğunu dedi:** "Bunu 20 il bundan öncə etmək lazım idi. Məsələ ondadır ki, bu attestasiyanı aparanları kimlər müəyyənləşdirəcək və kimlər aparacaq, bu bir az şübhə doğurur. Müəllimlər müxtəlif olur. Şagirddən, tələbədən soruşmaq lazımdır ki, bu müəllim necə dərs deyir. Yəni müəllimin qiymətləndirmə mərhələsi əvvəlcə tələbədən, şagirddən başlanmalıdır. Müəllim sonradan komissiyadan keçməli, test imtahanı verməlidir. Yəni müəllimlər mütləq dərəcələrə ayrılmalıdır. 1-ci, 2-ci , 3-cü dərəcəli müəllimlər olmalıdır və onların maaşı arasındakı fərq çox böyük olmalıdır. Bu şərait yaranında tabii ki, o zəif müəllimlər öz üzərlərində işləyəcək və çalışacaq ki, maaşa görə yuxarı kateqoriya alsın. Kim özünü yüksək dərəcəyə çatdıra bilmirsə, o çıxıb gedəcək. Çünki əgər 1-ci dərəcəli müəllim 500 manat maaş alırsa, buna isə 200 manat maaş verirlərsə və bu özünü o həddə çatdıra bilmirsə, 1-2 ildən artıq qala bilməyəcək. Yəni məktəblərdə ələnmə başlayacaq. Bu sistemə çoxdan keçmək lazım idi".

❑ **Günel MANAFLI**

# "Orxanın İlhamənin oğlu olmasına dair sənəd təqdim olunacaq"

## Vəkil: "Orxan Nadirov o qədər ağılsız adam deyil ki..."

**Mərhum müğənni İlhamə Quliyevanın oğulluğu Orxan Nadirovun həqiqətən də onun oğlu olub-olmadığı aydınlaşacaq. Bu barədə O. Nadirovun vəkili Habil Vəliyev "Yeni Müsavat"a verdiyi açıqlamasında bildirib: "Yaxın günlərdə o sənəd bizə təqdim olunacaq. Hər şey əvvəlcədən görülmüş, olmuş bir işdir. Orxan onun oğludur. Bu hüquqi qüvvəsini alan kimi mətbuata açıqlama verəcəyik".**



Vəkil müğənni Əli Mirəliyevin mərhum xalq artisti İlhamə Quliyevanın ölümündə oğulluğu Orxan Nadirovu günahlandırması məsələsinə də aydınlıq gətirib: "Adını çəkdiyiniz şəxs haqqında dəqiq bilmirəm ki, o İlhamə xanımın qohumudur, ya yox. Və yaxud necə qohumdurlar, bilmirəm. Amma bircə onu bilirəm ki, Orxan Nadirov İlhamə xanımın oğludur. Onlar qan qohumudurlar. O ki qaldı onun Orxan Nadirov barəsində irəli sürdüyü ağır ittihamlara, yəqin ki, bu şəxs istəyir ki, Orxan Nadirovu qıcıqlandırmaq üçün nə isə eləsin və bu onun işlərinə müəyyən mənada köməklik göstərsin. Amma Orxan Nadirov o qədər də ağılsız adam deyil ki, hansısa qıcıqlandırıcı hərəkətlərdən nəsə etsin. O. Nadirov İlhamə xanımın tərbiyəsini görən adamdır O, belə bir ifadə işlədir, "kim nə deyir desin, elə şeylər bizə yapışmaz.

Orxan nə üçün öz anasına qarşı bu cür addımlar atmalı idi, desin görək? Nəyə görə? Bununla bağlı Orxan Nadirov konkret olaraq məhkəməyə müraciət edəcək".

**Qeyd edək ki, müğənni Əli Mirəliyev mətbuata müsahibəsində İ.Quliyevanı öldürən şəxsin oğlu Orxan Nadirov olduğunu bildirmişdi:**

"Nə Orxan, nə də ki, onun ailəsi yaxın on beş ildə İlhamənin çevrəsində olmayıblar. Sadəcə olaraq, bir-iki dəfə şou xatirinə İlhamə çıxıb dedi ki, Orxan mənim oğlumdur. Sonra da Orxan bir-iki səhv etdi, İlhamə xanımı şantaj etdi, dedi ki, məndə sənin səsyazman var.

Şantaj edirdi İlhamə xanımı, əvəzində pul alırdı. İlhaməni öldürən Orxandır, bilirsiniz. Onun ölümünə səbəb olan şəxs Orxan Əhmədağa oğlu Nadirovdur. Onun gördüyü işlərin sayəsində... Çox işlər görüb Orxan. Ona pul atıb, bundan pul alıb. Bilirsiniz, çox şeylər var. Məhkəmədə hamısı üzə çıxacaq".

**Əli Mirəliyev Orxan Nadirovu həmçinin peşəkar dələduz, oğru olmaqda ittiham edib:** "Bu adam peşəkar dələduzdur, uşaqlığında İlhamənin evindən nə qədər şeylər oğurlayıb. Hamısını özü mənə danışırdı. Heç yerdə işləmir, hardan qazanır, hardan xərcləyir".

❑ **Xalidə GƏRAY**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**
**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**
*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



# "Atletlər kəndi"ndəki qəza ilə bağlı şahidlər danışır

**Bakı Ağır Cinayətlər Məhkəməsində I Avropa Oyunlarının "Atletlər kəndi"nin nəqliyyat deposunda Avstriya yığmasının atletlərini avtobusla vurmaqda təqsirləndirilən avtobus sürücüsü Vəli Əhmədov, həmçinin Nəqliyyat Nazirliyinin (NN) Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin şöbə rəisi Hüseyn Salamov, "Təhlükəsiz şəhər" kamerasının operatoru Elçin Həsənov və NN-in Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Sərnişindaşıma Departamentinin məsləhətçisi Fərid Əmiraslanovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Lent.az-ın məlumatına görə, hakim Cavid Hüseynovun sədrliyi ilə keçirilən prosesdə şahid qismində Malik Əliyev, Yunis Abdullayev, Elşad Dəmirçiyev, Arif İsgəndərov, Kamran Quliyev və Arif Məmmədov ifadə verib. Malik Əliyev ifadəsində Bakı Avtomobil Nəqliyyat İdarəsində çalışdığını deyib. O, təqsirləndirilənlərdən yalnız Hüseyn Salamovu tanıdığını qeyd edib: "2014-cü ildə Nəqliyyat Nazirliyi tərəfindən Avropa Oyunlarında çalışacaq sürücülərin siyahısının hazırlanması tapşırılıb. Biz də Bakıda fəaliyyət göstərən daşıyıcılara müraciət etdik. Siyahılar gəldi. Siyahıların bir nüsxəsini Olimpiya Komitəsinə, birini də Nəqliyyat Nazirliyinə göndərdik".

Digər şahidlər də istintaqa verdikləri ifadəni təsdiqləyib.

Məhkəmə prosesi mayın 13-ü davam edəcək

Qeyd edək ki, keçən il iyun ayının 11-də, I Avropa Oyunlarının "Atletlər kəndi"nin nəqliyyat deposunda, "Bakubus" MMC-yə məxsus avtobus hərəkət zolağından çıxaraq piyadalar üçün səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvləri Vanessa Sahinoviçe və Luna Paceri vurub. Hadisədən sonra avtobusun sürücüsü V.Əhmədov, Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin şöbə rəisi H.Salamov və "Təhlükəsiz şəhər" kamerasının operatoru E.Həsənov adlı şəxs tutulub. NN-in Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Sərnişindaşıma Departamentinin məsləhətçisi F.Əmiraslanov isə işlə bağlı istintaqa cəlb olunsa da, barəsində həbs-qətimkan tədbiri seçilməyib. O, zaminə buraxılıb.

V.Əhmədova qarşı Cinayət Məcəlləsinin 263.1-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda), H.Salmanov və E.Həsənova qarşı 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), F.Əmiraslanova qarşı isə 314-cü (səhlənkarlıq) maddəsi ilə ittiham irəli sürülüb.

# Bakda qadın sirkə turşusu içərək intihar edib

**Bakıda 51 yaşlı qadın sirkə turşusu içərək intihar edib. Musavat.com xəbər verir ki, hadisə bir neçə gün əvvəl Binəqədi qəsəbəsində baş verib. Binəqədi rayonu, Binəqədi qəsəbəsindəki hərbi şəhərcikdə yaşayan, 1965-ci il təvəllüdlü Hekayə Müslümova intihar məqsədilə sirkə turşusu içib.**

H.Müslümova Toksikologiya Mərkəzinə yerləşdirilib və bir neçə saat sonra xəstəxanada vəfat edib.

51 yaşlı qadının intihar səbəbi bilinmir. Hadisə ilə bağlı Binəqədi Rayon Polis İdarəsində araşdırma aparılır.

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 99 (6420) 7 may 2016

# Saxta dollar tələsinə necə düşməyək?

## "Qara bazar"da aldanmamağın yolları, kələkdən qorunma üsulları

**Son aylar Azərbaycanın dollar bazarında durğunluq var. Məlumdur ki, valyutadəyişmə məntəqələrinin sürətlə qapanması insanların dollara olan ehtiyacını qara bazar vasitəsilə ödəməsinə səbəb olur. Məhz bu məqamda aldanmalar, dollar alverçilərinin tələsinə düşənlər çoxluq təşkil edir.**

Son bir neçə ayda dəfələrlə "saxta dollar alverçiləri yaxalandı" xəbərləri ilə tanış olmuşuq. Təəssüf ki, hazırda problemin qarşısının alınması imkanları da çox məhdud və yox səviyyəsindədir. İnsanlar dollar alan zaman mübadilə proseslərini rəsmiləşdirmədən, kassa qəbzləri olmadan valyutanın saxta olub-olmadığını yoxlamağa imkan tapmır.

Dəyişdirdiyi dolların saxta olduğunun fərqinə vardığı anda isə bunu kimdən, necə aldığını sübut etmək çətin olur. Hazırda valyuta bazarında baş verən proseslər ölkədə saxta dolların artması ehtimalını gücləndirir. Dünya praktikası da göstərir ki, istənilən ölkənin böhran dövrlərində saxta valyuta satışı artıb. Proseslər qeyri-leqal getdiyinə, insanlar təsadüfi proseslərin içərisində olduğuna görə böyük əksəriyyət bu prosesdə uduzur.

### Saxta dolları həqiqisindən necə ayırmalı?

Yaxşı bəs saxta dolları həqiqisindən ayırmağın yolları nələrdir? Saxta əsginaz ilk növbədə, görünüşünə görə əsl puldan fərqlənir. Saxta əsginazlarda rəng əsasən solğun olur. Pulun ölçüsü orijinaldan fərqlənir. Bundan başqa, mühafizə elementlərində də fərq hiss edilir.

Əsginazların mühafizə elementləri təkmilləşdikcə saxta əsginaz fırıldaqçıları da texnologiyaları təkmilləşdirirlər. Buna görə bəzən saxta əsginazı adi gözlə müəyyən etmək çətin olur. Bu zaman xüsusi ultrabənövşəyi işıq altında pulun həqiqiliyini görmək mümkün olur. Belə ki, bu cür şüa əsl pulun gizli nişanlarını göstərdiyi halda saxta pulda bu, olmur. Müşahidələr göstərir ki, Azərbaycanda daha çox manat və ABŞ dolların saxtalaşdırılmasına rast gəlinir. Bu pulları vətəndaşlara vermək üçün isə xüsusi yerlər seçilir.

2015-ci ildə dövlətin iqtisadi təhlükəsizliyinin qorunmasına yönəlmiş əməliyyat tədbirləri ilə 45 faiz saxta pul hazırlama və satma cinayəti aşkarlanıb. Bunu daxili işlər naziri Ramil Usubov bu il yanvarın 26-da Daxili İşlər Nazirliyinin yeni istifadəyə verilmiş konfrans zalında 2015-ci ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclasında çıxışı zamanı deyib.

Nəticədə qeyri-leqal dövriyyədən ümumi məbləği 71 min manat, 79.100 ABŞ dolları və 225 min rubl olan 2167 ədəd saxta əsginaz, habelə istifadə müddəti ötmüş 6 tondan çox yeyinti məhsulu və tikinti materialı çıxarılıb.

### Dolların "mətbəx"ində "qazanlar" necə qaynayır?

Amerika dolları Birləşmiş Ştatlarda olduğu kimi, dünyada da geniş istifadə olunur. Ona görə də olduqca vacibdir ki, onun etibarlılığı və unikallığı qorunsun. Bu vəzifə 150 ildən artıqdır ki, Amerika əsginazlarını çap edən hökumət agentliyinin üzərinə düşür. "Amerikanın səsi" bununla bağlı hazırladığı xəbərdə ilginc detallara toxunub. Birləşmiş Ştatlar milyonlarla dolları hər gün həm Vaşinqton şəhərində, həm də Texasda yerləşən obyektlərdə çap edir. Bunlar dünyanın pul çap edən ən böyük müəssisələridir. Çap bürosu Abraham Linkolnun prezidentliyi dövründə 1862-ci ildə, Vətəndaş Müharibəsi zamanı yaradılıb.

Büronun direktoru Larri Feliks Birləşmiş Ştatlarda əsginazların çapından danışır. **"Bu kağızın üzərində sadə mürəkkəbə bənzəyir. Lakin bu əsginazların çap sistemi xeyli mürəkkəbdir. Çağın ilk mərhələsində arxa rəng tətbiq olunur. Bundan sonra kağız əvvəlcədən çəkilmiş qravürlərin üzərinə sıxılır. Bu, "İntalio" texnikasıdır ki, kağıza xüsusi keyfiyyət verir. "Birləşmiş Ştatlar başqa ölkələrlə müqayisədə "intalio"dan daha çox istifadə edirik, Pulun həm qarşı, həm də arxa hissəsinə yerləşdiririk"** - deyə, Larri Feliks bildirir.

Belə olan halda əlavə sıra nömrələri və möhür də olur. **"Beləliklə, biz insanlara bu əsginazların qanuni olduğunu anlamalarına yardım edirik. Biz əsginazlarda rəqəmsal texnologiya baxım təhlükəsizliyi təmin etməyə çalışırıq".**



Rozi Rios Birləşmiş Ştatların xəzinədarıdır. O, Birləşmiş Ştatlar valyutasının başqa valyutalarla müqayisədə bir çox üstünlüklərinin olduğunu deyir. O, pul istehsalı ilə məğul olan hər iki təşkilata, "Çap və Qraviasiya Bürosu" və qəpik istehsal edən ABŞ Sikkə orqanına birbaşa nəzarət edir.

Rosi Rios saxta pulların dövriyyədə az qalmasına baxmayaraq, Amerika hökumətinin yeni texnologiyadan istifadə edərək, əsginazları yeniləməkdə davam etdiyini deyir. O, buna misal olaraq bu yaxınlarda çapdan çıxan yeni 100 dolları göstərir. "2013-cü ilin oktyabr ayında çıxan 100 dollarlıq əskinazda əsas məqam, buradakı mavi 3D təhlükəsizlik lentidir".

### Bu dizaynı unutmayın - 1928-ci ildə təsdiqlənib

Dollar əsginazının görünüşü tarix və əfsanəvi hadisələrin paradoksal şəklidə qarışdırılması nəticəsində yaranıb. əsginazların dizaynında bəzi elementlər çox vaxt mason və ya mifik simvollar kimi başa düşülür. Hansısa mənada bu iddialar aqlıdır. Belə ki, ABŞ-ın əsa - sını qoyanların əksəriyyəti mason olub və bu gün də Birləşmiş Ştatlarda mason lojaları müəfvvəqiyyətlə işlərini davam etdirirlər. Hazırda mövcud olan dollar əsginazlarının başlıca dizaynı 1928-ci ildə təsdiqlənib. əsginazlarda ABŞ-ın dövlət xadimlərinin portretləri əks olunur: ABŞ-ın birinci prezidenti Corc Vaşinqtonun portreti 1 dollarlıq əsginazı, üçüncü prezident Tomas Cefferson 2 dollarlıq, ABŞ-ın 16-cı prezidenti Şimal və Cənub müharibəsinin qalibi Abraam Linkoln 5 dollarlıq, ABŞ-ın əsasını qoyanlardan olmuş və ilk maliyyə naziri Aleksandr Hamilton 10 dollarlıq, ABŞ-ın yeddinci prezidenti və müasir dolların yaradıcılarından olmuş Endrü Cekson 20 dollarlıq, ABŞ-ın 18-ci prezidenti və vətəndaş müharibəsinin qəhrəmanı Uillis Qrant 50 dollarlıq, alim, publisist və diplomat Benjamin Franklin 100 dollarlıq əsginazda əks olunub.

Vaxtilə buraxılmış 10 minlik əsginaz üzərində isə Linkoln dövründə maliyyə naziri və sonradan Ali Məhkəmənin rəhbəri olmuş Selmon Ceyz Amerika pulları üzərində "Biz Tanrıya inanırıq" yazısının dərc edilməsi qərarını vermişdi. Bu kəlmə ilk dəfə 1864-cü ildə 2 sentlik sikkələr üzərində, 1957-ci ildə ilk dəfə kağız əsginazlar üzərində həkk edilməyə başlamışdır. 1963-cü ildən bəri isə daimi olaraq istifadə olunmağa başlanıldı.

1864-cü ildə ABŞ Konqresinin qəbul etdiyi qanuna əsasən, Amerika valyutası üzərində sağ olan şəxsin portretinin dərc edilməsi qadağan edildi. Bu qanun maraqlı bir tarixi hadisə ilə əlaqələnir: məsələ bunda idi ki, dollar istehsalı ilə məşğul olmağa ilk dəfə olaraq başlamış Valyuta Bürosunun rəhbəri Spenser Klark 5 sent məbləğində olan əsginazlara öz portretini həkk etdirmişdi. Əslində bu təcrübə bir o qədər də qeyri-adi görünməzdi. Belə ki, artıq əsginazlar üzərində fəaliyyətdə olan məmur Ceyzin portreti dərc edilmişdi. Məsələ isə bunda idi ki, tezliklə Klarkın adı əxlaqsızlıq fəaliyyətlərində hallanmağa başlayır. Belə olunca, Amerika dollarını çirkinlikdən mühafizə etmək üçün Konqres belə bir qanunu qəbul edir.

əsginazın əks üzündə isə ABŞ tarixini əks etdirən və ölkənin simvolu hesab olunan tarixi məkanlar təsvir edilib. Kifayət qədər az rast gəlinən 2 dollarlıq əsginazlarda Müstəqillik Deklarasiyasını imzalayan qəhrəmanların birgə durduğu məkan, 5 dollarlıq əsginazlarda Linkolnun Vaşinqtonda yerləşən Memorialı, 10 dollarlıqda ABŞ Maliyyə Nazirliyinin binası, 20 dollarlıqda Ağ Ev, 50 dollarlıqda Kapitoliy, 100 dollarlıq əsginazda isə ABŞ Müstəqillik Bəyannaməsinin imzalandığı "İndependens Holl" (İstiqlal Qülləsi) təsvir edilib.

Bütün dollar əsginazları ABŞ maliyyəsinə cavabdeh olan məmurların imzasının tam surəti ilə əks etdiriliblər. Əvvəllər bu imzalar real insanların həqiqi imzaları olurdu.

❑ **Sevinc TELMANQIZI**

# Azərbaycanda ekoloji maarifləndirmə problemi

## Prezidentin tapşırığı ilə ərsəyə gələn dərslik niyə tədris olunmur?

**"9-11-ci siniflər üçün Qara Mustafayev və Rəfiqə Əliyevanın hazırladığı "Ekologiya" dərsliyi tədris olunmur. Prezidentin göstərişi ilə ərsəyə gələn həmin kitab 5 ildir ki, məktəb kitabxanalarında "yatır"". Bu sətirlər gənc ekoloq Fərid Məmmədovun redaksiyamıza ünvanlandığı məktubundadır.**



Belə bir fənnin keçilməsini vacib sayan ekoloq mövcud durumun məktəblilərin həmin elmdən bixəbər qalmasına gətirdiyini deyir. Fərid Məmmədov yazır: "Təbiətsevər olduğum və kamil nəsil yetişməsini istədiyim üçün bu məsələdə çox narahatam. XXI əsrdir, ekoloji problemlər dünyanı cənginə alıb, lakin yeniyetmə və gənclərimiz həmin problemlərin yaranma səbəblərindən, gələcəkdə daha nələr ola biləcəyindən, fəlakətlərin qarşısını almaq üçün yaradılmış qanunlardan, nəzəriyyələrdən, görülmüş və görülməli olan tədbirlərdən, layihələrdən, bir sözlə, ekologiya elmindən, demək olar ki, tam məlumatsızdırlar. İncəsənəti inkişaf etdirdiyimiz kimi, eko-elmini də öyrənib ekoloji mədəniyyəti formalaşdırmalı, fəaliyyətə keçməliyik".

**Müəllifə görə, Kamil xalqlar ekoloqların həyəcan təbilini çoxdan eşidib hərəkətə keçiblər:** "Biz də tərəqqi üçün çalışmalıyıq. Hər xalq ekoloji cəhətdən maariflənsə, dünyanı fəlakətdən xilas edər. Biz də hərəkətə keçib borcumuzu yerinə yetirməli, 21-ci əsrin tələbinə uyğun davranmalıyıq. Orta məktəblərdə "Ekologiya" fənni mütləq tədris olunmalıdır. Hər kəs hərəkətlərinə görə gələcək qarşısında məsuliyyət daşımalıdır. "Gənclər ekoloji bilikləri mənimsədikcə dünyanın mahiyyətini dərk edəcək, ətraf mühiti düşüncəli sevəcəklər". Bunu isə Qara Mustafayev deyib.

❑ **NURLAN**

YENİ MÜSAVAT

Son səhifə

N 99 (6420) 7 may 2016

# Kirayəyə pişik verən firma

Almaniyanın Köln şəhərində bugünlərdə qəribə bir firma fəaliyyətə başlayıb. Kirayə pişik firması bir neçə günlüyə, hətta aylığa pişik sahibi olmaq istəyənləri arzusuna çatdırır. Firmanın 37 yaşlı sahibi Mark İvon deyib ki, onlara daha çox gənc qızlar və valideynlər müraciət edir. Qızlar rəfiqələrindən və ya sevgililərindən ayrı qalanda təsəllini bu yumşaq tüklü heyvanda tapırlar. Valideynlər isə hesab edir ki, uşağa sevgi hissi aşılamaq üçün onu heyvanlara yönəltmək vacibdir. İlk növbədə uşağa pişik kimi zərərsiz heyvanın köməyi ilə heyvan sevgisi aşılanır. Pişiklərin bir aylıq kirayəsi 90 dollar civarındadır. İstəyənlər bir neçə günlük və ya həftəlik də pişik kirayələyə bilər ki, bu da günlük 3 dollar anlamına gəlir.





## Ər-arvadın münasibəti pisləşəndə.... borcları da artır

Son illər ər-arvad və ya sevgililər arasındakı münasibətlər daha çox “tükənmişlik sindromu” ucbatından bitir. Bu, türkiyəli ailə mütəxəssislərinin apardığı araşdırmanın nəticəsində ortaya çıxıb. Sözügedən sindrom insanların həyatına girəndə beyin bədbəxtləşməyə başlayır. Bu vəziyyət inkişaf etməyə başlayanda isə beyin bədbəxtliyə qarşı önləm almağa başlayır və digər həzzvericiləri fəallaşdırır. Bunların sırasında sosial mediaya aludəlik, uşaqlarla uğraşmaq yer alır. Psixoloqların qənaətinə görə, əksər cütlüklər bu vəziyyətdən çıxmaq üçün alış-verişə meyl edir. Özünü bədbəxt hiss edənlər demək olar ki, alış-veriş mərkəzlərindən çıxmırlar. Öz münasibətlərindən zövq almayanlar əllərində dolu torbalar olanda daha xoşbəxt olurlar. Və bir müddət sonra bu, vərdiş halına dönür. Münasibətlər pozulduqca cütlüklərin borcları da artmağa başlayır. Çünki xərcləri və kredit kartları da artır. Özlərini yaxşı hiss etmək üçün alış-verişə aludə olan cütlüklərə əsas məsləhət isə bir-birilərini sevmələri, düşdükləri vəziyyətdən çıxış yolları axtarmaqdır. Çünki mənəvi nəsnələrdən gələn müsbət enerjini heç bir alış-veriş əvəzləyə bilmir.

# 43 ildir qəzet yığır...

Türkiyənin Muş şəhərində 57 yaşlı fermer İacui Ocoiaieeo gündə 6-7 qəzet oxumaqla kifayətlənmir. O, 43 ildən bəri aldığı bütün qəzetləri yığır. Uzunboylunun evinin bir otağında saxladığı qəzetlər ədliyyə işçiləri, tələbə və alimlər üçün yararlı vəsaitdir. Evli və 3 uşaq atası olan bu kişi qəzet yığmağa 14 yaşından başlayıb. Aldığı qəzetləri yığmaqla yanaşı, o, günün ən vacib xəbərlərini də bloknotuna qeyd edir. Bugünlərdə Almaniyada yaşayan uşaqlarına baş çəkən Nazim bəy orda da alman qəzetlərini arxivləyib: “Mənim arxivim açılmamış cinayətlər, yol qəzasında ölənlər, vəkil, alim və tələbələrə işıq tutur. Son iki ayda Diyarbakıra 400 qəzetin surətini vermişəm. Bu qəzetlər dəlil olaraq istifadə edilir. Yığdığım qəzetləri də ailəmin bir üzvü kimi sevirəm. Onların xarab olmaması üçün hər gün otağın havasını dəyişir, jurnalların tozunu alıram. Belə bir sərvətə sahib olmaq çox gözəl bir hissdir. Mən ölsəm, uşaqlarımın bu ənənəni davam etdirməsini istəyərəm”.





## Uşaqlarını maşının baqajında saxlayırlar

Pensilvaniya ştatından olan cütlük oğullarının qaranlıq qorxusunu onu maşının baqajında saxlamaqla “müalicə” etməyə çalışıblar. “Reuters”in xəbərinə görə, Lenxart soyadlı ailə uşaqlarını konfetlə şirnikləndirərək maşının baqajına qoyublar. Bu hadisə düz 3 dəfə, attraksion parkına gedərkən baş verib. Lenxartların bu tərbiyəvi üsulları barədə polisə niktofobiyadan əziyyət çəkən oğlanın böyük qardaşı məlumat verib. Bundan sonra ailənin himayəsində olan uşaqları baxmaları üçün yaxın qohumlarına veriblər. Valideynlərə qarşı isə uşağın həyatını təhlükə altında qoyduğu üçün cinayət işi açılıb.

Məhkəmədə Cefri və Daniyel Lenxart bildirib ki, uşaqlarına baqajda qorxmaması üçün əl fənəri veriblər və evdən parka qədər məsafə də 15 kilometr təşkil edibmiş. Valideynlər etdiklərindən peşman olduqlarını bildiriblər. Hakim onların psixoterapiya kurslarına getmələri barədə qərar verib və 2 il şərti azadlıqdan məhrum etmə ilə cəzalandırıb. Yaxın günlərdə hər iki uşaq valideynlərinin yanına qaytarılacaq.




**QOÇ** - Ailə üzvlərinizlə, eləcə də digər yaxınlarınızla mübahisələriniz gözlənilir. Bu səbəbdən də çılğın olmayın. Hər bir anlaşılmazlığı dözüm və səbrlə yoluna qoyun. Yeməyinizə də fikir verin.

**BUĞA** - Gün ərzində hər şey çıxardığınız qərarlardan asılı olacaq. Xüsusən də iş prinsipində kənar mövqeləri mütləq nəzərə almalısınız. Günün ikinci yarısında sənədləşdirmə işlərində yanlışlığa yol verməyin.

**ƏKİZLƏR** - Ailə üzvlərinizə qarşı qayğıkeş və mərhəmətli olun. Əgər onların arasında xəstə olanı varsa, hamıdan çox siz ürək yandırın. Axşama yaxın büdcənizin artacağı da gözlənilir. Bədxərclik etməyin.

**XƏRÇƏNG** - Ayın əvvəlindən reallaşdıra bilmədiyiniz planlara görə məyusluq keçirməkdənsə, əzmkarlığınızı artırın ki, boşluqlar aradan qalxsın. Ən azından bu gün mütləq həyatınızda yenilik olmalıdır.

**ŞİR** - Hiss olunur ki, dünəndən bəri səhhətinizlə bağlı yüngül problem yaranıb. Odur ki, özünüzü qoruyun. İndi sizə qapalı yerdə çox oturmaq olmaz. Yeni işlə bağlı məramlarınızı mümkün qədər təxirə salın.

**QIZ** - Daxili orqanlarınıza diqqəti artırın. Əgər mədənizlə bağlı sancmalarınız varsa, həkimə müraciət edin. Fiziki rahatlığınızı təmin etmək üçün daha çox yataqda uzanmalısınız. Qalan şeylər düzələr.

**TƏRƏZİ** - Yaxşı olar ki, bütün planlarınızı saat 16-ya qədər başa çatdırasınız. Əks təqdirdə sonrakı vaxt düşərli olmayacaq. Ulduzlar deyir ki, içinizdəki şübhələrdən qurtulmayınca, xilasınız çətin olacaq.

**ƏQRƏB** - Daxili narahatlığınız günün ikinci yarısından etibarən aradan qalxacaq. Amma bu təqvimdə fiziki işləri kifayət qədər azaltmağınız məsləhətdir. Əks təqdirdə səhhətiniz pisləşəcək. Kalorili qidalara üstünlük verin.

**OXATAN** - Bəri başdan əmin ola bilərsiniz ki, bu gün ulduzlar maddi rifah halınızı yüksəldəcək. Bu istiqamətdə bütün mümkün variantlardan yararlanmalısınız. Uzaq səfərlərə isə çıxmağa tələsməyin.

**OĞLAQ** - Ətraf mühitin sərtliyinə qarşı acizlik nümayiş etdirməyin. Ən azı ona görə ki, bu hal sizdə bədbinlik yarada bilər. Fəallığınızı artırın. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**SUTÖKƏN** - Sizə elə gəlməsin ki, ünsiyyətdə olduğunuz adamların hamısından ağıllısınız. Bu təkəbbür sizi gözdən sala bilər. Gün ərzində daha sadə, daha mülayim olun. Əcnəbilərlə işbirliyinə getməyin.

**BALIQLAR** - Yeni görüşləriniz məqsədlərinizə yaxınlaşmaqda sizə yardımçı olacaq. Qarşı tərəfin ədalətli təkliflərini qəbul etməyə hazır olun. Bu gün yalan danışmaq və ya vəd vermək sizə əziyyət verə bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Amerikada ölüləri dirildəcəklər...



ABŞ-ın “Bioquark” şirkəti beyin ölümü keçirən xəstələr üzərində təcrübə aparmaq üçün əlaqədar qurumlardan etik icazə alıb. İcazədən sonra şirkət 20 nəfər üzərində təcrübə apararaq bu insanların mərkəzi sinir sistemlərini həyata qaytaracaq. “Habertürk”ün xəbərinə görə, təcrübə zamanı xəstələrin beyin funksiyalarının yenidən hərəkətə keçirilməsi üçün bir çox fərqli üsuldan istifadə olunacaq. Alimlər hesab edir ki, təcrübə zamanı istifadə edəcəkləri kök hüceyrələr insan beynindəki keçmişi silə biləcək. Hüceyrələrdə yer alan məlumatların əsasında yeni bir həyat başlaya bilər. “Bioquark” şirkətinin rəhbəri İra Pastor deyib ki, təcrübədə ilk iki-üç həftədə pozitiv nəticə almağı gözləyirlər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750